ASİF MƏRZİLİ

# SONUNCU ƏMR

(Roman)

qanun nəşriyyatı

*Əsərdə təsvir olunan hadisələrə verdiyi ekspert rəyinə görə Vətən Müharibəsi Qəhrəmanı O.Əkbərovun silahdaşı Tofiq Muradova dərin təşəkkürümüzü bildiririk.*

**Asif MƏRZİLİ. SONUNCU ƏMR** *(Roman)*
Bakı, Qanun nəşriyyatı, 2024, 208 səh.

Kitabın redaktoru: **Fəxrəddin Ağazadə,**
*fəlsəfə elmləri doktoru, Beynəlxalq Aqrar Təhsil Akademiyasının Akademiki*

Kitabın məsləhətçiləri: **Seyran SƏXAVƏT**,
*Yazıçı*
**Mais Bərxudarov,**
*General-leytenant, Korpus komandiri*

Korrektorlar: **Yasəmən Məmmədli**
**Elbar Şirinov**

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-

© Asif MƏRZİLİ, 2024
© Qanun Nəşriyyatı, 2024

# GİRİŞ

Real faktlar əsasında yazılmış roman əfsanəvi kəşfiyyatçı, Azərbaycanın Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Orxan Əkbərovun döyüş yolundan bəhs edir.

Əsərdə 1828-ci ildə İran və Türkiyədən Azərbaycanın tarixi ərazisi olan Qarabağa köçürülmüş ermənilərin zaman-zaman torpaqlarımıza göz dikməsi, Qarabağda ikinci erməni dövləti yaratmaq arzuları, bu arzuların gerçəkləşdirilməsi üçün ötən əsrin sonlarından başlayaraq Azərbaycan xalqının başına açdığı müsibətlər, soyqırımlar, eləcə də 1990-1993-cü illərdə Qarabağ bölgəsindəki Şuşa, Laçın, Xocalı, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Xocavənd rayonlarını işğal etməsi, tarixi abidələri, yurd yerlərini viran qoyması və s. bədii təsvirlər və rəsmi qaynaqlarla oxucuya təqdim edilir.

Kitabda, həmçinin Azərbaycan Ordusunun 2016-cı ilin 4 aprel və 2020-ci ilin 44 günlük döyüş əməliyyatları, nəhayət, 2023-cü ilin 19-20 sentyabr günlərində həyata keçirdiyi sonuncu lokal hərbi əməliyyatları ilə 30 il ərzində işğal altında qalmış bütün əraziləri azad edərək

düşmənin Qarabağda yaratmaq istədiyi ikinci erməni dövlətini – "Dağlıq Qarabağ Respublikası" adlı qondarma-separatçı qurumu tarixin arxivinə göndərməsi, nəhayət, 2023-cü il oktyabrın 15-də Prezident, Ali Baş Komandan İlham Əliyevin Xankəndi, Ağdərə və Xocalıda Azərbaycanın üçrəngli Dövlət Bayrağını qaldırması şanlı tarixi hadisə kimi oxucuya təqdim edilir.

Beləliklə, döyüş və siyasət meydanında tamamilə məğlub olan düşmən 28 sentyabr 2023-cü il tarixdə özünün uydurduğu "DQR" adlı separatçı qurumu buraxdığını elan etmişdir. Bununla da Azərbaycan Ordusu Qarabağın bütün ərazisinə nəzarəti ələ keçirmiş, işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın üçrəngli bayrağı dalğalanmışdır.

Təqdim edilən bədii əsərdə bu tarixi Zəfərdə xüsusi xidmətləri olmuş şəhid və qazi qəhrəmanlarımızın keçdiyi zəngin döyüş yoluna nəzər salınmış, Vətən müharibəsi Qəhrəmanı Orxan Əkbərovun göstərdiyi igidliklər bədii təsvirlərlə verilmişdir.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş igidlərimizə Allahdan rəhmət diləyirik!

Qarabağ Azərbaycandır!

**Asif MƏRZİLİ**
*Türkiyə Beynəlxalq Qəzetçilər Federasiyasının üzvü,*
*Türkiyənin anadoluyakasihaber.com portalının köşə yazarı,*
*Avropa Mətbuat Federasiyasının üzvü,*
*"Təzadlar" qəzetinin baş redaktoru*

# PROLOQ

...Qapı açıldı. Bayaqdan ağız deyəni qulaq eşitməyən sinifdə uşaqların şıltaq hərəkətlərinin yaratdığı səs-küydən əsər-əlamət qalmadı. Hamı ayaq üstə idi. Sinifdə milçək uçsaydı, eşidilərdi.

– Salam, uşaqlar! – Müəllim sinfə daxil olan kimi pencəyini çıxartdı, çantasını masanın üzərinə qoydu: – Hamı gəlib?

Sinif nümayəndəsi ayağa qalxdı: – Müəllim, hamı burdadır…

Müəllim barmağının ucu ilə eynəyini aşağı əyib sinfə göz gəzdirdi. Bu zaman birinci partadakı yerin birini boş gördü: – Axı bir yer gözümə boş dəyir… Orda Orxan əyləşmirdi? Hardadı, bilən varmı?

Sinif nümayəndəsi pərt olmuş kimi, – Müəllim, bu gün onun ad günüdür, yəqin indi gələr, – dedi.

Orxanın doğum tarixi 1982-ci il idi. Yəni, düşmən yurdlarımızın işğalına göz qoyanda Orxanın cəmi səkkiz yaşı, Xocalı, Şuşa, Laçın... işğal ediləndə on, Ağdam, Kəlbəcər, Füzuli, Zəngilan, Ağdərə, Xocavənd, Qubadlı, Cəbrayıl... işğal olunanda isə on bir yaşı tamam olmuşdu… Bu gün isə onun günü idi…

Müəllim sözünu tamamlayıb davamiyyəti yoxlayan zaman qapı açıldı:

– Aha, sözünüz düz çıxdı, o gəldi… Orxan Əkbərov, keç əyləş, – deyə, müəllimin zəhmli baxışları onu əyləşənədək müşayiət etdi.

– Hə, uşaqlar, bu gün inşa yazımızın mövzusunu təqdim edirəm. Kim yaxşı yazsa, onun şəkli məktəbin "Şərəf lövhəsi"ndə olacaq.

Orxan 6-cı sinifdə oxuyurdu. Müəllim uşaqlar arasında gələcəkdə hansı peşə sahibi olmaq istədikləri barədə sərbəst inşa yazı mövzusunu elan etdi. Hərəyə bir dəftər vərəqi verilmişdi. Müəllim uşaqlara bu barədə fikirlərini necə yazmağı başa saldı. Sonra hamı mövzu ətrafında fikir və arzularını vərəqə özünəməxsus forma və üslubda yazmağa başladı.

Dərs müddəti başa çatanadək müəllimə sual verən, hansı fikri necə ifadə etməyi soruşan şagirdlər də oldu. Sonra hamı yazdıqları vərəqləri toplayıb sinif nümayəndəsinə, o da müəllimə təqdim etdi. Müəllim ad sırası ilə şagirdləri bir-bir ayağa qaldırıb nə yazdıqlarının izahını bilmək istəyirdi. Kimi gələcəkdə həkim, kimi polis, kimi müəllim... olmaq istədiyini yazmışdı. Növbə Orxana çatdı.

– Hə, Orxan, sənin yazdıqların çox xoşuma gəldi, – deyə, müəllim vərəqə bir də göz gəzdirib onu ayağa qaldırdı.

– Gələcəkdə sən kim olmaq istəyirsən? De, uşaqlar da eşitsin…

Orxan yaşına uyğun gəlməyən dərin düşüncələri, məntiqli cavabları ilə həmişə sinif müəlliminin diqqətini cəlb edirdi.

O, fikirləşmədən: – Müəllim, mən hərbçi olmaq istəyirəm... İstəyirəm ki, torpağımızı işğal edən erməniləri öldürüm, sağ qalanları da torpaqlarımızdan qovum…

Müəllim onu sorğu-suala tutdu ki, düşüncələrini daha ətraflı izah etsin:

– Deyə bilərsənmi, gələcəkdə erməniləri niyə öldürmək istəyirsən? Axı onlar da canlıdır, adamdır…

Orxan müəllimin fikirlərinin ardını gözləmədən:

– Müəllim, onlar adam olsaydı, Xocalıda qocaları, körpələri öldürməzdilər. Qonşumuzda Xocalıdan olan bir uşaq var, onların 5 nəfərlik ailəsindəkilərin hamısını öldürüblər, uşaq tək qalıb, onu qonşuları himayəyə götürüb, burda yaşayırlar… O, danışır ki, atasının başını kəsiblər, anasını təndirdə yandırıblar, bacı və qardaşlarını isə ov itlərinin qabağına atıb diri-diri parçalatdırıblar…

Bunları söylədikcə Orxanın sifəti qəribə bir rəngə boyanır, incə əlləri titrəməyə başlayır, dodaqları əsirdi. Onu ağlamaq tutdu. Sinifdə uşaqların hamısı onun necə həyəcanla danışmasına hakim kəsilmişdi.

Müəllim ona yaxınlaşdı: – Ağıllı oğlum, elədir, ermənilər insan deyillər deyə insanlığa yaraşmayan cinayətlər törədiblər. Bu, xalqımızın tarixidir və onu unutmayın, – deyərək Orxanın başını sığalladı: – Bəs o uşağın adı nədir?

– Adı Rüstəmdir… Mənimlə dostdur. Bir dəfə anamın ad günü idi. Dedim, gedək dükana, hədiyyə seç-

məkdə mənə kömək elə... Birlikdə getdik. Mən onun anasının faciəli şəkildə öldürüldüyünü bilmirdim. Hədiyyəni alanda dedim ki, birini də sən götür. Dedi istəmirəm. Soruşdum ki, niyə? Elə bildim pulu yoxdur, dedim, pulunu mən verərəm, götür, anana hədiyyə edərsən… O, hönkürüb ağladı. Əlindən tutub dükandan bayıra çıxartdım. Soruşdum niyə hədiyyəni almadın? Niyə ağlayırsan? Çox pis olmuşdum. Ağlaya-ağlaya dedi ki, "Mənim anam yoxdur, ermənilər onu diri-diri yandıraraq öldürüblər. Mən isə təsadüfən qarın altında sağ qalmışdım… Əsgərlərimiz məni xilas etdilər. Don vurmuşdu, 1 il Bərdədəki xəstəxanada müalicə olundum, indi ayağımın biri zədəlidir, çətin yeriyirəm. Axı bizim günahımız nə idi?".

Sinifdəki uşaqların hamısı kövrək hisslərlə Orxanın danışdıqlarını dinləyirdilər. O, danışdıqca titrəyən dodaqlarına süzülən göz yaşını silib müəllimin qarşısında başını aşağı əymişdi.

– Başını qaldır, oğlum, – deyə, müəllim onu sakitləşdirməyə çalışdı:

– Sən başını dik tut. Hamınız başınızı dik tutun… Vaxt gələcək, Xocalıda, Qarabağımızın işğal olunmuş ərazilərində insanlarımızı qətlə yetirmiş o terrorçu ermənilərdən qisası sizlər alacaqsınız…

Müəllim sözünü tamamlayarkən Orxan balaca yumruqlarını düyünləyib: – Müəllim, mən mütləq qisas alacağam, – deyə ötkəm səslə müəllimin üzünə baxdı.

Bu sözlərdən sonra sinifdəki uşaqların hamısı ayağa qalxıb xorla: – Müəllim, biz də Orxanla birgə düşmən-

lərimizdən qisas alacağıq! – deyərək müəllimi dövrəyə aldılar…

…Zaman keçəcək, hələ uşaq ikən düşmənə qarşı içində nifrət hissi bəsləyən Orxan Əkbərov böyüyəndə elə bu niyyətə könül verəcəkdi, Ali Hərbi Akademiyaya daxil olacaqdı, hərbi sahəni seçəcəkdi. Və vətən də onu seçəcəkdi. Onun yolu torpaqlarımızı viranəyə çevirən düşmənə qan uddurmaqdan, düşmənin işğal etdiyi ərazilərdən birdəfəlik rədd edilməsinə nail olmaqdan keçəcəkdi. Və o, bu müqəddəs yolda da şəhid olacaqdı, qəhrəmanlıq zirvəsinə ucalacaqdı! Nəhayət, Orxan Əkbərov anadan ailəsinə övlad, vətənə isə qəhrəman-igid əsgər, komandir doğulduğunu şücaəti ilə sübut edəcəkdi!

## 10 MAY 2020-Cİ İL

…Rəşad artıq ikinci dəfə idi əfsanəvi kəşfiyyatçı kimi ad qazanmış, N saylı hərbi hissənin komandiri ilə görüşmək istəyirdi, amma bu baş tutmurdu. Hamı onun görüşmək istədiyi komandiri "Qartal" deyə çağırırdı. Deyəsən, bu dəfə görüş alınacaqdı. Çünki "Qartal"ın həftədə bir dəfə anasıgilə gəlib keçmiş orta məktəb dostları ilə söhbətləşməsi olurdu. Elə Biləsuvarda da ona belə demişdilər.

Rəşad bu görüşü əldən buraxmamaq istəyirdi. Ona görə də bazar günü səhər tezdən taksi ilə Bakıdan çıxıb Biləsuvara, ötən dəfə söhbət etdiyi yerli sakinlərin və komandirin qardaşının ünvan verdiyi çayxanaya gəldi. Maşında əyləşib kənardan çayxananın giriş qapısını izləməyə başladı. Təxminən saat 12:00 radələrində ona təsvir edilən formalı, mülki geyimli, idmançı cüssəli bir şəxs özü yaşda olan bir neçə nəfərlə çayxanaya daxil oldu. İntuisiyası onu aldatmırdı. Sankt-Peterburqdan buraya məhz "Qartal"la görüşməyə gəlmişdi.

O, sakitcə çayxanaya daxil oldu. Axtardığı və arasında "Qartal"ın da olduğunu güman etdiyi bir neçə nəfər

səliqəli bəzədilmiş, sahmanlı çayxananın lap yuxarı başında əyləşib deyib-gülürdülər. O, "Çayçı qardaş, bir dəqiqə olarmı? " deyərək çayçını çağırdı: – Əmioğlu, bir dənə pürrəngi, kəklikotulu çay verə bilərsənmi?

– Əlbəttə, xoruzquyruğu çayımız olacaq. Özü də bulaq suyundan…

Rəşad çayçını söhbətə tutmaq istədi, yaxşı girəvə idi:

– Hə? Biləsuvarda bulaq var? – gülümsədi…

Çayçı sakit səslə: – Bax, o gördüyün qara saçlı oğlan hərbi hissə komandiridir, Füzuli istiqamətində xidmət edir. Hər bazar bura gəlir, o tərəflərdəki bulaqdan iki-üç "konistr" bulaq suyu gətirir, məxsusi olaraq həmin sudan ona da çay qaynadıram, dostları ilə 3-4 çaynik içirlər, – deyib, dəmə qoyduğu çayniki gətirməyə getdi.

Çayçı çayniyi masaya qoyanda Rəşad ondan yanında əyləşməyi xahiş etdi:

– Əmioğlu, o dediyin komandirin adı nədir?

– Adı Orxandır, amma hamı onu "Qartal" deyə çağırır. Kəşfiyyatçıdır, igid oğlandır.

– Aha, nə gözəl. O burda nə qədər olur, sonra hara gedəcək, onunla bir söhbətim var, bunu necə edə bilərəm?

Çayçı bir az fikrə getdi, alnını ovuşdurdu. Bu o demək idi ki, qoy fikirləşim, deyərəm.

Çayçı "Qartal"ın olduğu masaya yaxınlaşdı, Rəşadın xahişini onlara çatdırdı.

"Qartal" ayağa qalxıb Rəşadın masasına tərəf gəldi, çayçını səsləyərək: – Məmməd, quzu kəsərəm, mənim stəkanımı da bura gətir, – deyib, Rəşadla salamlaşdı:

– Buyurun, eşidirəm, çayçı dedi ki, mənimlə vacib söhbətiniz var. Siz kimsiniz? Nə məsələdir?

Rəşad ayağa qalxaraq komandirin salamını aldı, əyləşib söhbətə başladı:

– Komandir, mən Sankt-Peterburqdan gəlmişəm. Rusiya vətəndaşıyam. Əslim Ağdamdandır. 8 yaşında –1992-ci ildə Xocavəndə atamın qohumlarıgilə qonaq getmişdik. Geri qayıdanda güclü yağış yağdı, sonra duman gəldi, ermənilərin pusqusuna düşdük. Atam, anam, dayım və bibim, kiçik qardaşım, bir də mən. Ermənilər bizi girov götürüb əvvəlcə bir mal fermasına apardılar, sonra bizi vəhşicəsinə döyüb işgəncələr verərək məndən başqa hamını öldürdülər. Mən də təsadüfən sağ qaldım. Orda bir dəstə başçısı var idi, adı Ruben idi. Evi Hadrutda idi… Sağ gözünün düz üstündə iri xalı vardı, alnında da çapığı. Olmazın işgəncəyə məruz qaldıq, bizi pəyədə saxlayırdılar, kəsilmiş donuzun dərisini bizə atıb deyirdilər ki, sağ qalmaq istəyirsinizsə, yeyin… Həmin pəyə onun böyük bir həyətində yerləşirdi. Sonradan məlum oldu ki, o ərazilərdə əsir və ya girov düşənləri Rubenin ixtiyarına verirmişlər. Çünki pəyənin divarlarının metryarım hündürlüyündə olan hissəsində qan ilə bizimkilərin adları yazılmışdı. Mən ona yaxın adı oxuya bilmişdim. Güllə yerləri də var idi. Yəqin ki, bəzilərini elə oradaca güllələmişdilər. Qırxılmış qadın saçına da rast gəlmişəm. Kəsilmiş insan qulağı, barmaqlar var idi. Atam onları bizə göstərib deyirdi ki, bunları hansısa itaətə məcbur edə bilmədiklərindən bu cür işğəncə ilə öldürüblər…

Rəşad danışdıqca “Qartal”ın sifətinə bir kədər çökmüşdü, üzündə sərt bir forma yaratmışdı. O, dərindən ah çəkib qeyri-ixtiyari əlini zərblə masaya vurdu. Ətrafdakılar bu səsə diksinərək ona tərəf çevrildilər: “Komandir, nəsə olub?”. Komandir başını buladı: – Artıq bizə olan olub… Amma onqat əvəzi çıxılacaq, – deyərək söhbətə nöqtə qoymaq istədi:

– Rəşad, sən mənə de görüm, indi mən nə edə bilərəm, mənə onu de…

– Komandir, mənə bir gün vaxt ayırın, sizinlə ətraflı danışım. Görürəm, indi dostlarınızlasınız. Əsas odur ki, sizi tapa bildim. İkinci dəfədir gəlirəm, sizi tapa bilmirdim. Mən Rusiya vətəndaşıyam, kəşfiyyat briqadasında xidmət etmişəm… Özümə erməni pasportu düzəltdirib iki dəfə Hadruta keçməyə cəhd etmişəm. Bir dəfə Kəlbəcər və Daşkəsən istiqamətindən. İki ay əvvəl. Lakin güclü yağışa düşdüm, ayaq izimi görə biləcəkləri səbəbindən geri qayıtdım. Yadınızdadır, Kəlbəcərə öz kəndlərinə gedən iki nəfər var idi, növbəti dəfə eyni yolla getdikləri üçün ermənilər pusqu qurub onları girov götürmüşdü. Mən həmin istiqamətdən, amma fərqli cığırla gedirdim, yarı yoldan qayıtmalı oldum. 3 gün ardıcıl olaraq yağış başladı, sulu qar da üstündən. Belə hava şəraitində sıldırımlı ərazilərdə hərəkət mümkünsüz olur, bilirsiniz…

– Yaxşı, indi fikriniz nədir? Məndən nə kömək istəyirsiniz?

– Komandir, sizin sorağınızı Sankt-Peterburqda almışam, Ağdamdan olan bir nəfər danışmışdı. Nə giz-

lədim, hazırda 38 yaşım var, amma ailə qurmamışam. Səbəb də budur ki, mən o Rubendən atamın, anamın, qardaşımın, dayımın və bibimin qisasını almalıyam. Anam öldürüləndə son sözü bu oldu: “Qisasımı al bu murdarlardan, oğlum…”. İstəyirəm məni kəşfiyyatçı kimi öz yanınıza götürəsiniz. Və mənim Hadruta keçməyimə kömək edəsiniz.

“Qartal” qaşlarını çatdı, xeyli fikrə getdi. Ürəyində bir çox suallara cavab tapmağa çalışdı: “Bəlkə bu diversantdır, düşmən kəşfiyyatçısıdır… Öyrənməliyəm… Niyə məhz mənim üstümə göndəriblər? “. Bu cavabsız sualları doğuran səbəblər var idi: “Qartal” son bir neçə ayda iki dəfə düşmənin arxasına keçərək onların bir sıra strateji məntəqələrinin koordinatlarını müəyyənləşdirmiş, həmçinin iki hərbi bazaya gedən yolu minalamışdı. Onlardan biri artıq işə də düşmüşdü. Baş vermiş partlayışla bağlı Ermənistan Müdafiə Nazirliyi rəsmi açıqlama da yaymışdı, 3 nəfərin öldüyünü, iki nəfərin isə yaralandığını yazmışdılar.

Komandir Rəşada təklifini verdi:

– Siz pasportunuzun iki surətini və əslini, bir də hərbi biletinizin əslini və iki surətini mənə verin, yuxarı rəhbərliklə məsləhətləşim, qərarımı verərəm.

– Komandir, pasportum və hərbi biletim yanımdadır, buyurun, baxa bilərsiniz...

“Qartal” ilk olaraq Rusiya pasportunu açıb vərəqlədi, elə ikinci vərəqi açanda ani olaraq qaşlarını çatdı, sual dolu baxışlarla Rəşadın üzünə baxdı:

– Bu nədir, pasportunuzda sizin erməni olduğunuz yazılıb?

Rəşad başını yelləyib gülümsədi:

– Bəli, komandir, kəşfiyyatçının bir neçə pasportu olmalıdır, bilirsiniz… Mən Rusiya ordusunda, özü də kəşfiyyat bölməsində xidmət etmişəm… Qoy sənədlər sizdə qalsın, mənə bir gün sərbəst söhbət üçün vaxt ayırın, gəlim, hər şeyi sizə ətraflı izah edəcəyəm.

"Qartal" hələ də təəccüb içində idi. Onlar xudahafizləşəndə: – Rəşad, həftənin gələn bugünkü günü burada görüşürük… Oldumu? – deyib sağollaşdı.

– Oldu, komandir! – Rəşad duruxdu, – Komandir, kaş tezliklə müharibə başlaya, qisasımı bu terrorçuların hamısından ala biləm…

– Bu, mənim də, hamımızın da ən müqəddəs arzumuzdur. Qisas qiyamətə qalmaz! Darıxma, az qalıb! Azacıq səbrli olaq, – deyə, komandir ondan ayrıldı.

"Qartal" dərhal zəng edib hərbi komandanlığa bu barədə məlumat verdi. Rəşadın sənədləri xüsusi xidmət orqanlarının araşdırılmasına təqdim olundu. Lakin şübhələr hələ də qalırdı: "Axı qisas almaq üçün bu yola razı olmaq hər adamın atacağı addım deyil, bu, olduqca risklidir, ölümə meydan oxumaqdır…", – deyə düşündü: "Lakin onun ailəsinin başına gətirilənlərlə hələ tam tanış deyilik. Bəlkə də o vaxt 8 yaşı olan uşağın tərtəmiz dünyası gözünün qarşısında ağır işgəncələrlə qətlə yetirilmiş valideynlərinin faciəli taleyi ilə darmadağın

edilib, səbəb də budur", – deyərək bir daha özlüyündə düşündü.

❧

"Qartal" hərbi hissəyə belə suallı düşüncələrlə qayıtdı. Bu vaxt qarşısına hərbi hissənin əməliyyat fəaliyyətinə nəzarət edən Hərbi-Əks Kəşfiyyatın rəisi çıxdı. Onlar ailəvi dost idilər. "Qartal" Rəşadla olan görüşünü ona da danışdı. Xüsusi xidmət rəisi "Narahat olma, sənədlərinin surəti mənə də təqdim olunsun, detallı araşdırmaya verəcəyəm", – deyərək məsləhət də verdi: "Biz əvvəlcə onu guya sınaq müddətinə fəaliyyətə cəlb edirik, sonra agenturaya tapşırıq veriləcək, tam nəzarətə götürüləcək".

❧

Artıq Rəşadın dosyesi tam hazır idi. Onun həqiqətən də kimliyi bəlli oldu. Qalırdı özünün gəlib baş verənləri daha ətraflı danışıb izah etməsi. Çünki onun bir pasportunda erməni olduğu yazılmışdı. O, bütün bunların necə baş verməsinə aydınlıq gətirməli idi.

❧

…Rəşad Bakıdan Biləsuvara doğru yola çıxanda artıq hava işıqlanmışdı. O, rayona daha tez çataraq "Qartal"la məlum söhbətinə yekun vurmaq arzusunda idi. Onun bu arzusu hələ 8 yaşında – valideynləri, kiçik qardaşı və dayısı, bibisi ermənilər tərəfindən qətlə yetirldikdən sonra ermənilərin bir yeyib-içmə məclisin-

də xəlvətcə meşəyə qaçmasından, qurd-quşa yem olma təhlükəsi ilə üz-üzə qaldığı vaxtdan, sonralar yenidən tutularaq girov saxlanılmasından, ikinci dəfə bir də qaçarkən ermənilər tərəfindən ələ keçirilərək digər girov düşmüş bir neçə azərbaycanlılarla birlikdə Beynəlxalq Qızıl Xaçın xətti ilə Azərbaycana təhvil verildiyi gündən ürəyində baş qaldırmışdı. Bu arzu onu Moskvaya, oradan Sankt-Peterburqa digər dayısının yanına aparmış, orada qisasının nə vaxtsa baş tutacağı günü gözləyirdi. Və yol boyu Tanrıya yalvarırdı ki, həyatını büsbütün darmadağın etmiş erməni Rubendən qisas alması üçün ona şans versin.

Çayxanaya daxil olanda çayçı ona fərqli kabinet göstərdi: – Siz hələlik burda oturun, komandir gəlsin, sizinlə orda görüşəcək, – dedi.

Rəşad komandirə zəng etdi: "Salam komandir, necəsiniz, mən gəlmişəm…".

"Qartal" salamı aldı. Ancaq "Qartal" ın səsi bu dəfə daha ötkəm və zəhmli gəldi ona: "Siz çayxanada olun, mən bir neçə dəqiqəyə çatıram…".

"Qartal" çayxanaya gəlib Rəşadla görüşdü. Sonra təklif etdi ki, onunla belə bir ictimai yerdə söhbət edə bilməyəcək, əvvəldən müəyyənləşdirdiyi kabinetdə görüşsünlər.

İçəri daxil olub əyləşdilər. Amma komandir nə fikirləşdisə, Rəşada xitabən: – Yox, qərara gəldim ki, biz gedək hərbi hissəyə, orada söhbət edək, bura tez-tez gələn

olacaq, hamı da salamlaşır, görüşür, cəbhədəki vəziyyəti xəbər alır. Həm də hərbi hissəmizlə qiyabi tanış olarsınız…

Hərbi hissəyə çatanda onları qarşılayan hərbi hissə növbətçisi farağat komandası ilə ənənəvi olaraq son məlumatları məruzə etdi, sonra əvvəldən müəyyənləşdirilmiş kabinetlərin birinə keçdilər. Əvvəldən razılaşdıqları kimi, xüsusi xidmət rəisi başqa bir kabinetdə onların bütün söhbətini dinləyəcəkdi, şübhəli məqamlar qeydə alınardısa, sonda o da öz qərarını verəcəkdi.

– Ardımca gəlin, çay içə-içə söhbətimizi edək. Narazı deyilsiniz?

– Yox, komandir, – deyərək Rəşad gülümsədi, – Bu günün mənim üçün nə qədər məsuliyyətli olduğunu özümdən başqa kimsə anlaya bilməz. Mən bu günü düz 30 il gözləmişəm… Nəticəni bilmirəm, qərarınız necə olacaq, ondan da xəbərsizəm. Amma inanıram ki, ötən dəfə söylədiyiniz kimi, qisas qiyamətə qalmayacaq. Mən həm Rubendən, həm də birlikdə hamımız o biri cəlladlardan qisasımızı ala biləcəyik. Vicdanıma and olsun, bu torpağımıza, bayrağımıza and içirəm, mənim üçün həyat artıq heç nədir, ölümdən qorxmuram, bura da sizin yanınıza onu göz altına alıb gəlmişəm, sadəcə, siz mənə o şərəfli ölümü qazanmağıma şərait yaradın…

Komandir onun səmimi və mübariz ruhda söylədiklərinə hakim kəsilmişdi:

– Rəşad, mən səni yaxşı anlayıram… Biz təxminən həmyaşıdıq, hətta həmkarıq, ikimiz də kəşfiyyatçıyıq, bil ki, igid bir dəfə ölür, qorxaq hər gün! Amma biz çalışmalıyıq ki, ölməyək, düşməni öldürək, düşmən üstünə ölməyə yox, öldürməyə getməliyik…

Sonra əlavə etdi:

– Bu yaxınlarda qəzetlərin birində maraqlı xatirə oxudum. Bəlkə tanıyarsan, dünyada tanınan alimdir, Xudu Məmmədov…

– Hə, böyük dayım onun haqqında mənə çox danışıb, qeyri-adi həyatı və elmi fəaliyyəti olub…

– Hə, məqalədə onun xatirəsini oxudum. O, ikinci dəfə infarkt keçirir, onu Mərkəzi Klinikaya aparırlar. Qohum-əqrəba və elə həkimlər də ondan əlini üzür. Qeyri-səlis məntiq nəzəriyyəsi üzrə tanınmış alimlərdən olan Rafiq Əliyev dostu yatan xəstəxanaya gedir, növbətçi həkim onu ağır xəstə olan dostunun yanına buraxmır, deyir ki, reanimasiyadadır, hamı Allahdan möcüzə gözləyir… Dostu son borcundan çıxmaq üçün təsəllverici sözlər yazılmış bir kağız parçasını həkimə uzadır, xahiş edir ki, ona versin… Həkimin getməyi ilə qayıtmağı bir neçə dəqiqə çəkir. Bu biri dostu az əvvəl yazdığı kağızı həkimin əlində görəndə düşünür ki, o artıq bu dünyanı tərk edib. Sonra kədər içində həkimdən özünün yazdığı kağızı alır, amma görür ki, alim dostu kağızın arxasına nəsə yazıb. Sevinclə oxuyur: “Təsəllinə görə çox sağ ol! Amma mən bilirəm ki, başıma gələnlər başıma gələcəklərin ən pisi deyil!”.

Rəşad diqqətlə komandirin üzünə baxdı, bunun nə demək olduğunu gözəl başa düşürdü: – Bəli, komandir, – deyərək bir az da yaxına gəldi: – Alimə Allah rəhmət eləsin, həyatın acı da olsa fəlsəfəsi belədir, o mənada mən də bilirəm ki, başımıza gələnlər başımıza gələcəklərin ən pisi deyil, amma bütün hallarda biz hər şeyə hazır olmalıyıq…

Komandir onun fikirlərini bir az da qüvvətləndirdi:

– Əlbəttə… Əgər qalib olmaq istəyirsənsə, məğlubiyyətə də hazır olmalısan. Çünki məğlubiyyət həm də qalib olmaq üçün bir dərsdir! Əminəm ki, biz qalib gələcəyik. Çünki biz haqq yolundayıq…

Komandir daha sonra görüşün əsas məzmunu ətrafında söhbətə başladı:

– Hə, buyur, Rəşad, söhbətə keçək. Ümidini itirmə. Əgər sən düşməndən qisas almaq ümidi ilə bu günədək yaşamısansa, demək, arzuna çatmış kimisən. Amma bir məsələ də var…

Sonra duruxdu, qaşlarını çatdı:

– Deməli, belə: bir yaşlı kişi, eşitdiyimə görə, o da yurdundan didərgin salınanlardan olur, uzun illər yurd həsrəti onu ağır xəstəliyə düçar edir. Hansı həkimə aparırlar, deyirlər ki, sağalması mümkün deyil, xərçəng onu haqlayıb… Kişi sonuncu dəfə bir professorun yanında olanda ona yalvarır ki, qurban olum, elə elə ki, öz yurduma qayıtmağıma qədər yaşaya bilim, ora çatanda Əzrayıla canım qurban olsun, əsirgəmərəm… Professor yaşlı kişinin yaşamaq və yurduna, öz evinə qayıtmaq, bircə gün də olsun otuz il əvvəl tərk etdiyi torpaqdan ha-

lallıq istəmə arzusundan dəhşətə gəlir. Bilir ki, bu fazaya gəlmiş xərcəngin müalicəsi mümkünsüzdür, qocanın ömrünə isə ən çoxu iki həftə qalıb... Çarəsiz qalıb qocanın ümidini qırmır. Məcburən kişini aldadır, ona elə bir dərman adı yazır ki, heç bir aptekdə olmur… Hətta kişi həmin dərmanı tapmaq üçün Təbrizə gedir, oğlu Moskvaya uçur, İstanbula gedənləri olur. Dubaydakı tanışlarına da resepti göndərirlər. Lakin hər yerdə belə bir dərmanın hələ də kəşf olunmadığını bildirirlər. Sən demə, professor qəsdən belə bir səhv ad altında dərman yazır ki, kişi o dərmanın istifadəsi ilə sağalacağına ümidini itirməsin və o ümidlə də mümkün qədər çox yaşasın. Nəhayət, kişi tapılmayan bu dərmanın axtarışlarından bezib sonuncu dəfə professorun yanına qayıdır: “Professor, niyə mənə əziyyət verirsiniz, sizin yazdığınız dərman hələ kəşf olunmayıb, artıq 3 aydır axtara-axtara qalmışıq…”, – deyə kişi dava-dalaş salır. Professor ciddi şəkildə: – Kişi, kəşf olunub, amma hələ dünyanın bir çox ölkələrinə yayılmayıb. O dərman Yaponiyada kəşf olunub, bir həftəyə oradan gələn var, demişəm, gətirəcəklər, bir az da səbr elə…

Komandir iki əlini çarpazlayıb onu diqqətlə dinləyən Rəşadın ümid dolu baxışları qarşısında donub qalmışdı. Amma fərqinə varmadan onu diqqətlə dinlədiyini görüb: – Darıxma, söhbətimin mənası var, – deyərək davam etdi: – Professor birdən xatırlayır ki, axı qocanın ömrünə ən azı iki həftə qaldığını müayinələrindən bilirdi, amma artıq 3 ay ötüb, kişi hələ də sağdır… Və kişiyə daha bir ümid verib onu rayona yola salır. Dərhal əcza-

çılıqla məşğul olan dostundan xahiş edir ki, ona kəkliko-tu, qantəpər, yarpız və bir də baldırqan dəmindən hazırlanmış, tərkibi şəkər və azacıq da qara undan olan 180 ədəd həb düzəltsin. Həblər hazır olur, professor kişiyə zəng edir, qoca gəlir. Professor kişiyə tapşırır ki, bu dərmandan gündə birini at, 3 aydan sonra yenidən gəl. Professor dərmanın pulunu almır və kişi gətirdiyi bir topa pulu özü ilə geri qaytarır. Professor şübhə yaranmasın deyə, bir də onu deyir ki, ikinci partiya dərman gələndə pulunu bir yerdə götürəcəyəm… Kişi 3 aydan sonra professorun yanına gəlir. Müayinə olunur, məlum olur ki, ağrılar kəsilib, nəfəsalma artıb… Professor müayinə nəticələrinə baxanda özü təəccüb qalır. İnanılmaz idi: kişinin xərçəng hüceyrələri zəifləmiş, nəfəs borusunun ötürücülüyü artmış, iştahı bərpa olunmuşdu…

Komandir Rəşadın təbəssümlü gözlərinə baxdı: – Rəşad, bir gün də olsa yurda qayıtmaq arzusu ilə yaşamaq ümidi qocanı sağaltmışdı…

Rəşad mətləbi başa düşmüşdü: – Bəli, komandir, gözəl məntiqdir, ibrətamizdir, – deyərək əlavə etdi: – Siz də mənə o ümidi verin ki…

Komandir: – Bil ki, düşməndən qisas almaq arzusu səni heç vaxt məğlub olmağa qoymayacaq, psixoloji olaraq qalib olmağa hazırlayacaq! Sən artıq düşmənə qalibsən, çünki o rəzildir, alçaqdır, qəddardır, bəşəri duyğulardan uzaqdır! O, məhv edilməlidir! – Komandir əsəbi halda davam etdi: – Sən o Rubeni və onunla əlbir olmuş alçaq və yaramazları məhv etməlisən!

Komandir hiss etdi ki, əsəbdən qan təzyiqi qalxıb, özünü ələ almağa çalışdı: – Bağışla, bu yaramazların adı gələndə özümü ələ ala bilmirəm…

Sonra ayağa qalxdı, əsəblərini tarıma çəkən hissləri özündən kənar etməyə çalışdı. Bunu isə Rəşadla söhbətə başlaması ilə özündən kənar edə bilərdi:

– Rəşad, özümdən asılı deyil… Buyur, indi keçək əsas məsələyə: mənə təqdim etdiyin pasportlarının birində adın "Roman Arsenoviç Muradyan"dır. Digərində isə "Rəşad Aslan oğlu Muradov" yazılıb. Sən bunlardan hansısan?

Rəşad xeyli fikrə getdi. Əllərini qoşalaşdırıb barmaqlarını bir-birinə daradı, iti baxışlarla "Qartal"a baxdı. Gözlərində dünyanın ən ağır dərdini yaşamış bir insanın ağrıları aydın görünürdü. O, əlləri ilə başını sıxdı, sonra dərindən ah çəkib ağır-ağır söhbətə başladı:
– Komandir, ermənilərin girovluğundan azad ediləndən sonra məni dayımın yanına göndərdilər. Qatarla Sankt–Peterburqa getdim. Dayımın dostlarından biri məni özü ilə apardı. Artıq 9 yaşım vardı. Dayım məni görəndə dəhşətə gəldi. Ermənilərin əlindən qaçanda yarğana düşmüşdüm, bədənimdə qançırlar, yaralar hələ də var idi. Dayım məni hamama salıb çimizdirəndə isə kürəyimdəki çubuq yaralarının izlərini görüb özünü saxlaya bilmədi, ağladı. Məni qucaqlayıb: "Ay şərəfsizlər, 8-9 yaşlı uşaqdan intiqam alırsız?! Tüpürüm sizin ləyaqətinizə…", – deyib yaralarımın çalınçarpaz izlərini fotoaparatla çəkdi. Ağzım yara tökmüşdü. Girovluğun qorxusu psixoloji durumumu tamamilə pozmuşdu. Çün-

ki ermənilər atamı, anamı, qardaşımı, dayımı və bibimi öldürəndən sonra məni donuz saxlanılan tövləyə salmışdılar. Acından ölməmək üçün donuza verilən yemin qalıqlarını axurun dibindən tapıb yeyirdim. Donuzları da özlərinə oxşayırdı, əlimi yemə tərəf uzadanda fınxırıb xortultu ilə üstümə cumurdular… "Saqqallılar"ın rəhbəri olan Ruben adlı erməni bir dəfə tövlənin ağzını açıb donuzları həyətə çıxarıb onlara kənardan tamaşa eləyəndə ovcumdakı yem qalıqlarını gördü. Əlindəki nar çubuğu ilə kürəyimə, başıma bir neçə dəfə zərbə vurdu. Mən ağlayaraq taqətsiz halda yerə yıxıldım. O, Azərbaycan dilini yaxşı bilirdi və ünvanıma pis söyüşlər söydü… Axşam donuzlar tövləyə qaytarılana kimi orada ac-susuz qaldım. Qaranlıq tövlənin iki balaca pəncərəsi vardı, çətinliklə dırmaşıb çölə baxdım, həyətdə çoxlu hərbi geyimli silahlı ermənilər var idi. Onlar insana bənzəmirdilər, vəhşi kimi idilər. Girov götürülən azərbaycanlıları Rubenin həyətinə gətirib burada döyür, ya da güllələyirdilər. Mən girov qaldığım günlərdə iki dəfə bunun şahidi olmuşdum. Adamları ağacdan asıb ölənə kimi döyürdülər. Onların iniltisi hələ də qulağımdadır... Ermənilərin anamla bibimi birlikdə üzərinə benzin töküb yandırmaq istəyəndə anamın qışqıraraq "Bu şərəfsiz ermənilərdən qisasımızı al, oğlum!" deyəndə ona tərəf qaçdığımı danışanda dayım az qaldı Sankt-Peterburqun küçələrinə çıxıb erməni axtarsın, onları məhv etsin. Mən onu güclə sakitləşdirdim və söhbətimə davam etdim. Dedim, həmin vaxt ermənilərdən biri məni də yandırmaq istədi, alova tərəf atılanda yumarlanıb

su arxına düşdüm, həyətin açıq darvazasından qaçıb meşədə gözdən itdim. İki silahlı erməni arxamca düşdü. Onlar kök olduğundan mənə çata bilmədilər. Mən artıq sıldırımlı bir yerə çatmışdım. Hara gedəcəyimi bilmirdim. Aşağıda çay axdığını gördüm. Özümü həmin istiqamətdə kol-kos olan əraziyə atdım. Arxamca atəş açdılar, amma güllə mənə dəymədi. Sıldırımlı yerdə sürüşərək təxminən 30-40 metr hündürlüyü olan yamacdan diyirlənib çayın içinə düşdüm. Paltarlarım tamamilə su içində idi. Amma su buz kimi soyuq olsa da, mənə bir rahatlıq və dinclik gətirdi. Çayın içindəki iri qaya parçalarının üstündən tullanıb qarşı tərəfə keçib oturdum, yanımda cır əzgil ağacını gördüm. Üstündə xeyli əzgil vardı. Onları üzüb yedim. Bir az toxdadım. Amma bundan sonra hara gedəcəyimi bilmirdim. Birdən yanımdan bir tülkü keçdi. Onun istiqamətini götürüb getməyə başladım. Fikirləşdim ki, tülkü ovunu axtaranda təhlükəsiz yerdən keçə bilər. Bir neçə yüz metr getmişdim ki, birdən qarşımda bir silahlı ermənini gördüm. O mənə tərəf Azərbaycan dilində: “Dayan!” – deyib avtomatı atış vəziyyətinə gətirdi. Sir-sifətindən erməni olduğu aydın idi. O, məni qabağına qatıb yenidən Rubenin yanına gətirdi…

Bunları eşidəndə dayım sərt formada qərarını verdi: “Sən qisasın qiyamətə qalmayacağını sübut etməlisən!”, – deyib məni bağrına basdı... Onu da deyim ki, kiçik qardaşım girovluğun ilk günü acından və soyuqdan xəstələnib olduqca zəif düşmüşdü. Anam yemək istəyəndə bizi söyürdülər. Ermənilər anama göz dağı

vermək üçün can verməkdə olan qardaşımın qolundan tutaraq onu quzu leşi kimi sürüyüb bir dərin çalaya atdılar, diri-diri üstünü torpaqladılar. Kənarda dayanıb bu mənzərəni izləyən sərxoş ermənilər isə diri-diri basdırılan körpə uşağın iniltisinə gülürdülər. Bu dəhşəti görəndə anamın ürəyi getmişdi…

Komandir onun bu danışdıqlarını dinləyə-dinləyə: – Bəli, bu əclaflar xalqımıza olmazın işgəncələrini veriblər. Mənim arxivimdə "The Jerusalem Post'" qəzetinin 23 fevral 2018-ci il tarixli sayının surəti var, "Act of genocide in Khojaly – When will the moment of justice come?" (Xocalıda soyqırım aktı – Ədalət anı nə vaxt gələcək?) adlı bir məqalədə Xocalıdan olan köçkün Ayran Əliyev deyir: "…Ermənilər Xocalını ələ keçirdikdən sonra Dəhraz kəndindəki donuz fermasında əsir düşərgəsi qurdular. Bu, ölüm düşərgəsi idi. Tutulan adamlara yemək verilmirdi... Bəzən bir neçə günə 50 qram boyat çörək verirdilər. Gözümüzün qabağında çörəyə tüpürdülər, sonra bizi tüpürülmüş çörəyi it kimi yeməyə məcbur edirdilər...". Orada girov saxlanılan Rimma Hatilyeva isə o dəhşətli anları belə xatırlayır: "O illərin kinoxronikalarında atamın, anamın, qohumlarımın doğranmış cəsədlərini görəndə nifrətimin həddi-hüdudu olmurdu. Onların günahı nə idi? Hanı dünya ədaləti? Bu qədər illər keçməsinə baxmayaraq, Xocalı qətliamını törədən qatillər və cinayətkarlar hələ də cəzalandırılmır!".

Komandir əsəbi halda əlavə etdi: – Amma, Rəşad, onları cəzalandırmaq bizim boynumuzdadır…

Rəşad: – Bəli, komandir, elə mənim də bura gəlməyimdə məqsədim odur, – deyərək əlavə etdi.

Komandir soruşdu:

– Rəşad, bəs sənə erməni uşağı kimi doğum şəhadətnaməsini və ardınca da pasportu necə alıblar? Bu, çox maraqlıdır…

– Dayım bu danışdıqlarımdan sonra iki gün özünə gələ bilmədi. Qərbi Azərbaycandan və Gəncədən olan yaxın dostları ilə müəyyən söhbətlər etdi. Mən dayıma demişdim ki, anamın qisasını almaq istəyirəm, mənə kömək elə… Dayım da demişdi ki, o tək sənin anan yox, həm də mənim bacımdır, darıxma, bir şey fikirləşəcəyəm, həyatımı buna həsr edəcəyəm… Sonra etibar etdiyi daha kimlərəsə bunu danışdı, məni ata-anası Özbəkistanda avtoqəzada ölən erməni uşağı kimi təqdim etdi. Xeyli əziyyət çəkdi, amma buna nail oldu ki, xeyli pul müqabilində və 3 şahidin ərizələri əsasında mənə polis bölməsindən doğum şəhadətnaməsi aldı. Bu, çox çətin oldu. Hətta dedilər ki, bəs o avtoqəza harda olub, arayış lazımdır. Dayım Özbəkistana uçdu, oradakı dostlarının sayəsində o arayışı da alıb gətirdi. Qalırdı mənim erməni dilini öyrənməyim. Dayım izahat vermişdi ki, uşaq psixoloji travma alıb, Özbəkistanda yaşadıqlarından özbək və türk dillərini bilir, orada yerli liseydə oxuyub, yanlız rus dilini azacıq mənimsəyib. Mənə on gün ərzində xeyli rus sözləri öyrətdilər ki, polis bölməsində soruşanda cavab verim. Həm də dayım tapşırmışdı ki, özümü psixi xəstə kimi göstərim, rəisin kabinetinə girəndə stolunun üstündəki kağız-kuğuzu qarışdırım, özümü şu-

luq aparım… Doğum şəhadətnaməsi alandan sonra isə əvvəl mənə atası rus olan erməni müəllimə tutdular, o, 6-7 ay mənə erməni dilini öyrətdi, boş vaxtlarımda erməni uşaqları ilə birlikdə olurdum ki, danışığı yaxşı öyrənim. Sonra məni mərkəzdən xeyli aralıda yerləşən bir qəsəbədəki erməni məktəbinə qoydular. Hətta bir erməni ailəsi var idi, məni yazığı gəlib övladlığa götürmək istəyirdi, çox çalışdılar, amma dayım dedi ki, evinizdə müvəqqəti saxlamağa verərəm, amma rəsmi qaydada verə bilmərəm, çünki guya çox yaxın dostu olmuş bir erməninin uşağıdır, can verəndə vəsiyyət edib ki, ona atalıq etsin. Mən bəzən iki qızı olan həmin ermənin evində günlərlə qalırdım. Mənə yaxşı baxırdılar, çünki yetim qalmış erməni uşağı kimi qəbul etmişdilər. Hətta onlar mənə başa salırdılar ki, başqa millətdən olan uşaqlarla dostluq etməyim. Türkləri isə görməyə gözləri yox idi. Dayımın guya məni himayə etməsinə görə isə çox da dərinə gedib azərbaycanlıların arxasınca geniş danışmırdılar. Amma Qarabağdakı qələbələrindən fəxrlə söhbət açırdılar. Şuşanı öz qədim şəhərləri hesab edirdilər. Amma dayım həmişə tapşırırdı ki, nə badə başıma gələnlər barədə onlara danışım. Mən artıq hər şeyi gözəl anlayırdım. Erməni dilini də yaxşı mənimsəmişdim. Hərdən dayımla erməni dilində danışmağa cəhd edirdim, o da buna mane olmurdu, deyirdi ki, çalış dili yaxşı mənimsə…

Rəşad cibindən bir neçə fotoşəkil çıxarıb: – Bax, bunlar həmin erməni qızlarıdır, əsgərliyə gedəndə məni yola saldılar, valideynləri mənə gözəl bir məclis də qur-

muşdu, – deyib güldü: – Hərbi xidmətdən qayıdanda isə bax bu soldakı qız mənə eşq elan elədi, yazığım gəldi, dedim, dostluq edərik, amma evlilik gələcəyin işidir, baxaram… Bunları dayıma söyləyəndə dedi ki, saqqızını oğurlayar, sonra altından çıxa bilmərik, ehtiyatlı ol… Dedi, sən o Rubendən qisas alma gününü düşün, amma dili bir daha yadırğamamaq üçün o qızla dostluğunu davam etdirə bilərsən… Bütün hallarda anamın faciəli ölümü və onun son vəsiyyəti unudulmaz idi mənim üçün…

– Hərbi xidmətini Rusiyada keçirdin?

– Bəli, məktəbi bitirdim, hərbi xidmətə yollandım. Rusiya Müdafiə Nazirliyinin kəşfiyyat təyinatlı bir hərbi hissəsində xidmət keçdim. Maraqlıdır ki, bəxtimdən komandirimiz erməni idi, erməni olduğumu güman edib mənə bütün kəşfiyyat sirlərini ətraflı öyrədirdi. Hərdən erməni dilində də danışırdıq… Hərbi xidmətdən sonra instituta daxil oldum, ali təhsilimi Sankt-Peterburqda aldım. Bu pasportumla bir dəfə İrəvanda da olmuşam, yoxladım görüm pasportumda problem yoxdur ki. Olmadı. Bir dəfə də Qarabağa getmək istədim, əvvəl İrəvana uçdum, ordan avtobusla Laçına qədər gəldim. Orada çox çətin oldu: Rusiya vətəndaşı olduğum üçün dedilər, kimlərə qonaq gedəcəyimiz, neçə günlüyə və haralarda olacaqsan və sair, yazılı bildirməliydim. Mən Şuşada və Ağdamda olmaq istəyirdim. Amma kimə qonaq gedirdim, bilmirdim. Ona görə də problem yaranmasın deyə, elə oradan geri qayıtdım. Komandir Rəşadın başına gələnləri dinlədikcə əsəbin-

dən özünü güclə saxlayırdı. O, gözlərini qırpmadan Rəşadın danışdıqlarına diqqət kəsilirdi:

– Yaxşı, bəs siz necə girov düşmüşdünüz?

– Biz Ağdamdan dayımgilə qonaq getmişdik. Dayımgil fermada olurdular. Geri qayıdanda dayım və arvadı da bizimlə qayıtmalı oldular. Yağışlı hava idi. Biz yağışa düşdük, maşın palçıqlı yolda sürüşdü və onu güclə çıxartdılar. Maşını dayım sürürdü. Sonra qatı dumanlı havada yolu azdıq. Bir yamacda dayanıb dumanın çəkilməsini gözləyirdik. Hara gedəcəyimizi bilmirdik. Onlar uzaqlara baxıb işıq gələn tərəf axtarırdılar ki, yolun səmtini dəqiqləşdirib hərəkət edə bilsinlər. Bu zaman bir neçə silahlı adam maşının qabağını kəsdi. Atam həyəcanla dayıma dedi ki, bizimkilər deyil, maşını hara gəldi sür aradan çıxaq. Maşın palçıqlı yolda xeyli naməlum istiqamətə getdi, amma onlar arxamızca gəlirdilər.



Bir neçə dəfə atəş açdılar. Lakin biz yolu səhv salıb Hadrut istiqamətinə getmişdik. Yarım saatdan çox yol qət edəndən sonra onlar "NİVA" maşınını sürətlə sürüb bizim yolumuzu kəsdilər. Qarşıda uçurum var idi, hamımız məhv ola bilərdik. Məcburiyyətdən dayandıq. Artıq gec idi. Dayım maşını saxlayıb onlara yaxın gedib nəsə dedi. Lakin ermənilər onun dediklərinə məhəl qoymadan bizi döyə-döyə maşından düşürdülər və Ruben adlı ermənininin həyətinə gətirdilər. Onun evi hərbi hissəni xatırladırdı, xarab olmuş tank, top qurğusu var idi, iyirmiyə yaxın da hərbi geyimli erməni onun əmrini icra edirdi.
– Onlar görmürdü ki, siz mülki adamlarsınız, yəni silahlı deyilsiz...

– Ermənilər üçün bunun fərqi yox idi. Onlar insanlığa sığmayan vəhşiliklər törədirdilər.

– Sonra necə oldu?

– Elə hər şey də ondan sonra baş verdi... Bizi Ruben adlı ermənininin qarşısına gətirdilər. O, Azərbaycan dilində təmiz danışırdı. Əvvəlcə bizdən soruşdu ki, burda nə gəzirsiniz? Atam bildirdi ki, fermadakı qohumlarımıza qonaq gəlmişdik, qayıdanda yolu azdıq. Ruben qəflətən ayağa qalxıb atamın sifətinə bir neçə yumruq vurdu. Bu zaman dayım irəli durmaq istəyəndə kənarda dayanmış bir erməni onun başına odun parçası ilə zərbə endirdi, dayım yerə yıxıldı. Anam və bibim haray çəkdi. Balaca qardaşım qışqırıb ağladı. Ruben erməni dilində yanındakılara əsəbi halda nəsə dedi. Onlar bizi itələyərək bayıra çıxardıb darısqal, soyuq bir otağa doldurdular, qapını bağladılar. Anam ağlayırdı. Otaq qaranlıq və soyuq

olduğundan dayımın başından axan qanı necə dayandırmağı bilmirdilər. Onun sifəti al qana bulanmışdı. Mən ilk dəfə idi insan qanı görürdüm. Hər şey mənə dəhşətli gəlirdi… Biz səhərə kimi ac-susuz qaldıq. Səhər açılanda bizi həyətə çıxartdılar. Atam Rubendən xahiş etdi ki, bizimkilərə burda sağ olduğumuz barədə məlumat versinlər. Hətta qonşu Qarakənddən olan və Ağdamda evimizdə dülgər işləmiş bir neçə erməninin adını da çəkdi, dedi ki, son vaxtlara kimi evimizə gələrdilər, qonaq qalardılar… Ruben onlardan ikisini tanıdı. Biri Qarakənddə Aşot adlı məktəb direktoru idi. Ruben bunları eşidəndə qəzəblə atama yaxınlaşdı: “Sən hardan bilirsən ki, hələ sağ qalacaqsan? Sizi bir şərtlə buraxaram ki...”. Atam ona yalvararaq bir daha xahiş etdi ki, məni və qardaşımı, bir də qadınları buraxsınlar, nə istəsələr verəcək. Ruben qəhqəhə çəkib güldü, ermənicə nəsə dedi, bu zaman yanındakı erməni dayımın çiynindən tutdu:

– Biz torpaq istəyirik… Verə bilərsən? Qarabağı… Artsaxı gücləndirmək lazımdır, – deyib güldü və sonra erməni dilində Rubenə nəsə dedi. Ətrafdakı ermənilərin hamısı güldü. Ardınca əlavə etdi:

– Yaşamaq istəyirsənsə, bu kamera qarşısında de ki, Qarabağ torpağı ermənilərə məxsusdur, azərbaycanlılar ermənilərə itaət etməlidir...

Dayım qəzəblə ona baxdı. Amma heç nə demədi. Ruben əlindəki avtomatı dayıma tərəf çevirdi: – İndi sənin o qəzəbli gözlərin bu gülləyə tuş gələcək... Siz türklərin hamısını məhv edəcəyik! – deyib atamı itələyərək divara sarı apardı, ağ rəngli kürkünün cibindən tapançasını

çıxararaq yanında dayanıb bu mənzərəni sevinc hissi ilə izləyən bir sərxoş gənc qadına verdi. Qadın özündə deyildi. Ruben ona nəsə dedi, o da tapançanı havaya qaldırdı, dayıma tərəf tuşladı və atəş açdı. Birinci güllə yan keçdi. Ətrafdakılar qəhqəhə çəkib gülürdülər. Biz çox həyəcanlı idik. Əvvəl elə bildik ki, zarafat edirlər. Amma divara dəyəndə dəhşətli səs çıxararaq toz-duman qaldıran güllənin gerçək olduğunu anladıq. Qardaşımla mən qorxu içində anamın ətəyindən tutub ona qısılmışdıq. Ruben həmin qadının əlindən yapışdı, tapançanı dayıma tərəf tuşlayıb: – Bax belə at! – deyərək özü atəş açdı, dayımın sinəsinə iki güllə vurdu. Dayım yerə sərildi. Bibim qışqıraraq özünü dayıma tərəf atmaq istəyində Rubenin yanındakı erməni onun başındakı yaylığından tutub geri dartdı, təpiklə vurub yerə sərdi. Anamın hayqırtısına Rubenin evində olan başqa bir yaşlı erməni qadın eyvana çıxdı, şüşə aynəbəndin pəncərəsindən bizə tərəf boylandı. Bu vaxt Ruben onun üstünə qışqırıb Azərbaycan dilində "Rədd ol, pəncərəni bağla!", – dedi. Bu zaman atam yanındakı erməninin üstünə atılaraq əlindəki avtomatdan yapışdı, onu kəllə ilə vurub yerə sərdi, amma nə qədər çalışdısa, avtomatı işə sala bilmədi. Biz qışqırmağa başladıq. Ətrafdakı ermənilər atamın qollarından yapışıb onu boğmağa başladılar. Bu zaman Ruben tapançasını atamın sinəsinə tuşladı və iki güllə ilə onu da öldürdü…

Rəşad danışdıqca haldan-hala düşən komandir iki əlini üzünə dayayıb dəhşətli hadisələrə diqqətlə qulaq asırdı. Qəflətən özündən asılı olmayaraq yerin-

dən qalxıb əyləşdiyi stulu kənara çəkdi: – Danış, danış... Onlar insan deyillər! – deyərək yerində var-gəl edirdi, sonra yenidən əyləşib Rəşadı dinləyirdi…
– Bəli, komandir, mən, qardaşım, anam və bibim girov qalmışdıq. Nə edəcəyimizi bilmirdik. Sonra bizi tövləyə qaytardılar. Çox keçmədi ki, bir qadın yanımıza gəldi, bizə it üçün istifadə olunan köhnə yal qazanında su və bir az da kiflənmiş çörək verib heç nə demədən getdi. Anam onu səslədi: – Bacı, axı bizim nə günahımız var? Kimsəyə güllə atmamışıq, niyə onları öldürdülər? Onların meyiti necə oldu? – deyərək cavab istədi. Qadın başını bulayıb: – Narahat olmayın, meyitləri bir azdan benzin töküb yandıracaqlar. Elə etməyin ki, sizi də o ocaqda yandırsınlar, çünki çox qəzəblidirlər, sakit dayanın, susun, – deyərək erməni dilində nəsə mızıldanaraq getdi. Həqiqətən də az sonra qara tüstü ətrafa yayıldı, deyəsən, atamla dayımın meyitlərini yandırırdılar…

– Bu tamamilə vəhşilikdir, dinc, mülki insanları işgəncələrlə öldürmək, meyitlərini yandırmaq… İlahi, bunların cəzasını vermək üçün bizə şans yetir, – deyərək komandir kədərli səslə Rəşada baxdı. Rəşad özündə deyildi. Komandir onu ayağa qaldırıb otaqdan çıxartdı: – Gəl, gəl, əl-üzünü yu, bir az özünə gəl…

Bir az sonra onlar yenidən otağa daxil oldular. Rəşad ürək parçalayan dəhşətli xatirələrini danışmağa davam etdi:

– Biz səhəri dirigözlü açdıq. Anam da, bibim də ağlayırdı. Aclıqdan taqətimiz kəsilmişdi, yerimizdən tərpənə bilmirdik. Birdən qapı açıldı, dünən bizə su və

quru çörək gətirən qadın içəri girdi: – Əlindən bir iş gələn varsa, mənimlə gəlsin, – deyib getmək istəyəndə anam onu çağırdı, – Biz ikimiz də ev işlərini yaxşı bilirik, əlimizdən hər iş gəlir…

Qadın üçümüzü də bayıra çıxartdı, donuz saxlanılan yerə apardı, tapşırdı ki, donuzların yatdığı yeri təmizləyək. Bizə bel və ağac budaqlarından hazırlanmış süpürgə verdi. Anam bibimə bildirdi ki, hələlik sakit qalaraq nə iş tapşırsalar, onu yerinə yetirək, görək başımıza nə gəlir, yəqin ki, evdəkilər girov düşdüyümüzü bilib lazımi yerlərə məlumat verərlər… Beləcə, üç gün həmin qadının tapşırıqlarını yerinə yetirməli olduq. Bizə həyəti təmizlətdirir, çirkli hərbi paltarları yumağı tapşırırdılar. Mən də anamgilə kömək edirdim. Bizə gündə iki dəfə səhər və axşam çay və özlərinin yeməyindən artıq qalan nə gəldi verirdilər. Bir gün anam çirkli qabları yuyanda otun arasından tiyəsi sümükdən olan bıçaq tapmışdı və onu üstündə gizlətmişdi. Bibimə tapşırdı ki, girəvə düşəndə qaçmağa yol fikirləşmək lazımdır… Bir gün bizimkilər bu ətrafa kəşfiyyata gəlmişdilər. Ermənilərin mobil dəstəsinə tələ qurmuş və minaya salmışdılar. Deyəsən, hamısı məhv edilmişdi. Bunu ermənilərin hay-küyündən, bir də Rubenin evinə gətirilən yaralıların yanına qaçan həkimlərin var-gəlindən anladıq. Anam yaralılara kömək etmək bəhanəsi ilə bizə nəzarət edən qadınla danışdı. Yalandan dedi ki, vaxtilə tibb bacısı işləyib. Qadın razılaşdı. Anam bibimlə birlikdə yanında silah olan bir yaralıya yaxınlaşıb ona tibbi yardım etmək istəyəndə yaralı ona kömək edənlərin erməni olmadığı-

nı hiss edib qışqıraraq ermənicə nəsə dedi. Bu zaman kənarda dayanmış silahlı erməni şübhələnmişdi, əlindəki dəbilqəni anama tərəf atıb ermənicə nəsə deyərək qaça-qaça bizə tərəf gəldi. Bu zaman daha bir neçə erməni də irəli cumub anamın qolundan tutdular, onu kənara itələyib döyməyə başladılar… Birdən anam üstündəki bıçağı çıxarıb onu döyən ermənininin sifətinə endirdi. Ermənilər anamı avtomatın qundağı ilə vurub yerə sərdilər, sonar da başladılar təpikləməyə. Bibim və mən çaşıb qalmışdıq, anama kömək etmək imkanımız yox idi. Həyətdə isə qarmaqarışıqlıq yarandı. Mən qaçıb bibimə qısıldım. Anamın ağzınqan qan gəlirdi. O qışqıraraq erməniləri rus və Azərbaycan dilində söyməyə başladı. Bu zaman Ruben təşviş içində anama yaxınlaşdı, qışqıraraq "Artur, hardasan, bura gəl…" – deyə bir ermənini yanına çağırdı: "Bunu divara mıxla..." deyib anama zərblə iki təpik vurdu. Mən qan içində olan anama yaxınlaşmaq istədim. Anam qışqıraraq mənə tərəf: "Yaxın gəlmə, sağ qalsan bu dığalardan qisasımızı alarsan… Əclaflar…", – deyərək Rubenin üzünə tüpürdü. Anam başa düşürdü ki, onu öldürəcəklər… Qanlı tüpürcək Rubenin sifətinə yayıldı. Əli silahlı ermənilər bizi kənara itələyib vəhşiyə dönmüş Rubenin əmrini gözlədilər. Anamın bağırtısı hələ də qulağımdadır, yadıma düşəndə dəhşətə gəlirəm. Mən dartınıb anama tərəf getmək istəyəndə Ruben əli ilə sifətimə güclü zərbə vurdu, huşumu itirib yerə sərildim. Kimsə ayağımdan tutub məni kənara tərəf sürüməyə başladı, sifətim palçığa bulaşmışdı, çənəmi qan götürmüşdü. Anamın qışqırtısı məni ayıltdı, özümə

gəldim, gördüklərimdən donub qalmışdım. Onlar bibimi də, anamı da kəndirlə boğub öldürməyə çalışırdılar. Anam müqavimət göstərirdi, birdən onların əlindən çıxdı, cəld yerdəki daş parçasını götürüb əlində benzin butulkası tutmuş ermənінin sifətinə çırpdı. Vəhşiyə dönmüş saqqallı erməni isə bağıraraq geri çəkildi, sonra dizi üstə yerə çökərək ətrafdakılardan kömək istədi. Ruben əlindəki tapançanı anama sarı tuşlayıb onu hədələməyə başladı. O, istəyirdi ki, anam imdad diləsin, yalvarsın. Amma başa düşürdülər ki, bu mümkün deyil, anam ölümünü gözə almışdı… Ermənilər anamla bibimi yenidən yaxalayıb kəndirlə bir dəmir boruya bağladılar, sonar da üzərlərinə benzin töküb yandırdılar… Alov göyə qalxmışdı. Ermənilər bu mənzərəyə sevinirdilər… Anamın ermənilərə ölüm arzulayan naləsi ərşə qalxmışdı. Baş verənlərin dəhşətindən yerimdə donub qalmışdım. Özümü saxlaya bilməyib qışqıraraq ağladım, yenidən huşumu itirdim. Ayılanda donuzların saxlandığı tövlədə ot qalıqlarının üstündə uzanmış halda olduğumu gördüm. Səhəri gün ev işlərində kömək etdiyim və bizə nəzarət edən qadına yalvardım ki, anamın və bibimin meyitini harada basdırdıqlarının yerini göstərsin. O, mənə daş hasarın arxasındakı bir xəndək yerini göstərdi və Azərbaycan dilində dedi ki, hamısının meyitini həmin yerə atıb basdırdılar... Sonralar fürsət düşəndə xəlvətcə anamın basdırıldığı həmin yerə gəlir, Rubenin həyətindən qırıb cibimdə gizlətdiyim çiçəkləri onların məzarının üstünə atıb qaçırdım…

Komandir: – Sən meyitlərin basdırıldığı yeri yadında saxlamısanmı? – deyərək kədərli və həm də qəzəbli halda soruşdu: – Çünki bunlar nə vaxtsa erməni vəhşiliyini dünyaya sübut etməyin bir maddi sübutudur…

Rəşad gözlərinin yaşını silib susdu, başı ilə “Bəli…” – dedi.

O, bu qanlı və insanı dəhşətə gətirəcək hadisələri göz yaşları içində danışırdı. Və bu hadisələri danışdıqca çox təsirlənirdi, çünki o anları yenidən yaşayırdı. Bunlar onun üçün olduqca ağrılı və əzablı idi. Komandir onu sakitləşdirməyə çalışdı:

– Özünü ələ almağa çalış, – deyərək komandir özü də yanağından süzülən göz yaşını gizlədə bilmirdi, düyünlənmiş yumruğu ilə yanağını silib: – Rəşad, danış, bəs sən necə sağ qaldın? – deyərək ona stəkanda olan suyu içməyi, özünü bir daha ələ almağı xahiş etdi...

– Komandir, məni ağladan anama kömək edə bilməməyim və hələ də onun vəsiyyətini yerinə yetirməməyimdir. Amma mən bunu edəcəyəm. Mən sizin əsgəriniz olmaq istəyirəm, məni Rubenin yanına yola salın…

– Bəlkə də o, gorbagor olub…

– Yox, – Rəşad əl çantasından bir neçə fotoşəkil çıxarıb komandirə göstərdi: – Buyurun, bu odur… Dayımın Hadrutdan olan erməni tanışları var, onları aldatdı, bir dəfə məni göstərərək dedi ki, bu oğlan mənə erməni dostumdan yadigardır, avtoqəzada atasını da, anasını da itirib, heç kimi yoxdur: “…Mən onu oxutdurdum, əsgərliyini çəkdi, elə bilirəm öz oğlumdur. O

deyir ki, onun atasıgil Hadrutda Ruben adlı bir səhra komandiri ilə çox yaxın olublar. Atasının Rubenə çatdırılmalı bir vəsiyyəti var, istəyir Hadruta gedib onunla görüşsün. Öyrən gör Ruben sağ-salamatdırmı?”. Erməni bundan təsirləndi, məni qucaqlayıb erməni dilində: “Can bala, sən ki, atanın vəsiyyətini unutmamısan, mən sənə kömək edəcəyəm”, – dedi. Sonra dayım həmin erməniyə mənim adımdan bir suvenir alıb verdi, cibinə 500 dollar pul qoydu, dedi, Hadruta gedəndə hədiyyəni Rubenə çatdır, bir də onun fotoşəkillərindən bir neçəsini çək gətir ki, uşaq (dayım mənə bu yaşda “uşaq” deyirdi) təsəlli tapsın, sevinsin... Artur adlı həmin erməni Hadrutda olanda Rubenlə görüşür, bu şəkilləri də o çəkib gətirmişdi. Hətta orda olanda Rubenlə bizi telefon vasitəsilə calaşdırdı, əvvəlcə dayım danışdı, sonra da mən. Onu aldadıb dedim ki, sizinlə Tuğda, bulağın üstündə görüşmüşük, atam sizi çox istəyirdi. Yalandan dedi ki, hə, guya xatırlayır. Qocalıb, yaddaşı pozulub, ağlına gələni deyirdi bizə… Mən ona erməni dilində dedim ki, Ruben dayı, yaxın vaxtlarda mütləq sizi gəlib tapacağam. O, buna çox sevindi… Artur isə yay tətilini Hadrutda başa vurub qayıtdı. Danışırdı ki, oralar çox mənzərəli yerlərdir, səfalıdır, sərindir. Çox tərifləyirdi. Dayım da ona yarı zarafat-yarı ciddi dedi ki, ara, Azərbaycanın hər yeri belədir də… Artur ciddi görkəm alaraq: “Hə, doğru deyirsən, Şuşa da, Laçın da, Kəlbəcər də, Xankəndi də… çox gözəl və səfalı yerlərdir, gözəl bulaqları var…” – dedi. Dayım sonra mənə deyirdi ki, istədim bu Arturun başını əzəm, amma fikrləşdim ki,

işimiz pozular, niyyətimiz baş tutmaz… Artur telefonuna çoxlu şəkillər çəkib gətirmişdi. Biz şəkillərə baxanda Rubeni dərhal tanıdım. Videogörüntü də var idi, həyəti çəkmişdi, bir neçə nəfər ayaq üstündə çaxır içirdi. Düzdür, Ruben qocalıb, amma üzündəki xal və alnındakı çapıq yerində idi. O idi… Dəqiq! Onun həyətində iri çinar ağacı var idi, Rubenin də şəkli oradan çəkilmişdi. Atamı bir dəfə həmin çinarın budağından asmışdılar ki, de, Qarabağ Artsaxdır və ermənilərə məxsusdur. Amma atam ölümünü göz altına alıb, sadəcə, susmuş və kəndir nəfəsini kəsənə kimi dözmüşdü. O, iki gün öskürüb birtəhər özünə gəlmişdi. Nəfəs borusu tamamilə əzilmişdi… Ona görə də siz məni “dayım” Rubenlə görüşməyə şərait yaradın, komandir…



Komandir gülümsədi: – Məndən asılı nə mümkündür edəcəyəm… Ola bilər kəşfiyyata birlikdə gedəsi olduq. Mən əsgərimi belə ağır və məsuliyyətli yola tək buraxa bilmərəm.

– Komandir, mən sizin haqqınızda, yəni əsgərinizə necə qayğı göstərməyiniz barədə də bir maraqlı hadisəni eşitmişəm…

– Hansı hadisədir? Maraqlıdır… Belə hadisələr çoxdur…

– Sizin Adil adında bir əsgəriniz olub. Onun əmisi oğlu mənə bunları danışıb. Deyir, ermənilər posta hücum edib və itki verərək geri oturdulub. Adil adlı əsgəriniz ağır yaralanıb. Bundan üç gün sonra onun valideynləri avtoqəzaya düşüblər, anası dünyasını dəyişib, atası isə ağır yaralanıb…

Komandir:

– Hə, yadıma gəldi…

Komandir xeyli fikrə getdi, üzünə kədər çökdü:

– Yaxşı yadımdadır, köməkçimə tapşırdım ki, o əsgərə anasının öldüyünü bildirməsinlər və özü evə məktub yazanda isə onu əvvəlcə mənə gətirsinlər, birbaşa poçta göndərməsinlər. Bir də yanına telefon keçirilməsin, onun telefondan istifadə etməyinə imkan verilməsin. Ta mən deyənə kimi. O, mənim kəşfiyyatçılarımdan biri idi, qorxmaz, cəld və pusqu qurmaqda xüsusi istedadlı idi. 2016-cı ilin 4 aprel döyüşlərində əsl igidlik göstərmişdi. Kəşfiyyata gedərkən erməni səngərinə girərək iki ermənini boğub qayıtmışdı… Kolun dibində elə gizlənirdi, heç kim hiss edə bilməzdi. Bütün heyvan-

ların səsini çıxarırdı. Bir dəfə dərədə iki silahlı erməninin onun gizləndiyi səmtə gəldiyini görür, başlayır quzu səsi çıxarmağa. “Tupoy” ermənilərə çatmır ki, quzunun tək-tənha dərənin döşündəki kolluqda nə işi ola bilər. Onlar sevinə-sevinə gəlirlər ki, yəqin quzu kola ilişib qalıb. Bilirsən ki, qoyun ermənidən ağıllıdır, heç vaxt balasını tək qoyub getməz, üstəlik, quzu da mələyib anasını axtarar, otladığı yerdə qalmaz. Beləliklə, ermənilər quzu tapdıqlarını zənn edərək kola yaxınlaşırlar və silahlarını yerə ataraq quzunu tutmaq üçün kolun arxasına cumurlar… Adil isə onların ikisini də yerə yıxır, qollarını bağlayıb ağızlarını skoçlayır, ayaqlarından isə kola bağlayıb səsboğucu tapanca ilə ikisini də gəbərdib gəlmişdi… Məndə telefon çəkilişi də var, çəkib gətirmişdi…

– Halaldır belə əsgərə…

– Hə… Söhbətim yarımçıq qaldı, – deyə komandir davam etdi:

– Mən növbətçiyə tapşırdım ki, öyrənin görün Adil anasının bişirdiyi hansı ev yeməyini daha çox xoşlayır… Öyrənib dedilər ki, yarpaq dolmasını, özü də sarımsaqlı qatıqla. Mən həyat yoldaşıma xəbər göndərdim ki, guya Bakıdan nazirlikdən qonaqlarımız var, üç gündən bir yarpaq dolması bişirsin... Növbətçiyə bir də onu dedim ki, öyrənin görün ona məktubu kim yazırmış evlərindən?! Dedilər ki, anası müəllimə imiş, kompüterdə yazırmış. Tapşırdım ki, o məktublardan bir neçəsini xəlvətcə mənə gətirin. Məktubun yazılma üslubunu öyrəndim, on gündən bir Adilə anasının adından qısa məktub

yazırdım, növbətçiyə deyirdim ki, aparın verin… Anası hər məktubun içərisinə həyətlərində qızıl gülün ləçəklərindən də qoyurmuş… Bunu da nəzərə aldım… Evdən gələn dolmanı da hər dəfə yarı bölüb ona göndərtdirirdim. O, son anadək elə bilirdi ki, dolmanı həqiqətən də anası bişirib…

– Bəs ona anasının ölüm xəbərini necə çatdırdınız?

– Adili qırx gün beləcə ovundurdum. Yaraları sağalıb ayağa qalxanda yanıma çağırdım, dedim sənin neçə anan var? Adil əvvəlcə tutuldu, birtəhər oldu:

– Komandir, bildiyim qədər atamın bir arvadı olub, – deyərək güldü. Dedim, bir də fikirləş… O, bu dəfə sualın mənasını duydu, – Hə, iki anam var, biri vətəndir, bir də öz anamdır! Bir az kövrəldi, çünki xeyli vaxt idi anasını canlı görmürdü… Dedim, bunlardan hansını daha çox sevirsən? Duruxdu, üzümə baxdı, yenidən doluxsundu. Dedi, komandir, təbii ki, vətəni. Dedim, niyə? Üzümə baxdı: "Çünki öz anamı da vətən doğub!". Dedim, yaxşı, əsgər, sən seçim qarşısında qalsan, desələr ki, bu iki anadan birini seç, neyləyərsən? Hansını seçərsən? Söz ağzımdan çıxmamış dedi: "Vətəni seçərəm!". Olduqca düşüncəli əsgər idi… Soruşdum ki, yaxşı, əsgər, hansını itirsən ağlayarsan? Üzümə baxdı… Nə fikirləşdisə, dedi, komandir, ömrümdə bir dəfə ağlamışam…

Rəşad: – Komandir, mən isə anamı itirəndən hər gün ağlayıram, amma içimdə… Çünki onun vəsiyyətini hələ də yerinə yetirə bilməmişəm…

– Elədir, səninki ağır dərddir, – deyə komandir təəssüfləndi, sonra əlavə etdi: – Əsgər belə deyəndə məni

təəccüb bürüdü, ürəyimdə dedim, ay səni, yəqin anasının öldüyünü bilir… Dərhal soruşdum ki, yaxşı, o necə olub? Gözünü silib üzümə baxdı: “Komandir, Mən Qərbi Azərbaycandanam, 10-12 yaşım olanda ermənilər bizi yurdumuzdan qovdular, doğulduğum kəndimizi tərk edəndə ağladım. Ora mənim üçün vətən idi axı…”. Susdum, çox ağır mənzərə idi… Özümü toparlayıb dedim: – Əsgər, yaxın gəl. Sən ikinci dəfə də ağlaya bilərsənmi? Üzümə baxdı, doluxsundu, dərhal dedi ki, “Komandir, anama nəsə olub?”. Boynunu qucaqlayıb başını sinəmə sıxdım, dedim, əsgər, anan 39 gün əvvəl avtoqəzada dünyasını dəyişib… Səni evə buraxıram, sabah ananın 40 mərasimidir, gözlədim ki, sağalasan… Get, amma bu dəfə özünü kişi kimi apar, ağlama! O, nəmli gözlərini üzümə zilləyərək dedi, komandir, niyə? Dedim, çünki sən artıq vətənin oğlusan! O, göz yaşlarını silə-silə doluxsunmuş halda: – Bəli, komandir, indi başa düşdüm, dolmanı vətən bişirirmiş, məktubu da vətən yazırmış, – deyib məni qucaqladı, alnından öpdüm… O, əsgər salamı verdi, farağat dayandı: “Oldu, komandir! Bundan sonra heç vaxt ağlamaram…”. Dedim, amma indi get, məni tək burax, bu dəfə sənin əvəzinə tək qalıb mən doyunca ağlamaq istəyirəm…

Rəşad komandiri qucaqlayıb bağrına basdı, – Komandir, siz böyük ürək sahibisiniz, Tanrı sizi qorusun! Mən də sizin məhz elə bir əsgəriniz olmaq istəyirəm…

…Rəşad Bakıya qayıdan kimi dayısına zəng etdi, danışığını şifrələyərək ona qısa məlumat verdi. İzah etdi

ki, deyilən məsələ ətrafında hər şey qaydasındadır, komandirin yanında işə düzəlir, yaxın günlərdə hərbi hissədə xidməti fəaliyyətə başlayacaq və s.

**7 avqust 2020-ci il.**

…Rəşad qısa zaman ərzində komandirin bütün tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməklə onun ən etibarlı silahdaşlarından biri olmuşdu. Onlar bir neçə dəfə kəşfiyyat taborunun birgə əməliyyatlarında da iştirak etmişdilər. Qarşıda duran hərbi tapşırıqları layiqincə yerinə yetirdiyinə görə Rəşadı bölüyün birinə komandir təyin etmişdilər. O, artıq ərazinin coğrafi şəraitini tam öyrənmiş, dronlarla kənardan müşahidə fəaliyyətində iştirak edirdi. Özünün Rusiya Müdafiə Nazirliyinin hərbi hissələrinin birindəki kəşfiyyat xidməti burada da karına gəlirdi…

**5 Sentyabr 2020-ci il.**

Son vaxtlar düşmənin diversiya fəaliyyəti güclənməkdə idi. Artıq bir neçə dəfə belə təxribatların qarşısı alınmışdı. Ordu rəhbərliyinin bütün bunlara birdəfəlik son qoymaq və ümumiyyətlə, erməni qəsbkarlarının 30 il işğal altında saxladıqları Azərbaycan torpaqlarından qovulub çıxarılması barədə ciddi düşündüyü hiss olunurdu. Azərbaycanda ictimai rəy də buna hesablanmışdı. Düşmənə kimliyinin sübut olunma zamanı idi.

Komandir əsgərlərə yatma əmri verəndən sonra keşikçilərə son təlimatlarını çatdırdı. O, yuxarı rəhbərlikdən kəşfiyyata gedəcəyi barədə razılıq da almışdı və Rəşadla birgə getməyi qərarlaşdırmışdı. Bunun üçün havanın dumanlı olması lazım idi ki, düşmənin nəzarət məntəqələrindəki müşahidə qurğularla onları görmək imkanı olmasın.

Gecə saatlarında yola düşdülər. Məqsəd və hədəf Hadrut istiqamətində hərəkət edərək minalanmamış ərazilərdən rahatlıqla düşmənin arxasına keçmək idi. Əsas ağırlıq Rəşadın üzərində idi. Çünki bu əməliyyatın əsas qəhrəmanı o idi. Amma məsuliyyət "Qartal"ın üzərində qalırdı. Komandanlıq isə "Qartal"dan əlavə kəşfiyyat məlumatları toplamaq tapşırığını da vermişdi. Onlar artıq təxminən ayyarım ərzində qurulmuş və planlaşdırılmış əməliyyata hazır idilər. Lakin qiyafələri ermənilərə oxşamalı, üzləri tüklü olmalı, saqqalları qırxılmamalı, pinti görkəmdə olmalı idilər. Hər ikisi əvvəllər olmuş kəşfiyyat əməliyyatları zamanı qənimət kimi götürülmüş erməni hərbi və adi mülki geyim formalarını da götürmüşdülər. Lazım gəldikdə hərbçi kimi, bəzən də mülki şəxs kimi ermənilərin arasında olmalı idilər. Bütün bunlar şəraitdən asılı olacaqdı. Qərara alınmışdı ki, Rəşad erməni dilini təmiz bildiyindən bu işdə əsas rolda olsun, "Qartal" isə plana uyğun hərəkət edərək özünü yaralı erməni hərbçisi kimi təqdim etsin.

…Gecənin zil qaranlığına hakim kəsilmiş qatı duman ətrafı bir az da zülmətə qərq etmişdi. Göz-gözü görmürdü. Onlar gizli cığırları elə seçmişdilər ki, bu ərazilərdə yalnız meşə heyvanlarının ola biləcəyi güman edilə bilərdi.

"Qartal" öndə gedirdi. Əvvəldən planlaşdırıldığı kimi, əsgərlərin neçə gün əvvəl tələyə salıb tutduqları şələquyruq tülkünü isə çadır materialından olan kisəyə qoyub özləri ilə götürmüşdülər. Rəşad tülkünün onlara yük ola biləcəyini deyəndə isə komandir ona belə izahat vermişdi: "…Mən artıq bir neçə dəfə bu şələquyruq tülkülərlə "dostluq" edirəm… Bunun da quyruğuna quzunun yağ daman quyruğunu bağlamışam. İşdir, düşmən üstümüzə ov itləri ilə gəlsə, biz tülkünü açıb buraxacağıq və it də quyruğun iyinə görə tülküyə doğru qaçacaq, ermənilərin başını qatacaq, biz də aldadılmış düşmənin gözündən yayına biləcəyik…".

Qatı dumanın həm də belə əməliyyatlar zamanı bir müsbət xeyri vardı: quru çör-çöp və ot nəmlənir və hərəkət vaxtı ayaqlananda səs çıxarmır! "Qartal" bunu yaxşı bildiyindən irəliyə doğru hərəkətində inamlı və rahat idi.

"Canavarlı" dərəsinin yarğanları belə nəmişli və çiskinli havada isə çox təhlükəli olurdu. Çünki cığırdan kənara sürüşmə ehtimalı çox idi deyə, komandir həm özünün, həm də Rəşadın qoluna kəndir bağlamışdı.

Bir-birini sürüşmələrdən qorumaq üçün bu, çox vacib idi.

Artıq ən təhlükəli cığırı keçib meşə ərazisinə daxil olmağa az qalmışdı. Ehtimal edildiyi kimi, düşmənin müşahidə postundan xeyli aralıda hənirti eşidilirdi. Komandir bu yerlərə yaxşı bələd idi. Neçə dəfə kəşfiyyata bu dərədən keçib getmişdi. Amma hər dəfə iz qoyulmaması üçün başqa ərazilərdəki ağlagəlməz cığırları seçirdi.

Hər ikisi böyürtkən kolunun arxasında gizləndi. Rəşad sakitcə, pıçıltı ilə: – Komandir, lazım olarsa, tülkü hazırdır,– deyib kisəni qaldırdı və tülkünün "skoç"la bağlanmış burun hissəsindən tutdu, sonra çənəsindən tutmaq istədi. Tülkü kisədə dartınıb müqavimət göstərsə də, Rəşad onun başını sığallayıb sakitləşdirdi. Komandir pıçıltı ilə: – Narahat olma, çənəsini "skoç"la bağlamışam, bir az gözlə, nə etmək lazımdır deyəcəm, – deyib ona danışmamağı əmr etdi.

Səsboğucu qurğusu olan avtomat silahların ikisini də Rəşad saxlamışdı. Amma komandirin gözü düşmən tərəfdən eşidilən hənirtidə idi. Sazaqlı hava və sıx duman gecənin sərt soyuğu hər ikisinin iliyinədək işləyirdi. Vaxt gedirdi, hərdən də kol-kos olan yerlərdə ayaq yerişinin yaratdığı şıqqıltı qəribə narahatlıq yaratmaqda idi. Komandir Rəşadın dizini dürtmələyib: – Üşümürsən? – deyə soruşdu.

– Yox, komandir, – deyə Rəşad əli ilə onun kürəyinə mehribanlıqla sığal çəkdi, onu özünə tərəf sıxdı: – Siz

olan yerdə üşümək olar? Bir də, bu xışıltının həyəcanı imkan verir ki, üşüyüm…

– Həyəcan nədəndir?

– Əliyalın anamın və atamın qatilini üzbəüz görmək, bir də onların dəfn olunduğu yeri tezliklə ziyarət etmək həsrəti… Anama sözüm var axı…

Komandir təsirləndi: – Az qalıb, – deyərək susdu, sonra əlavə etdi: – İndi ən çox istədiyin nədir? – deyə, bir də soruşdu.

– Əlbəttə, Rubeni görmək, onunla söhbət etmək… Özü də əvvəlcə erməni dilində, sonra russayağı, lap sonda Azərbaycan dilində… Ona vəhşiliyin, qeyri-insani əməlin, əliyalın, köməksiz qadınlara, uşaqlara, kişilərə rəhm etməməyin nə olduğunu başa salmalıyam…

Komandir susub diqqətlə dinləsə də, gözü yenə də hənirti gələn tərəfdə idi. Birdən səs lap yaxında duyuldu. Rəşad həyəcanlı idi. Lakin komandir ona bir daha sakit olmağı tapşırdı. Pıçıltı ilə: – Bu insan yerişi deyil, – deyə əlavə etdi: – Heyvana oxşayır. Amma diqqətli olmalıyıq. Düşmən hər vasitədən, maskalanmadan istifadə edə bilər…

Komandirin ehtimalı özünü doğrultmuşdu, gələn "çağrılmamış qonaq" meşəlikdə azmış ulaq idi. Görünür, dumanda azıb bu istiqamətə gəlmişdi.

– Amma bəxti gətirib bu eşşəyin, bu "Canavarlı" dərəsində qurda yem olmayıb, – deyə Rəşad gülümsədi…

Komandir: – Amma bizim də bəxtimiz gətirdi, yükümüzə kömək edəcək.

İkisi də güldü. Komandir qolundakı ipi açaraq ulağın boğazına bağladı və meşəyə tərəf irəliləməsi üçün əlindəki çubuqla onu dəhmərlədi…

Rəşad cəld komandirin qolundan yapışdı: – Komandir, minalanmış ərazi olar, bəlkə ulağı qabağa verək…

Komandir gülümsədi:

– Narahat olma, eşşəyin qaydasıdır, gəldiyi cığırla da geri qayıdacaq. Minalanmış ərazi olsaydı, çoxdan bu dördayaqlı əvvəl minaya, sonra isə qurd-quşa yem olmuşdu…

Artıq meşəlik əraziyə daxil olmuşdular. Komandir kisəni açıb tülkünü azad buraxdı. Tülkü ildırım sürəti ilə qaçıb dumana bələnmiş meşəlikdə gözdən itdi.

Hadrut istiqamətində meşəlik ərazi tamamlanırdı. Sonra bostan və taxıl əkilmiş yerlər gözə dəydi. On-



lar əvvəldən planlaşdırıldığı kimi, qiyafələrini erməni libasına tam uyğun şəkildə hazırlayıb eşşəyin ipini darta-darta irəliyə doğru getməyə başladılar. Bu zaman arxadan köhnə bir "ZİL" maşın yola çıxdı. Komandir Rəşada diqqətli olmağı tapşıraraq ulağı yoldan kənara çəkdi. Maşının üstündə bir neçə erməni var idi. Əllərində dəryaz və yaba tutmuşdular. "Yəqin ki, əkin-biçinə gedirlər…", – deyərək komandir Rəşada tərəf pıçıldadı.

"ZİL" torpaq yolda toz-duman yaradaraq sürətlə gözdən itdi. Komandir yolun səmtini dəyişməyi qərara aldı. Ulaq "sahibini" tanımadığından hərdən kənara qaçmağa cəhd edirdi. Lakin Rəşad palansız ulağı növbə ilə minib irəliləməyi üstün tutmaq istəyirdi. Onlar eşşəyi növbə ilə minirdilər. Sonra bir palıd ağacının kölgəliyində dayandılar. Komandir: – Eşşəyi bu tərəfə çək, bir az dincələk, – deyərək yorğun halda payızın soyuğunda saralıb yerə səpələnmiş yarpaqların üzərinə uzandı: – Oxayy, tezliklə burada rahatlıqla dincələrik, – deyib Rəşada baxdı. Rəşad gözlərini yumub dərin xəyallara qərq olmuşdu.

– Nə düşünürsən? – Komandirin səsi onu xəyallardan ayıltdı…

– Komandir, yuxusuzluq və bir az da susuzluq məni lap əldən saldı… Həm də Ruben həsrətinə dözə bilmirəm, – deyərək güldü.

Bu zaman bir yaşlı erməni qadının əl arabası ilə odun qırıntılarını kəndə sarı apardığını gördülər. Rəşad:

– Komandir, axır ki, söhbətləşməyə bir erməni tapdım, – deyərək ayağa qalxdı, eşşəyin ipini dartıb erməni

dilində: – Tez ol, irəli, mənim qoçaq eşşəyim! – deyərək qadına çatmağa tələsdi. Çathaçatda: – Salam, nənəcan! Deyəsən, yükün ağırdır, darıxma, kömək edərəm, – deyərək eşşəyin üstündən yerə düşdü, ulağın ipini komandirə uzatdı. Qarı bu nəzakətdən çox şad oldu. Üz-gözü qırışmış, saçı ağappaq olan bəstəboy qarı yorğun olduğundan güclə danışırdı. Zığıltılı səslə:

– Sağ ol, oğlum… Qocalıq belədir də…

– Əsas odur ki, canınız sağdır, sağlamsız. Gəl, kömək edim, nənəcan… Bəs kişi hardadır?

Qarı ona tərəf boylandı:

– Kişini çoxdan cənnətə yola salmışam, – deyə gülümsədi.

Rəşad üstü odunla dolu arabanı irəliyə doğru itələyərək qarını söhbətə tutdu:

– Evdə kömək edən yoxdurmu?

– Yoxdur… Oğlum müharibədə öldürülüb, hələ də meyitinin harda olduğunu demirlər.

– Hə, nənə, biz də müharibədə olmuşuq, dostumdur, tanış olun, – “Qartal”ı göstərdi…

Komandir başı ilə qarıya salam verdi. Rəşad:

– Çənəsindən qəlpə yarası alıb, danışa bilmir. Biz burada qalmağa ev axtarırıq. Bəlkə sizdə qalaq, kömək edək, pul da verərərik…

Qarı sevindi: – Pul lazım deyil, amma evdə təkəm, qalın, heç nə olmaz. Qonağımsınız, qalın nə qədər istəyirsiniz.

Rəşad: – Hə, nənəcan, ermənilər, xüsusən də xanımları çox qonvaqpərvər olurlar, – deyərək komandirə göz

vurdu… Qarı bir şey anlamasa da, Rəşada çox isinişmişdi.

Evə çatanda doqqazı açıb yükü boşaltdılar, ulağı ayağından tuşaqlayıb çəpərin arxasındakı otluğa buraxdılar.

Qarı qıvraqlaşmışdı. Sanki doğmalarını görmüşdü. Dərhal samovarı qaynatmaq üçün hazırlğa başladı. Bu vaxt Rəşad maşanı əlindən aldı, samovarı su ilə doldurub odluğuna nöyütlü əski bükülmüş odun qırıntılarını doldurdu. Süfrəyə özləri ilə gətirdikləri və erməni dilində yazıları olan ət konservlərini qoydular. Qarı fətiri və pendiri, bir az da pomidor-xiyar turşusunu masaya düzdü. Rəşad ermənicə lətifələr danışıb qarının qılığına girməyə çalışırdı. Məlum oldu ki, qarı Rubenin uzaq qohumlarındandır:

– Ruben uzaq qohumdur, amma zəhləm gedir ondan…

– Niyə, – Rəşad xəbər aldı…

– Oğlumu aldadıb döyüşə apardı, sonra ölüm xəbəri gəldi. Deyirəm, meyitini ver, deyir, elə ərazidədir ki, gətirə bilməmişik, orda meşədə dəfn etmişik.

– Bəlkə Rubenlə danışaq, yerini göstərsin biz gedib gətirək…

– Yox, oğlum, oralara istəmərəm gedəsiniz. Snayperlər var oralarda, meşədə gizləniblər, atırlar. Türklərdir…

– Türklər? Yox, burda azərbaycanlılar olar, türklər buralara gəlib çıxmaz.

– Hə də, onların hamısı eyni adamlardır. Hadrutu son vaxtlar qan çanağına döndəriblər. İki ay əvvəl Ru-

benin dəstəsinin neft dolu maşınını partlatdılar, burda yaxında, əsgərlərini də öldürmüşdülər.

– Eşitməmişik, – deyə Rəşad komandirə sarı çöndü, – Nənəcan, bəs azərbaycanlılar buracan necə gəlib çıxıblar?

– Biz də baş aça bilmirik. Buranın iki yerdən yolu var, ikisini də nəzarətə götürüblər bizimkilər, amma yenə öhdələrindən gələ bilmirlər… Ötən dəfə buradakı Sovetliyin binasını minalamışdılar. Mənim bacımın yeznəsidir Aşot, Sovetlikdə işləyir. Aşot danışırdı ki, bir gün səhər tezdən işə gedəndə görüb ki, binanın üstündə Artsaxın bayrağı yoxdur. O biri tərəfə baxanda isə gördüklərindən infarkt keçirib, bir ay Stepanakertdə xəstə yatdı. Baxıb ki, qapının üzərindən Azərbaycan bayrağı asılıb… Bir həftə burda Rubenin dəstəsi keşik çəkdi.

Rəşad qarının dediklərini "Qartal"a izahladı.

Qarı öz-özünə danışa-danışa stəkanları gətirməyə gedəndə komandir Rəşadın qulağına pıçıltı ilə dedi: – Soruş gör bizimkilər bura hansı istiqamətdən gəliblər? O bayrağı mənim kəşfiyyatçılarım asmışdı…

Qarı qayıdan kimi Rəşad onu yenidən söhbətə tutdu:

– Nənəcan, axı buralarda bizim igid əsgərlər xidmət aparır, düşmən kəşfiyyatçıları bura hardan gəlirmiş, görəsən…

Qarı köhnə stulun üstündə oturub dincini aldı, handan-hana: – Hə, oğlum, burada çay var, onun o biri tərəfində sıldırımlıqdır, ordan gələ bilməzdilər, amma bu gün keçib gəldiyimiz o gördüyünüz palıd meşəliyi ki var, ordan sola bir balaca çay da var, qarşısında göldür,

oradan keçiblərmiş, – deyə əlavə etdi: – İndi oraları bizim əsgərlər minalayıb…

Komandir Rəşadın qulağına: – Düz deyir, dəqiqliklə danışır, – deyə gülümsədi: – Deyəsən, bu qarı o yaramaz erməni separatçıların agentidir, hər şeyi bilir…

Söhbət qaş qaralana kimi davam etdi. Bu zaman qarının doqqazı döyüldü. Rəşad səsə bayıra çıxmaq istədi, qarı qoymadı: – Qonşumdur, əri neçə il əvvəl minaya düşüb öldü, iki uşağı ilə tək qalır, mənə hər axşam süd gətirir… İndi uşaqlarını anası saxlayır, özü isə bayquş kimi burda təkcə qalır, – deyərək öz-özünə ermənicə nəsə deyindi.

Süd gətirən cavan qadın idi. Qarının evində kimsənin olmadığını zənn edərək tül paltarda gəlmişdi. Qarı onu qarşılamağa gedəndə komandir Rəşada zarafatyana xəbərdarlıq etdi, yəni farağat dur ha… “Mən keçirəm o biri otaqda mürgüləməyə”, – deyərək paltarlarını götürüb yatmağa getdi.

Qadın içəri girəndə Rəşadı gördü, ermənicə salam verdi: – Nənəcan, qonağın var, bəs niyə demədin? – Sonra üzrxahlıqla Rəşada tərəf: – Məni bağışlayın, bilmədim, ev paltarında gəldim, – deyərək getmək istəyəndə Rəşad onu saxladı:

– Qonaq qonağı istəməz, ev sahibi də heç birini… Amma bizim nənə elə deyil… Hara gedirsiniz, nənə darıxır, başını bir az qataq. Əvvəlcə gəlin tanış olaq: adım Romandır…

– Mən də Sarayam…

– Hə, nə yaxşı adınız var… Xalamın da adı Saradır, Şuşada yaşayır… Qarı nənə sizdən danışdı. Çox şad oldum. Biz Əsgərandan gəlmişik, hərbi məsələ ilə bağlı, kirayə ev axtarırdıq, qarıya rast gəldik… İstəsəniz lap sizdə də qala bilərik…

Hər ikisi güldü.

– Siz təksiniz? – Sara soruşdu.

– Yox, iki nəfərik… Yaralıdır, həm də bərk yorğun olduğundan qonşu otaqda yatıb. Qəlpə yarası var, uzun yol gedəndə tez yorulur… Sabah sizdə qonaq olarıq. Qonaqlıq bizlik olacaq…

– Yox, evdə hər şey var.

– Çaxır var?

– Nə qədər istəsəniz… Bu il üzüm bağımızdan bol məhsul çıxdı, satmağa hazırlaşırıq. Bizimkilər Martunidə bol üzüm əkiblər, qohumlarım var, payımı veriblər.

– Alıcı biz…

Güldülər.

Sara Rəşadın deyib-gülən olmasını rəğbətlə qarşılayırdı. Hərdən də gülən zaman əlini onun yumşaq və ağappaq əllərinə vurub məxsusi məhəbbətlə sığal çəkməsi, bəzən də əlindən tutub barmaqlarını ovcunda sıxması ona qəribə hisslər yaşadırdı. Bu cür rəftar Saraya çox xoş gəlirdi. Rəşad isə bu ailə ilə ünsiyyət qurduqlarından məmnun və rahat idi. Artıq komandirlə özlərini tam təhlükəsiz hiss edə bilərdilər.

…Qonşunun ulağının anqırtısı Rəşadla komandiri yuxudan erkən oyatmışdı. Hava olduqca sərin və rütubətli idi. Qarı isə həyətdə samovarla qurdalanırdı. Rəşad salamlaşıb samovarın yanında bardaş qurub oturdu. Samovar ona qədim əşya təsiri bağışladı, qulp hissəsində kirillə və sərt alətlə cızılaraq yazılmış "Ağdam" sözünə rast gəldi. İstər-istəməz, qarıdan xəbər almalı oldu:

– Samovar, deyəsən, çox qədimdir, nənəcan…

– Bilmirəm, amma köhnənin malıdır. Oğlum Şuşadan gətirmişdi, deyirdi, qənimət kimi Ağdamdan götürüblər…

– Hə, ola bilər. Biz də orda döyüşdə olmuşuq. Çoxlu mebel, ev əşyaları gətirmişdik…

Qarı belinə bağladığı şalı göstərərək: – Bizim Hadrutda hamının evində müharibə vaxtı ələ keçirilmiş çoxlu qənimətlər var, azərbaycanlılar çıxıb gedəndə yığıb gətiriblər. Mənim bu şalım lap qədimdir, çox qiymətlidir. Toxunmadır. Deyirlər, dəvə yunundandır. Nə vaxt belimin ağrısı tutur, onu bağlayıram və iki günə düzəlirəm… Maşın da gətirən olub. Rubenin iki yük maşını o vaxtdan qalandır, biri "KamAZ"dır. İndi sürücü axtarır, cavan sürücü qalmayıb… Evində iki maşın xalça qalaqlanıb. Hamısı qənimət kimi Füzulidən və Zəngilandan gətirilib. Bir hissəsini İrandan gəlib alıb apardılar. Qədim xalçalar idi. Birini mənə hədiyyə etdi…

– Marusya xala, hardasan, doqqazı aç…

Saranın səsi idi. Rəşad cəld qaçıb doqqazın kiçik qapısını araladı. Saranı səsindən tanımışdı, onu həyətə

buraxdı. Sara bu dəfə daha bəzənib-düzənib gəlmişdi. Rəşad:

– Ahaaa… Məncə, Sara ərə getməyə hazırlaşır, – deyərək əlindən tutdu. Sara mehribanlıqla üzünü ona tərəf əyib yanağından öpməsinə şərait yaratdı… Rəşad borclu qalmadı… Sonra Saraya masada yer göstərdi.

Sara qıyqacı gülüb dolu bədəninə oturmuş qısa yubkasının zəncirbəndinin qabaq hissədən açılmış yarığını bağlamaq istədi, amma zəncirbənd ilişdi. Rəşad: – Qoy mən bağlayım, – deyərək onun ağappaq dizindən yapışdı, bir əli ilə zəncirbəndi bağlamaq istədi, amma bacarmadı. İkisi də güldülər. Qarı: – Saracan, sən gəl bağlama, baldırların elə açıq daha yaraşıqlı görünür, subay adamsan, sənə kim bir söz deyir ki…

Hamısı güldü.

Samovarın zümzüməli səsi gəlirdi. Hərdən ətrafda dolaşan arılar olmasaydı, Rəşad özünü daha rahat hiss edərdi. Bu arada arıların biri Saranın açıq dizinə yaxın hissədən ətəyinə qondu. Rəşad: – Hə, arılar, deyəsən, ağzınızın dadını yaxşı bilirsiniz, başlayın görüm, – deyərək Saraya qanadlarını yelləyərək onu sancmağa həvəslənmiş arını göstərdi. Sara qışqırıb əli ilə arını qovdu: – Elə sən çatmırdın, yaramaz, – deyib buna görə qınayırmış kimi Rəşadı dürtmələdi…

Xeyli güldülər… Evdə isə dincəlməkdə olan komandir onların səsinə oyanmışdı, söhbətlərini eşitsə də, erməncə nə danışdıqlarını kəsdirə bilmirdi.

Rəşad: – Hə, artıq samovar da qaynadı. Bu o deməkdir ki, səhər yeməyinə başlaya bilərik…

Sara: – Mən qaymaq və bal gətirmişəm, dayımgil Kəlbəcərdən gətiriblər…

Rəşad: – Bəh-bəh, nə dadlı baldır…

– Erməni balıdır…

Rəşadı gülmək tutdu:

– Balın, ya arıların ermənisi də olur?

– Yox, çiçəkləri erməni çiçəyidir… Oraları bizimkilər alıb, kim istifadə edirsə, onundur… Dağlar da, çəmənliklər də…

Rəşad ürəyində "Ay sənin o danışan dilini kəsərdim, amma hələ ki vaxtı deyil…", – ürəyində pıçıldadı.

Rəşad: – Hə, nənəcan, bayaq sözümüz yarımçıq qaldı, Saranın bu "zamok"u araya girdi, – deyərək Saranın xəfif küləyin təsirindən sifətinə yayılmış ipək kimi saçlarını özündən kənar edib: – Bu tərəflərdə İran maşınlarını gördüm…

– Hə, onlar biz ermənilərin yaxın dostudur. Dərinə getsək, bəlkə də genimizdə qohumluq üzə çıxar, – deyərək Sara həvəslə danışdı...

– Hə, oğlum, – qarı dilləndi, – Bura Yerevandan professor gəlmişdi, Azıx mağarasını qazırdılar, onlar deyirmiş ki, Qarabağ qədim erməni yurdu olub. Milyon illərdir biz burda yaşayırıq…

Rəşad dözmədi:

– Yox, nənə… Mən də bu barədə erməni alimlərinin yazısını oxumuşam, amma bir məsələ mənim üçün həmişə sual kimi qalıb: bizim indi Qarabağda sayımız Yerevandan köçüb gələnlərlə birgə heç 40-50 mini keçmir.

Necə ola bilər ki, biz milyon il burda yaşayırıq, amma sayımız Yerevansız 30-40 mini keçməyə…

Sara düzəliş verdi:

– Nənə şişirdir bir az, biz burada bəlkə də yüz-ikiyüz il olar yaşayırıq.

Qarı qaşlarını çatıb özünəməxsus tərzdə, bir az da qəzəblə: – Kəs səsini, söz danışırsan, sənin dediklərini türklər eşidib deyəcəklər ki, hə, ermənilər bura yüz ildir köçüb gəliblər…

Sara donquldanaraq: – Bu arvada bax ey… Dayım danışırdı ki, bizim Qarabağa köçüb gəlməyimizin 150 illiyi ilə bağlı Mardakertdə, Marağa kəndində abidə var idi. Xalamın əri Mardakertdə donuz fermasında işləyir, o da danışırdı. Hətta şəkil də göstərmişdi bizə, – deyərək qarının üstünə çəmkirdi. Lakin Rəşad onu sakitləşdirdi: -Sara, yaşlı adamdır, deyir, qoy, desin, bəli, biz ermənilər burda milyon illərdir yaşayırıq. Bəlkə də milyard ildir, kim bilir?!



Saranı gülmək tutdu:

– Sən də qocaya qoşulmusan, yalan danışanda elə danış ki, sonra özün də inanasan…

Sara gülərək ayağa durdu, evinə baş çəkməyə getdi. Amma onun bu sözü Rəşadın ürəyinə yağ kimi yayılmışdı: – Bilirsən, nənə, bizim deməyimizlə deyil, tarix var, sübut var… Nə isə, gəlin dalaşmayaq. Amma baxıram, sizin bu evin də elə yüz-yüz əlli il yaşı olar, yəqin babanızdan yadigar qalıb…

Qarı bic-bic:

– İkinci evdir bəlkə də, köhnənin yerində tikilib, – öz-özünə mızıldandı: –Nə vaxt tikildiyi yadıma gəlmir…

Bu zaman doqqazın qapısı yenidən döyüldü. Sara idi. Yağlı kətə bişirib gətirmişdi. Çay süfrəsi ətrafında yenidən söhbətə başladılar. Sara: – Dostunuz niyə sifətini bağlayıb? Həm də kənarda dayanıb, – deyərək "Qartal" üçün süzülən çayı ona tərəf apardı. Komandir onlardan bir az aralıda yerə sərilmiş palazın üstündəki döşəkdə yastığa dirsəklənib uzanmışdı. Bütün söhbəti diqqətlə dinləyirdi. Hərdən Rəşada göz-qaş edib nəyəsə işarə vururdu. Rəşad onu işarələrindən başa düşüb başı ilə razılaşdığını bildirirdi.

Rəşad Saranın sualını rus dilində cavabsız qoymaq istəmədi:

– Hə, Saracan, bu yaxınlarda onun çənəsinə güllə dəydi, qəlpə yarası da var kürəyində. Həkim Stepanakertdə dedi ki, bir neçə ay danışma, çənə sümüyü bitişsin. Ona görə də, ancaq yemək yeyəndə sarğısını açır,

sonra bağlayır. Danışmağı da lal adam kimidir. Əslində, danışmasa yaxşıdır…

"Qartal" qəzəblə ona baxdı, barmağı ilə Rəşadı hədələdi ki, yəni məni biabır eləmə… Hamı güldü. Sonra o, çənəsini tutub yalandan ufuldamağa başladı. Rəşad: – Sara xanımın bu dadlı kətəsinin ləzzəti yer üzündə yoxdur, amma sənə olmaz, – deyərək komandirə söz atdı. Hamı güldü. "Qartal" Rəşadın Sara ilə belə şirin söhbətinə diqqət kəsilmişdi. Hərdən bəzi söhbətlər rus dilində də edilirdi və o, Rəşada gözü ilə nəisə işarə edirdi. Yəni, çox da dərinə getmə… Rəşad isə ona acıq verirmiş kimi fürsətdən istifadə edib hərdən əlini Saranın yarıaçıq ətəyinin arasından dizinin üstünə qoyurdu. "Qartal" isə zarafat edərək lal adam kimi burnunda nəsə deyirdi. Sara güləræk: – Romancan, o nə demək istəyir? – deyə soruşurdu.

Rəşad: – Hə, deyir ki, Sara qəşəng xanımdır…

Hamısı bu zarafata gülürdü.

Komandir Rəşadla birlikdə qarıya bəzi ev işlərində kömək etdi. Günortaya yaxın Rəşadla meşəyə gedib bir az gəzməyi, həm də ürəyindəkiləri sərbəst olaraq onunla bölüşməyi qərara aldı.

Onlar yaxınlıqdakı meşə ərazisinə yollandılar. Yol boyu tək-tük ermənilərə rast gəlirdilər, Rəşad onlara ermənicə salam verirdi. Hətta ayağı şikəst bir erməni ona tərəf baxanda komandir diksindi, elə bildi kimsə onlardan şübhələnib. Amma bu həyəcan dərhal da so-

vuşdu. Həmin erməni Rəşada tərəf: – Deyəsən, tanıdım, siz Laçında xidmət etməmisiniz, – deyərək ona əl uzatdı, sonra qucaqlaşdılar. Rəşad: – Yox, mən Kəlbəcərdə xidmətdə olmuşam, amma bu yaxınlarda azərbaycanlıların əks-hücumu vaxtı mərmi yanımıza düşdü, ikimiz də yaralandıq, – deyərək komandiri göstərdi: – Qəlpə bu yazığın çənə sümüyünü parçaladı, hələ də müalicə alır, – deyib onunla daha tez xudahafizləşməyə çalışdı.

Komandir: – Rəşad, qoy rədd olsunlar, bu yaramazlardan maksimum uzaq duraq. Sən Saradan bərk yapış, bəzi məlumatlar almaq üçün o bizə çox lazım olacaq, – deyərək qayalığın tinində çömbəlib daşın üstündə oturdu.

Rəşad: – Komandir, imkan verirsən ki?! – deyərək zarafatla onun əlini sıxdı: – Bəs mənim bu murdar qadınla ünsiyyət qurmağımda məqsədim də elə budur... Bir az buralarda gəzişib sonra kəndə qayıdarıq, Saranı dilə tutum, bəzi məsələləri öyrənim…

Sara Rubenin evini tanıyırdı. Komandir Rəşadla belə qərara gəldilər ki, Sara onları Rubenlə görüşdürsün.

Rəşad yolüstü Saranın evinə baş çəkdi, onunla danışdı…

Sara: – Mən Ruben dayıgilin evinin yanındakı dükana gedəcəyəm, oradan dönüb evdə olub-olmadığını öyrənərəm. Yazığın oğlu qaz sobasının yanında yatanda dəm qazından boğulub öldü, arvadı da bu dərdə dözməyib dünyadan köçdü. Bir oğlunu da meşədə canavar parçalayıb yemişdi, sür-sümüyü tapıldı…

Sara kədərli-kədərli bunları danışdıqca Rəşadın için-də Tanrının belə cəllad bəndələrinə verdiyi cəzalarına şükürlər edirdi: "Tanrı özü bunun cəzasını belə verir… Qalıb özünün cəzası… Onu da mən verəcəyəm…".

…Sara dükana yaxınlaşdı. Bir neçə erməni şərab içə-içə dükanın qarşısında domino oynayırdı. Onlardan biri Saranı görüncə:

– Mənim mələyim gəldi, – deyərək onu qarşıladı. Sara: – Səndən donuz iyi gəlir, rədd ol, dünən mənim qapımı niyə döyürdün, yaramaz? Səndən Ruben dayıma şikayət edəcəm, dərsini versin…

Sərxoş erməni arxadan onu çimdiklədi:

– Sən kişi istəmirsən, mən nə pislik edirəm ki?!

Sara qəzəbləndi:

– Səndə kişilik qalmayıb… Sən murdarsan! Qonşu Mariyanın ərinin ölümündən üç gün keçmiş ona eşq elan edən sən deyilsən? Rədd ol, dedim…

Sara qəzəbli halda Rəşadın yanına qayıtdı. Bu qəzəbli halına baxmayaraq, deyəsən, yaxşı xəbərlə gəlmişdi:

– Ruben dayı Stepanakertə həkimə gedibmiş, ağ ciyərində xərçəng tapılıb… Bu gün qayıdıb, evdədir. Dedim ki, qonaqların var, çox sevindi, dedi, səbrsizliklə gözləyəcəm…

Günorta saatlarını meşədə gəzintidə keçirən komandir Rəşadla birlikdə Rubenin evinə yollandılar. Komandir Rəşada silahları yataq otağında, döşəyin altında gizlətməyi tapşırdı.

Sara da onlarla birlikdə gedirdi. Əvvəlcə dükana girib çay, qənd və meyvə aldılar, bir şüşə də şərab almaq

istəyəndə Sara Rəşadın qolundan tutdu: – Ruben dayı dünyaya şərab satır, siz ona şərabmı alıb aparmaq istəyirsiniz? – deyərək zarafatyana güldü…

Birdən Rəşadın gözünə “Ohanyan” adlı konyak və şərab butulkaları sataşdı. Təəccüblə Saraya: – Nə gözəl şərabdır… Bu da konyakdır… Bunu harda buraxırlar, bilmirsən?

Sara konyak butulkasının üstünü oxudu:

– Hə, bizim keçmiş nazirimiz Ohanyanın zavodudur, Əsgərandadır… Orada bir neçə adda belə bahalı içkilər buraxılır…

– Yəqin xaricə satılır…

– Hə, burada o qiymətə kim alar? Hamısını Yerevana aparıb ordan da Fransaya göndərirlər. Ötən ay Fransadan qonaqlar gəlmişdi, zavodu, deyəsən, onlar tikiblər. Onları Stepanakertdə də gördüm təsadüfən…

Rəşad ürəyində: “Eybi yoxdur, vaxt gələr, o zavodun külünü göyə sovurmaq mənə borc olsun…”, – deyərək Saraya döndü: – Saracan, bizim bir komandir var, onun narkotik sahəsi də var…

Sara bilirmiş kimi əlavə etdi:

– Hə, Ruben dayıgilə uşaq vaxtı çox gələrdim, onun evində narkomanlar çox olardı. Onlar sərxoş olanda anama deyirmişlər ki, Xocalıda böyük plantasiyaları var. İndi də orda narkotik becərib xaricə satırlar. O cürə bahalı maşınları nə ilə alıblar bəs?!

Saranın bu söhbəti komandirə xoş təsir bağışlayırdı. O, Rəşadın qulağına pıçıltı ilə: – Soruş gör silahları hardan alırlar? – deyərək özü kənara çəkildi.

Rəşad Saranın qılığına girərək: – Sən o narkamanlardan uzaq ol, yaxşımı?

– Əlbəttə, mənlik deyil…

– Söz verirsən?

– Əlbəttə...

Sara Rəşada mənalı-mənalı baxıb gülümsədi. Rəşad onun əlindən tutaraq: – Sara, səni çox istəyirəm, bir dənəsən… Bilirsən, biz silah sarıdan korluq çəkirik. Bəs Ruben dayıgil silahı hardan alırlar?

– Yerevandan hər gün maşınlar gəlirdi, yük boşalanda görmüşəm… Qabaqlar olardı, indi dəqiq bilmirəm. Kəndin çıxacağında bir kilsə var, köhnədir, uçub bir tərəfi. Oranı iz azdırmaq üçün silah anbarı ediblər. Bir dəfə bizim eşşək azıb getmişdi, gedib ordan tapdım. Məni görən silahlı mühafizəçi əl çəkmədi, bir saat söhbətə tutdu ki, səni bura kim göndərib? Dedim, məni bura o gördüyün eşşək göndərib, ay qanmaz… Bundan sonra əl çəkdi…

Rəşad komandirə göz ilə işarə edib başını buladı. Bu o demək idi ki, həmin kilsə hədəfə alınmalıdır. Rəşad əlavə etdi: – Sara, bilirsən niyə soruşuram, bizə patron lazımdır, getsəm verər o mühafizəçi? Bəlkə birlikdə gedək…

– Yox, mən gedə bilmərəm, sonra günümü qara edəcəklər… Amma sən get. O baxır sənin yağlı dilinə və bir də puluna…

– Tək olsa dil taparam…

– Hə, axşam saat 10-da darvazanı bağlayıb gedir, bir də səhər saat 9-da gəlir. Tək olur. Adı da Aşotdur. Bir qolu əyridir, müharibədə yaralanıb…

Rubenin evinə çatanda Sara uca səslə: – Ruben dayı, hardasan? – deyə onu çağırdı və darvazanın qapısını təpiklə itələyib açdı, içəri girdilər.

Rəşad uzun illər öncə anasının, atasının, dayısının və bibisinin qətlə yetirildiyi, eləcə də kiçik qardaşının öldüyü həyəti, qoca çinar ağacını dərhal tanıdı. Sanki dünya başına fırlandı. Özünü olduqca pis hiss etdi. Komandirin qolundan yapışdı… Özündən asılı olmayaraq kövrəldi, qəhər onu boğdu.

Sara qonaqları təqdim etdi. Qoca Ruben çəliyinə güc verib onlara yaxınlaşdı: – Mənim əziz qonaqlarım, – deyib əvvəlcə Rəşadı, sonra komandiri qucaqladı: – Gəlin, gəlin, əyləşin tanış olaq…

Sonra diqqətlə Rəşadı süzdü:

– Sən nəsə mənə tanış gəlirsən… Qan çəkir…

– Mən Yerevanda doğulmuşam, Ruben dayı. Atam buralıdır. Hamparsum kişinin nəvəsiyəm də, yadınıza düşmədi?

Ruben əlini gözlərinin üstünə qoyub: – Dayan, dayan… Alikin oğlusan?

– Hə… Necə də tanıdınız…

– Necə tanımayım?! Atan Mardakertdə də işləmişdi… Mənə əsirləri daşıyırdı…

Rəşad özünü bu görüşdən təsirlənib kövrəlmiş kimi göstərməyə başladı. Bu Rubenin diqqətindən yayınmadı: -Kövrəlmə, oğlum… Bilirəm, atan da belə kövrək adam idi, məni görəndə həmişə kövrələrdi… Gəlin, gəlin, əyləşin…

Sonra o Saraya tərəf çevrildi: – Sara, cavan olsaydım sənin o pambıq kimi ağappaq sinəni qucaqlayardım, – deyib zarafatyana qımışdı.

Hamı əyləşdi. Ruben Rəşada diqqətlə baxdı: – Hə, atana necə də oxşayırsan… Danış görüm vəziyyət necədir? Mən artıq qocalmışam, döyüşə gedə bilmirəm. Yoxsa bu azərbaycanlıların cavabını onqat verib birdəfəlik yerində oturdardım…

Sonra özünü yaralı kimi göstərən “Qartal”a baxdı: – Nə olub mənim igid əsgərimə?

Rəşad: – Ruben dayı, bu yaxınlarda atışmada mərmi düz yanımıza düşdü, Allaha şükür, sağ qaldıq, dostum ağır yaralandı, ona görə də Stepanakertdə əməliyyat edilib, həkim dedi ki, çalış danışma, çənə sümüyünü birləşdirən damar qırılıb, bitişməlidir, – deyərək dərhal da mövzunu dəyişmək istədi.

Ruben: – Tanrıya şükür et, mənim balam, tezliklə sağalarsan, – deyərək Saraya: – Sən zirzəmiyə gir, ordakı sağdan ikinci çəlləkdən bu qrafini çaxırla doldur gətir…

Sonra çətinliklə əyilib saxsı qrafini ona uzatdı. Rəşad cəld ayağa durub qrafini Saradan aldı: – Ruben dayı, Saraya əziyyət vermərəm, mən gətirərəm, sadəcə, yerini göstərsin.

Rəşad Sara ilə birlikdə zirzəmiyə girdi. Yarıqaranlıq və olduqca sərin zirzəmi Rəşada çox tanış gəldi. O, girov düşən vaxtı Rubenin evində çalışan qadına kömək edərkən bu zirzəmidən hərbçilərə çaxır gətirərdi.

Rəşad Saranın əlindən tutub: – Saracan, ehtiyatlı ol, -deyərək onun qolundan yapışdı: – Yavaş-yavaş, belim-

dən tut, yıxılarsan, – deyərək çaxır dolu çəlləyin ağacdan olan qapağını dartıb çıxartdı: –Yaxın gəl, sən qrafini tut, mən çaxırı boşaldım.

Saranın uzun saçı Rəşadın sifətinə toxunduqca onu haldan-hala salırdı.

Sara: –Ailəlisiniz? – deyərək soruşdu.

Rəşad çaxırı qrafinə süzə-süzə: – Yox, subayam… Amma özünü yaxşı aparsan bir-iki aya subaylığın daşını ataram… İşlərimi yoluna qoyub, gəlib səni aparacam Əsgərana, sonra Yerevanda dayımgilin evi var, özü Moskvada yaşayır, köçərik ora… Gedərsənmi? – deyib Saranın üzünə baxdı.

Sara xüsusi əda və təbəssümlə: – Baxarıq, görüm sən özünü hələ necə aparacaqsan, – deyib güldü.

Rəşad onun nəyə işarə vurduğunu dərhal başa düşdü:

– Dedim axı, evlənməmişəm, hələ də subayam…

Sara təəccüb və zarafatla:

– Siz kişilərə inanmaq çox çətindir… Heç bir qadınla dostluq etməmisən? – deyə çiynindən tutaraq əyilib diqqətlə sifətinə baxdı. Rəşad vəziyyətin hələ ki onun xeyrinə davam etdiyindən: – Saracan, gəl o barədə sual vermə, çalışıb axşam sizə qonaq gələrəm, onda bilərsən ki, mən özümü necə aparıram…

İkisi də xısın-xısın güldü. Rəşad: – Qoy, əvvəlcə şərabdan içək, daha yaxından tanış olaq, sonra o barədə razılığa gələrik. Mənə telefonunu verərsən, zəng edərəm.

Sara: – Sən mənim ağlımı başımdan aldın artıq… – deyib dodaqlarını astaca Rəşadın sifətinə toxundurdu…

Rəşad iri stəkanlara çaxır süzüb: – Gəlin, bu badəni atamın yadigarı, əziz Ruben dayımın sağlığına qaldıraq. O, atamın dostu olub, mən bu dostluğu unuda bilmərəm, – deyib öz stəkanını Rubenin əlindəki şərab dolu stəkanla toqquşdurdu.

Hamı şərabı içdi, sağlıqlar deyildi, Sara evdən gətirdiyi ət soyutmasını və qarışıq turşu dolu kasanı masaya qoydu.

Söhbət uzun çəkdi. Qoca Ruben hərdən çənəsini tutub zarıyan komandirə baxıb: – Yaxşı qurtarıb, güllə azacıq yuxarıdan dəysəydi, məhv olmuşdu… – deyərək ona təsəlli verirdi.

Qoca Ruben Rəşada söz verdi ki, onu meşədəki bulağa aparacaq. Lakin Rəşad bunu gələn həftəyə saxlamağı xahiş etdi:



– Ruben dayı, bir-iki vacib işlərim var, onları həll edib qayıdacam bura, özü də birdəfəlik, – deyərək Saraya baxdı.

Sara onun nəyə işarə etdiyini anlayırmış kimi: – Hə, düz deyir, Ruben dayı, tezliklə birdəfəlik bura gələcəyinə söz verib…

Qoca Ruben qımışdı:

– Hə, deyirəm axı, sən artıq subaysan… Bəs uşaqları neyləmisən?

– Anamgil baxır, mən də yır-yığış edib köçməliyəm, – deyib Rəşadın dizini dürtmələdi. Yəni, bununla demək istəyrdi ki, səninlə getməyə hazıram…

Sara Rubenlə söhbətləşdiyi müddətdə Rəşad komandirlə həyətdə gəzib dolaşdı, hasarın arxasında bir zamanlar ata-anasının, kiçik qardaşının, dayısının və bibisinin basdırıldığı xəndəyə tərəf baxdı, bütün bədəni sızıldadı, əlləri əsdi. Həmin yerdə bir palıd ağacı bitmişdi. Amma məzarlar olan səmt dəqiq idi. Bir neçə metr kənardan isə bulaq axırdı. O, yavaşca ora yaxınlaşdı, əlini məzarlar olan torpağa sürtüb ürəyində: "Ana, ata, dayı, bibi… Mən gəlmişəm, məni eşidirsiz?", – deyə dərin kədər içində dodaqlarını dişlədi: "Qisas qiyamətə qalmır…".

Yanağından süzülən göz yaşları çənəsinə kimi axıb onu gərgin hala gətirib təsirləndirmişdi.

## 4 GÜN SONRA...

…Komandir hələ ki ümumi əməliyyat şəraitindən və planlaşdırdıqlarından tam razı idi. Vaxt olduqca evində qaldıqları qarıya kömək edir, hərdən də Saranı söhbətə tutub Hadrutdakı hərbi hissənin, əsas postların harada olmasını öyrənmişdilər. Həmçinin, Saranın köməkliyi ilə silah anbarı olan kilsəyə necə daxil olmağın yollarını dəqiqləşdirmiş, hərbi hissələrinə qayıtmaq məqamında bu anbarı necə minalamağı dəqiqləşdirmişdilər. Komandir hər bir işi zərgər və kəşfiyyatçı dəqiqliyi ilə işləyib hazırlamışdı.

Sara artıq mehrini Rəşada salmış, hər gün onunla görüşüb dərdləşməyə can atırdı. Onu bir neçə dəfə evinə də dəvət etmişdi, amma komandir icazə verməmişdi: “Süni problem axtarma…”, – deyərək lazımi tövsiyə və tapşırıqlarını vermişdi.

...Rəşad gecəni çox narahat yatmışdı. Bir tərəfdən itlərin səhərə qədər ulaşması, digər tərəfdən də qonşunun ulağının anqırtısı onu yatmağa qoymamışdı. Bu səbəbdən də səhər erkən yerindən durub həyətə düşdü. Dağlardan süzülüb gələn sərin payız mehi ruhuna dinclik

gətirirdi. Qarını yuxudan etmədən əl damının qapısını astaca açıb samovarı götürdü. Həmişə arzusunda olmuşdu ki, rahat həyat şəraiti qazananda samovara od vurub yanında əyləşsin, onun odluğundan çıxan alova diqqət kəsilərək qaynama anındakı uğultulu səsini doyunca dinləsin. Bunlar onun uşaqlıq xatirəsindən yadigar qalaraq ürəyinin başına od salan, göynədən bir həsrətə çevrilmişdi.

Samovarı bulaq suyu ilə doldurub odluğuna çır-çırpı atdı, qaynatmağa başladı. Bu zaman evin eyvanında komandiri gördü. Əli ilə aşağı düşməsinə işarə etdi.

Komandir əl-üzünü yuyub divardakı mismara keçirilmiş dəsmalla əlini quruladı. Çirkli dəsmalın kəskin kif iyi burnunu qıcıqlandırdı, ard-arda asqırmağa başladı. Üzünü turşudaraq Rəşada tərəf gəldi və iri odun kötüyünün üstündə oturub sakit səslə: – İndi başa düşdüm ki, yazıq qarı tək-tənha yaşayır, baxanı yoxdur, özünü güclə idarə edir, deyərək ayağa durdu, Rəşada tərəf bir az da yaxınlaşıb samovarın yanındakı köhnə taxta oturacaqda əyləşdi. Hava soyuq olduğundan "buşlat"ını çiyninə atdı:

– Səhərin soyuğu adamı tez tutur, sən də çiyninə bir şey at, – deyərək eyvana göz gəzdirdi: – Bəs sevimli qarı hardadır, hələ oyanmayıb?

Rəşad ona tərəf əyilib pıçıltı ilə: – Səhərə kimi qurcalaxlanırdı, dəmir çarpayısı elə özü kimi qocalıb, cırhacır idi... Səsi gəlmir, yəqin ki, yatır. Yaşlı adamlar xumarlanıb yatmağı xoşlayır, -deyərək gülümsədi…

Mis materialdan olan samovar qaynadı. Rəşad kəklikotulu çay dəmlədi. Sonra stəkana süzüb Saranın ötən gün verdiyi tut qurusu ilə içməyə başladılar. Kəklikotunun ətri ətrafa yayılaraq xoş bir ovqat yaratmışdı. Komandir: – Torpağımızın otu da, meyvəsi də, gül-çiçəyi də belə ətirlidir. Bu torpaqda hər şey gözəldir, təkcə bu nankor ermənilərdən başqa… Bu yaramazlar bizi hər şeyə tamarzı qoyub, Allah bəlalarını versin…

Bu vaxt darvazanın qapısı döyüldü. Komandir dərhal üzünün sarğısını bağlayaraq tapançanı çiynindəki "buşlat"ın içərisindəki döş cibinə yerləşdirdi: – Gör kimdir, amma diqqətli ol, – deyə Rəşada tapşırıq verdi.

Rəşad üzünün tüklü hissəsini əli ilə qaşıyaraq gileyləndi: – Komandir, üzüm tüklü olanda elə bilirəm bataqlıqdan çıxmışam, kir-pas içindəyəm...

– Öyrəşərsən, – deyə komandir güldü: – Amma Sara səni bu kir-pasla da çox istəyir, bunu nəzərə al…

Rəşad komandirin bu zarafatına gülərək darvazaya tərəf qaçdı. Qapını açanda Saranı gördü. Sara yenə də ətəyi dizindən azacıq yuxarı olan güllü çit parçadan tikilmiş donunu geyinmişdi. Rəşadı görən kimi gözü güldü, ehtiraslı baxışlarla onu süzdü, salamlaşıb içəri daxil oldu.

Rəşad: – Gözəlim Sara, hardan bildin ki, samovar çayı dəmləyib səni gözləyirik?

Sara Rəşadın bu mehriban ünsiyyətindən bir az da xumarlandı:

– Hələ onu de ki, yuxuna da girmişəm...

Rəşad ürəkdolusu güldü: – Bu yuxumun sirridir, onu açıb tökmə, – deyərək Saraya yer göstərdi, ona da çay süzdü.

Sara erkən oyanıb Rəşada görə sobada bişirdiyi fəsəlini və qaymağı taxtadan yonulub düzəldilmiş köhnə həyət masasının üstünə qoydu. Əlində ağ süfrə də gətirmişdi, onu masanın üstünə sərdi, sonra həyətdəki mətbəx şkafını açıb çəngəl-bıçaq və bir neçə boşqab gətirərək qulluq etməyə başladı.

Sara hərdən rus dilində danışır, sonra ermənicə üyüdüb tökürdü. Rəşad isə komandirin daha yaxşı duyması üçün qəsdən rus dilində danışaraq Saranı da bu dildə ünsiyyət qurmasına məcbur edirdi.

Həyətdəki səs-küyə artıq qarı da oyanmışdı, aynabənddə göründü. Əvvəlcə gərnəşdi, sonra əsnəyərək Saranı səslədi:

– Mənim ağıllı balam, sağ ol ki, qonaqlara xidmət edirsən... Belə tezdən gəlməkdə xeyirdimi?

Sara: – Hə, nənəcan, dünən atışma olub, bizdən iki nəfər ölüb. Onları gətirib dəfn edəcəklər. Azərbaycanlıların kəşfiyyatçıları olub, bizim posta giriblərmiş… Ölənlərdən biri bizim keçmiş müdafiə naziri var idi ey, yadında olar, Ohanyan, onun yaxın qohumudur. Yaralılarımız da var. Suren dayı tezdən gəlmişdi, o bu bəd xəbəri verdi...

Qarı yaylığını başına bağlayıb dərindən ah çəkdi:

– Bu hadisələr bizi bezdirdi daha... Kənddə, Stepanakertin özündə də kişi qalmayıb, heç kim hərbiyə get-

mək istəmir, cavanlar qaçıb çıxıb aradan, Artsaxı tərk edirlər. Neyləsinlər, gündə neçəsi yaralanır, ölür...

Rəşad komandirə baxaraq gözləri ilə onun bu məlumatlardan razı qaldığına işarə etdi. Sonra: – Hə, nənəcan, bu məsələlər tez həll olunsaydı, rahat nəfəs alardıq, – deyərək Saraya tərəf çevrildi, çay qaşığı gətirmək bəhanəsi ilə onu evə göndərdi: – Bax, orda içərisində bal olan kasa var, onu da gətir…

Sara pilləkənləri qalxıb qarının əyin-başına əl gəzdirdi, sonra çay qaşığı tapmaq üçün mətbəxi ələk-vələk etməyə başladı... Bu fürsətdən istifadə edən komandir Rəşada tapşırdı ki, Saradan orduda xidmət edənlər barədə ətraflı məlumat öyrənsin.

Sara, nəhayət ki, çay qaşığı tapıb gətirdi və onu Rəşada uzatdı. Rəşad təşəkkür edib rus dilində: – Sara, bizim hərbi hissədə də yerli cavan azdır. Burda vəziyyət necədir? – deyə soruşdu.

– Xalamın iki oğluna saxta xəstəlik kağızı düzəldib qaçırtdılar Stavropola. Orda qohumlarımız var. Burda orduda olmaq xidmət deyil, dözülməz vəziyyətdir. Daha çox Ermənistandan və Suriyadan, İrandan muzdlular gəlib xidmət edir. Ötən həftə burada qırğın idi. İki aydır muzdluların pulunu vermirdilər, onlar da döyüşməkdən imtina edib gedirdilər. Muzdlularla bizimkilərin davası düşdü, silaha əl atdılar, bizimkilərdən üçü yaralanmışdı.

Sara çayını içib Rəşada səsləndi:

– Romacan, bu gün neyləyəcəksən?

– Heç nə... Baxarıq... Nə təklif edirsən?

– Buradan bir az aralıda, meşənin açıq yerində, dərədə bizimkilərin əsirlərə sökdürüb gətirdikləri metal, dəmir-dümür parçalarının qəbulu məntəqəsi var. Dayıma pul borcları var, gedəcəm onu almağa. İstəyirsən, mənimlə birlikdə gedəsən...

Rəşad komandirə baxdı. Komandir baxışları ilə getməyə razı olduğuna işarə etdi.

Rəşad Saranın əlindən tutaraq: – Sara, səni tək buraxsam, vicdanım məni o dünyada da rahat buraxmaz, – deyərək onu qucaqladı. Hamı bu zarafata doyunca güldü. Qarı da qımıldandı: – Əlbəttə, əlbəttə…

Rəşad Saraya müraciətlə: – Deyəsən, qarı da qucaqlanmaq istəyir, – deyərək o ki var güldü.

Sara stəkan-nəlbəkiləri yumaq üçün evə daşıdı. Komandir pıçıltı ilə: – Rəşad, soruş gör əsirlərdən orda kimsə varmı indi, onların sayı barədə nə bilir? – deyə tapşırıq verdi.

– Komandir, ürəyimdən keçəni duydunuz. Elə mən də onu soruşacaqdım. Bir də öyrənim görüm bu “metallom”u hara daşıyırlar? Eşitdiyimə görə, burda metaləritmə zavodu olmalıdır...

Sara Rəşadın qarşısında dayandı. Sözlü adama oxşayırdı. Rəşad onu rus dilində dilə yutmağa başladı: – Mələyim, quzum, ürəyindəkini ürəyində saxlama. Su da bir yerdə çox qalanda iylənir, bəla gətirir, – deyərək onu bir də sinəsinə sıxdı. Deyəsən, Sara da bunu gözləyirmiş. O, başını Rəşadın çiyninə qoyaraq əllərini enli kürəyində çarpazlamaq istədi, amma bacarmadı, çünki

barmaqları Rəşadın enli kürəyində bir-birinə yaxın belə gəlmədi.

Sara yumşaq əlləri ilə Rəşadın kürəyini sığallayıb qulağına asta, ehtiraslı və narazı səslə pıçıldadı: – Roma, sən məni duya bilmirsən, anlamırsan? Hər gecə yuxuma gəlirsən, amma gündüzlər yanıma gəlmirsən... Sən vicdansızsan... Sənin cəzanı verəcəm bir gün...

Rəşad da pıçıltı ilə: – Dostum baxır, o, ailəli olmasaydı, deyərdim rəfiqələrindən birini də onunla tanış elə, cəzam da bu olsun...

Sara Rəşadın bu zarafatlı sözündən diksindi: – Mənə bir də elə söz demə, mən səni düşünürəm, başqa kimsənin halını yox...

Sara öz dünyasında idi. Bu dünyada özünü Rəşadla birgə təsəvvür edirdi. Rəşad isə Saranın ona xoş münasibət bəsləməsindən bihuş olduğunu görərək onu xəyallarından ayırmaq üçün: – Yaxşı, yaxşı, küsmə, – deyib güldü: – Söz verirəm, ya bu gün, ya da sabah gələcəm yanına, cəzamı onda verərsən...

Sara bu sözlərdən necə sevindisə, qeyri-ixtiyari atılıb Rəşadın boynunu qucaqladı, onun güclü qollarında yelləncək kimi yırğalandı.

Komandir Rəşada başı ilə getmək lazım olduğu işarəsini verdi, özü də ayağa durub hazırlaşdı. Rəşad Saranın xurmayı saçlarını sığallayıb mehribanlıqla soruşdu: – Yaxşı, Sara, metalbazada əsirlər də olur? Mənim

Mardakertdəki bağımda, sonra Əsgərandakı evimdə ikisi var, amma xəstədirlər, onları dəyişmək istəyirəm. Görəsən, kimə deyim?

– Bu işlərə Ruben dayı baxır. Xalamın əvvəlki əri Qurgen dayı ondan iki əsir götürdü, amma bilirəm ki, yaxşı da pul verdi… Hə, əsirlər gəlib burada yük boşaldırlar…

Rəşad komandirin də ətraflı məlumatlı olması üçün Sara ilə rus dilində danışmağa üstünlük verdi:

– Sara, məncə, sən rus dilində daha təmiz danışırsan, nəinki erməni dilində...

– Hə, elədir. Mən Stepanakertdə rus bölməsində oxudum orta məktəbi, sonra da Stepanakertdəki institutun rus bölməsini bitirdim. Azərbaycan dilində də az-maz bilirəm.

Komandir başı ilə Rəşada “olmaz” işarəsi verdi. Rəşad komandirin nə demək istədiyini dərhal başa düşdü. Çünki Sara ermənilərin yanında Azərbaycan dilində də danışmağa başlaya bilərdi, bu da yersiz şübhə yaradardı.

Rəşad:

– Sara, bəs bu “metallom”u hara aparırlar?

– Əvvəlki prezident Koçaryanın ələ keçirilən rayonların bir neçəsində emal zavodları var idi. Yadımdadır, balaca idim, 1997-98-ci illərdə atamın İran istehsallı yük maşını var idi, anama danışırdı ki, Xocalı və Xocavənddən əsir düşmüş adamları Şuşa türməsində saxlayırlar, ordan seçib Ağdama, Mardakertə və digər kəndlərə metal toplamağa aparırlar. Hətta atam onları Martunidə işləyəndə evimizə də gətirmişdi. Onlar Azərbaycanlıların

evlərini, həyətlərini dağıdıb metal yığırdılar. İrandan da belə adamlar var idi. Dəstələrlə… Sonra da metalı Ruben dayının nəzarəti ilə Ermənistana aparırdılar. Amma Ermənistandakı zavodlar, nədənsə, bağlandı, sonra atamgil "metallom"u baha qiymətə İrana satırdı. İndi də burda İran maşınları var. Sürücüləri dünən dükandan araq, pendir, ət alıb aparırdı.

Rəşad Saranı tələsdirdi:

– Sara, di onda tələs, evə gedib paltarını dəyiş gəl, gedirik...

– Guya bu paltarda gedəcəkdim? İki il əvvəl yoldaşım hərbi xidmətdə idi, istilər olanda belə geyimdə getmişdim atama çatası aylığı almağa, İranlı sürücü, fars idi, mənə girişdi, söz atdı, metal gətirən orta yaşlı əsirlərdən biri onu dəmirlə döydü. Həmin iranlı sürücülərin



*(Şəkildə: soldan 6-cı, dəbilqəsiz, " Şuşa fatehləri"ndən biri - General Babək Qurbanovun qardaşı Bayram Qurbanovdur)*

başçısı gedib nəzarətçi Aşota şikayət edəndə döyən kişi də əsəbi halda belə dedi ki, "İrandan gəlib bizim torpaqda talanla məşğulsunuz, bu bəs deyil, hələ bir burdakı qadınlara da girişirsiniz?!". Onlara nəzarət edən Aşot isə həmin əsirə elə Azərbaycan dilində "Sən kişi adamsan, əsir olsan da, erməni qadının namusunu çəkirsən…", – dedi. Yadımdadır ki, həmin əsirlər bir neçə gün Ruben dayının evində yeyib-yatdılar. Mən onlara hər gün süd, isti çörək aparırdım...

– Adı nə idi o əsirin, xatırlamırsan?

– Yox, amma onları bir dəfə yaman kədərli gördüm. Söhbətlərindən belə başa düşdüm ki, onlarla bərabər Şuşada əsirlikdə olanlardan üç nəfəri həmin gün xəstəlikdən ölüb, Şuşa türməsinin divarına yaxın yerdə bir məzarlıq var, deyirdilər ki, orda basdırıblar.

Komandir dərindən ah çəkdi, iki əli ilə başını tutdu və bir müddət susdu. Sara isə zarafatla: "Durun, İran maşınlarının yola düşən vaxtıdır", – deməsəydi, Rəşad lap əsəbiləşib özündən çıxacaqdı.

Sara qonşuluqda yaşayan qoca Hamparsumu səslədi: – Ey, qoca, arvadın yanında az yat, ondan sənə bir şey çıxmaz... Gəl, bizi metalbazaya apar...

Qoca Hamparsum yol kənarında dayanmış maşınına yaxınlaşdı… Onlar Hamparsumun özü kimi əldən düşmüş "Moskviç"inə minib yola düzəldilər.

Hamparsum zarafatcıl adama oxşayırdı. Dodağının altında ermənicə "Sarı gəlin" mahnısını züm-zümə edərək yoluna davam edəndə Rəşad onu söhbətə tutdu: – Bizim Saraya həsr olunub bu mahnı, eləmi?

Qoca da zarafatından qalmadı:

– Bəs necə... Bizim erməni xalq mahnısıdır, ən çox sevdiyim mahnıdır, ermənilərin musiqi himnidir...

Rəşad dillənməli oldu:

– Hamparsum dayı, bizimkilər niyə türklərə demir ki, siz nədən hər gün oxuyursunuz bizim mahnını? Mən onların televiziyalarına tez-tez “tarelka”da baxıram…

Sara Rəşadın sözünü kəsərək:

– Mən həqiqəti sevənəm. Əslində, bizim mahnı deyil, mən YUNESKO-nun rəsmi məlumatını oxumuşam, orda bizə aid nəsə deyilmir. Amma kim bacarır o da oxuyur...

Qoca Hamparsum Saraya təpindi:

– Kəs səsini, deyirəm ki, bizim mahnıdır…

Rəşad:

– Hamparsum dayı, əsəbləşmə, görürəm yaxşı səsin var, bu azərbaycanlıların muğamları var ey, onu da oxuya bilirsən?

– Mən Şuşada 20 il yaşadım, gördüm ki, oranı bazara döndərdilər. Koçaryan hər il gəlirdi, bir dəfə də ora əl gəzdirmədi, kefə gəlirdi. Serj Sarkisyan prezident oldu, o da onun tayı idi, özünə sərvət yığdırırdı. Ağdamda qəbiristanlıqdakı qara mərmərləri sökdürüb Yerevana daşıtdırdı, özünə mərmərdən qəsr tikdirdi. Müqəddəs İsa belə deməyib axı, bu günah əməldir… İndi Paşinyan gəlib, o da saxtakara oxşayır, Şuşada yallı gedir, tut arağından içib şellənir. Gül kimi şəhərimiz dağılıb gedir. Mən Şuşada bir ansambl vardı, orda cavan vaxtı bir mahnını rus, erməni və Azərbaycan dillərində bülbül

kimi oxuyardım. Ağdama qastrola gedərdik... Ehhh... Hər şey batdı getdi, araya düşmənçilik saldılar. Düzünü deyim, Şuşada azərbaycanlılardan bir pislik görmədim, Qubadlıda aylarla dostumun evində qalırdım... İndi yadıma düşəndə başım xarab olur, axı niyə belə oldu?

Maşının qabaq oturacağında əyləşmiş Sara zarafatla: – Hamparsum dayı, sən yola baxsan yaxşıdır, gözün mənim dizimdədir bayaqdan...

Saranın bu zarafatına hamı güldü. Hamparsum: -Fikir verməyin, Sara zarafat edir… Subaydır də, məni qızışdırır…

Artıq metalbazaya çatmışdılar. Böyük bir ərazidə metalla yüklü 10-a qədər maşın dayanmışdı, sürücülər yola düşməyi gözləyirdilər.

Sara Rəşada iranlı sürücüləri göstərdi: – Bax, o dediyim döyülən iranlı odur eyy, əlində çaxır butulkası tutan, həmin o qarnı yekə… O tərəfdə dayanan üç nəfər isə azərbaycanlı əsirlərdir...

Sara pulunu almaq üçün sınıq-salxaq butkaya tərəf getməyə tələsirdi.

Rəşad: – Sara, sən get pul məsələni həll elə, mən dostumla su başına gedirəm...

Komandir Rəşada tapşırıq verdi:

– İranlı sürücülərlə ünsiyyətə gir, de ki, bizim də xeyli metalımız var, neçəyə alırlar və İrana hansı yolla gedirlər...

Rəşad Saranın gözdən itməsini gözlədi, sonra yük maşınlarının yanında dayanmış bir neçə nəfəri gözaltı

süzdü. Onlar azərbaycanlı əsirlərə oxşayırdılar. Əvvəlcə risk etmədi, sonra onların yan-yörəsində kəşfiyyat xarakterli gəzişmə etdi. Bu vaxt Sara gülə-gülə ona yaxınlaşdı. Deyəsən, işi düzəlmişdi. Rəşad məqsədli şəkildə onunla rus dilində danışmağa başladı:

– Saracan, pulunu aldınmı?

– Hə, əlbəttə, – deyərək bir az aralıda dayanmış üç nəfəri Rəşada göstərdi, – Dediyim əsirlər onlardır…

Rəşad: – Saracan, onları bura çağıra bilərsən? Mənə tanış gəlirlər...

Sara nəzarətçiyə yaxınlaşaraq əsirlərlə söhbət üçün icazə istədi, amma nədənsə, sorğu-sual uzun çəkdi. Sara sonda nəzarətçinin icazəsini aldı. Komandir də yaxına gəldi. Bu vaxt bir erməni uzaqdan Saranı səslədi… Məlum oldu ki, institutda Sara ilə bir oxuyub, 2016-cı ildə Azərbaycan ordusunun 4 günlük aprel əməliyyatı zamanı ağır yaralanıb, bir gözünü və qulağının birini itirib… Sara ona tərəf getdi. Onlar şirin-şirin söhbət edirdilər.

Rəşad Saranın onlardan aralı olmasından istifadə edərək əsirlərlə əvvəlcə qəsdən erməni dilində danışdı, lakin onlar bu dildə başa düşmədiklərindən öz aralarında bir-birinə Azərbaycan dilində nəsə dedilər. Rəşad onların azərbaycanlı olduğuna qəti əmin oldu. Bu vaxt Sara da əsirlərə yaxınlaşdı, Azərbaycan dilində salam verdi, əsirlər sevincək cavab verdilər. Əvvəlcə elə bildilər ki, Beynəlxalq Qırmızı Xaçdan gəlib. Lakin Sara izah etdi ki, yox, yanındakılar onun dostlarıdır, nəsə soruşmaq istəyirlər. Rəşad əsirin birindən rus dilini bilib-bilmədi-

yini xəbər aldı. Məlum oldu ki, az da olsa bilir. Bu vaxt Rəşad rus dilində onunla söhbətə başladı:

– Bilirsiniz, bizim də xeyli metalımız var, maşın axtarırıq, bilmirsiniz İran maşınları hansı yolla gedəcək? Yolüstü yükü götürələr.

Əsirlərdən biri:

– Zəngilan rayonu tərəfdə böyük bir hərbi post var, orda Araz çayı üzərindən müvəqqəti körpü salıblar, ordan keçirlər... Azərbaycanlılar o biri yolu vururlar deyə, qorxurlar… Bir neçə dəfə orda olmuşuq, çünki sizinkilər yükü orda iranlılara təhvil verib pulunu alırlar, sonra biz başqa maşınla geri qayıdırıq, yük İrana yola salınır...

Rəşad əsirlərin birinin əlinin üstündə "Xocalı" sözünün həkk olunduğunu gördü:

– Sən Xocalıdansan? – deyə soruşdu.

– Bəli, ikimiz Xocalıdan, o biri isə Ağdamdandır, – deyə əl-üzünü yuyan digər əsiri göstərdi.

– Bəs aranızda rəhbər kimdir?

– Ağdamdan olan həmin o kişi...

– Neçə ildir əsirlikdəsiniz?

– O 1994-cü ildən... Biz isə Xocalıda əsir düşmüşük... Əvvəlcə çox idik, o qədər əzab verdilər ki, əksəriyyətimiz işgəncələrdən öldü...

Komandir onu diqqətlə dinləyirdi... Sonra əyilib Rəşadın qulağına pıçıltı ilə: "Sən Saranı kənara çək, söhbət elə başını qat…", – deyə tapşırıq verdi.

Rəşad Saranın qolundan tutaraq kənara çəkdi, onunla nəsə deyib-gülməyə, məzələnməyə başladı. Bu vaxt komandir rəhbər olduğu deyilən əsirə tərəf gəldi, qəsdən

rus dilində nəsə qıcıqlandırıcı söz dedi... Əsir də ona xoşagəlməz cavab verdi. Elə bu vaxt əsirin bu cavabı komandirin xoşuna gəlmədi, bir bəhanə ilə onun yaxasından tutaraq kənara itələdi. Səs-küyə əsirlərin nəzarətçisi dərhal onlara yaxınlaşdı və erməni dilində “Nə oldu? Tədbirini görüm?” – deyərək irəli cumdu. Komandir isə rus dilində “Yox, özüm başa salacam” – deyib əsiri itələyərək qalın kolluğa tərəf apardı. Lakin əsir ciddi müqavimət göstərirdi və birdən əyilib yerə düşmüş armaturu götürmək istəyəndə komandir sakit səslə ona Azərbaycan dilində, – Sakit ol... Sakit ol, – deyib sakitləşdirdi. Əsir bir anda özünü itirdi. Komandir onu bir az da kənara çəkdi, əsir başa düşdü ki, qarşısındakı adamın məqsədi təkləyib ona kənarda nəsə deməkdir. Hər ikisi həyəcanlı olsa da, komandir soyuqqanlı tərpəndi: – Az qalıb, söz verirəm, arxanızca özüm gələcəyəm, bu dağıntılara da son qoyacağıq... Sən mənə de görüm Zəngilanın ərazisini necə tanıyırsan? Ermənilərin Zəngilandakı hərbi bazası hardadır?

Bu vaxt Sara Rəşadın əlindən tutub komandirə tərəf gəlmək istədi. Komandir əli ilə “Gəlməyin!” işarəsi verərək, yenidən əsirin yaxasından tutdu, guya əsəbiləşib deyə, bir də yaxasından tutub silkələdi, sinəsinə astaca yumruq da vurdu. “Danış...” – dedi.

Azərbaycanlı əsir komandiri gözlərindən tanıdı: “Sizi Xocavənddə mal fermasında metal toplayanda görmüşəm… Ordakı bazanı siz darmadağın etdiniz…”, – deyərək həyəcanını gizlətməyə çalışdı. Sonra komandirə yaxındakı qayalıq ərazidə yerləşən hərbi post və

meşənin çaya dirənən hissəsindəki yarğan barədə ətraflı məlumat verdi. Komandir ayrılanda: "Darıxmayın, özünüzü möhkəm tutun, arxanızca gələcəyəm…", – deyərək onun əlini sıxdı. Amma bu barədə yanındakılara hələ heç nə danışma, – deyərək ondan aralandı (Təxminən bir ay sonra Azərbaycan ordusunun bölmələri hərbi əməliyyatlarla əsirlərin komandirə söylədikləri erməni postlarını darmadağın edəcəkdi və İrana metallom daşıyan yük maşınlar ələ keçiriləcəkdi. Eləcə də həmin əsirlər Azərbaycanın xüsusi təyinatlıları tərəfindən azad olunacaqdı).

Əlində avtomat tutan nəzarətçi əsirlərə yaxınlaşdı, komandirin onlardan nə tələb etdiyini soruşanda Rəşad ermənicə: – Vaxtilə onlar dostumun evində işləyiblər, divarı bir az əyri hörmüşdülər, dostum bunu ona başa salırdı...

Qoca Hamparsum hələ də kənarda dayanıb onları gözləyirdi. Hamı maşına əyləşdi… "Moskviç" tozlu yolda şütüyərək Saragilin evinə çatdı. Nahar vaxtı olduğundan Sara onları evə dəvət etdi. Komandir bugünkü metalbaza təəssüratlarından çox məmnun görünürdü, amma evə dəvətə tərəddüd edəndə Rəşad onu arxadan qucaqlamış Saranın əlindən tutaraq komandirə göz vurdu, əlini boğazına çəkdi:

– Sara axşamdan yarpızlı dovğa bişirib, yaxşı da bozartması var... Bir də, məgər dünya dağılacaq Saranın şərəfinə bir bakal qırmızı Əsgəran şərabı içsək... Saranın sözünü yerə salmaq heç yaxşı iş deyil…

Bu sözlər Saranın ürəyinə yağ kimi yayıldı, Rəşada dəstək verdi:

– Roma düz deyir, mənim sözümü yerə salanın…

Hamı güldü. Sara komandirə: – Bilirəm, ağrılarınız hələ də durur, yaralarınız sızıldayır, amma mənim bişirdiyim dovğanı içsəniz, bütün ağrınız keçəcək..., – deyərək onu evə dəvət etdi.

Komandir yumşalmışdı. Çoxdan idi anasının bişirdiyi yarpızlı dovğadan içmirdi. Xəyalı çox uzaqlara getdi…

Rəşad sürücünü yola salıb Saranın ardınca komandirlə birlikdə doqqazdan içəri daxil oldu.

Hava çiskinli idi, yağmurlu olacağı hiss olunurdu. Qarşıda isə Rəşadın qoca Rubenlə haqq-hesablı söhbəti dururdu…

Artıq 4-cü gün idi ki, komandir lazım olan məlumatları toplayıb koordinatları müəyyən edərək, telefonunun yaddaşına həkk etmişdi. Rəşad komandirlə birlikdə Rubeni də götürərək meşəyə, onun dediyi bulağa getməyi planlaşdırdılar. Amma komandir başqa təklif verdi:

– Rəşad, meşədə bulaq başında fərqli adamlar ola bilər və planımıza mane olarlar. Gəl, Rubenin məsələsini evindəcə həll edək. Özün tək get, mən kənardan nəzarət edəcəyəm… Sən də “işini” rahatlıqla görə biləsən…

Məsləhətləşmələrdən sonra Rəşad komandirin qəti dirənişi ilə razılaşdı, belə qərara gəldilər ki, guya təcili

tapşırıq gəlib, Stepanakertə qayıtmalıdırlar. Ona görə də yola düşürlər, qarı ilə xudafizləşib meşəyə gedirlər. Qaranlıq düşəndə isə Rəşad Rubenin evinə qayıdır, onunla məsələni çürüdür, kilsə adlandırılan tikilidəki silah anbarını isə komandir özü işədüşən mina ilə təchiz edərək razılaşdıqları yerdə görüşüb yola düşürlər.

…Rəşad qapıdan çıxanda Saranın ona tərəf gəldiyini gördü. Sara bu dəfə olduqca səliqəli və gözəgəlimli bəzənmişdi. Rəşad onunla qarşılaşmağından çox məmnun olduğunu deyib iki günə qayıdacağını vəd etdi: – Saracan, təcili hərbi tapşırıq almışıq, cəbhədə vəziyyət gərginləşib, getməli olduq, amma mən iki günə qayıdacam, – deyib onu şübhələndirməmək və ələ almaq üçün qolundan tutdu: – Bir az bəri keç, görərlər, – deyib onu qarının həyətinə, görünməz yerə tərəf çəkdi: – Sənin üçün darıxacam, Sara, mütləq iki günə qayıdacam. Evi isti edərsən, odunu bol elə, soyuq olmasın… – deyib onun yanaqlarını əlləri ilə ovuşdurdu.

Sara çox pərişan idi, bir az da pis olmuşdu. Çünki planı pozulmuşdu: – Mən səni bu gecə qonaq aparmaq istəyirdim, – deyərək kədərli halda Rəşadın əllərindən tutdu. Od kimi yanan əlləri titrəyirdi. Amma artıq gec idi, Rəşad yola düşməli idi. Sara ona: – Onda gözlə, evə dəyib gəlirəm, – deyə o, yeyin addımlarla evinə tərəf getdi. Çox keçmədən əlində toxunma parçadan tikilmiş bir torba ilə geri qayıtdı: – Burda öz bağımızdan olan çərəzdir, yeyərsən, düşmənlərimizə qarşı səngərdə

möhkəm dayanarsan, səni soyuqdan qoruyar, – deyib onunla xudahafizləşdi.

Artıq qaranlıq düşmüşdü. Bu gecə havanın dumanlı olacağı şübhə doğurmurdu. Əslində, bu əsl kəşfiyyatçı havası idi. Peşəkarlar belə havanın qədrini yaxşı bilir.

Rəşad qaranlıq küçə ilə Rubenin evinə tərəf gedirdi. Sazaqlı külək əsməyə başladı. Dağlardan süzülüb gələn duman küçə boyu uzanaraq qaranlığı bir az da zülmətə çevirmişdi, göz-gözü görmürdü. Küçədə səs-səmir kəsilmişdi, kimsə gözə dəymirdi.

Rəşad darvazanı yavaşca itələdi, həyətə boylandı. Kimsə yox idi. Amma həyətin lap yuxarı başındakı birmərtəbəli evdə işıq yanırdı. Görünür, Ruben evin ikinci mərtəbəsində yayda yatırmış, havalar soyuyanda isə darısqal və alçaq tavanlı evə köçürmüş.



Rəşad köhnə əsgər şinelinə bükülmüş avtomat silahını darvazanın həyətə giriş hissəsində, sağdakı gül-çiçək kolluğunda gizlədərək ətrafı bir də nəzərdən keçirdi. Yavaş-yavaş işıq gələn daxmaya tərəf addımladı. İçəridə ermənicə mahnı oxunan radionun xışıltılı səsi gəlirdi. O, qapının ağzında dayanıb bir qədər qulaq asdı. Rubendən başqa kimsə yox idi. Qapını yavaşca döydü. Erməni dilində içəridən "Gəl" deyə qoca Rubenin səsi eşidildi.

Rəşad qapını açıb içəri girdi. Ruben: – Ah, mənim balam, gəl-gəl… – deyib ayağa durmaq istəyəndə Rəşad onu qucaqladı: – Əzizim Ruben dayım, atamın yadığarı və heç vaxt unutmayacağım ağsaqqalım… Necəsiz, durmayın…

– Belə də, oğlum, – Ruben dizlərini tutub ufuldadı… – Alnımdakı qəlpə də məni xeyli vaxtdır incidir. Həkimlər də bu yaxınlarda ağ ciyərimdə xərçəng olduğunu dedilər…

– Nədəndir bu qəlpə?

– Bu, türklərlə döyüşdən yadigardır. Amma qisasımı da onqat almışam. Körpələrinə, qadınlarına belə rəhm etməmişəm, – deyib fikrə getdi, sonra söhbətinə davam etdi:

– Mən ehtiyatda olan mayor idim, xidmətlərimə görə polkovnik verdilər. Artsaxın müdafiəsinə görə… O vaxtkı müdafiə nazirimiz Ohanyan mənim xidmətlərimi yüksək qiymətləndirmişdi. O, məni əsir və girovların cəlladı adlandırırdı. Bir də Vitali Balasanyanı…

Rəşad qəzəb və nifrətini gizlətməyə çalışdı:

– Ruben dayı, siz bizim fəxrimizsiniz…

– Yox, məndən də igid döyüşçülərimiz var. Artsaxın müdafiəsi zamanı bizim Serj Sərkisyan, Monte Melkonyan, Vitali Balasanyan, Robert Köçəryan, Bako Saakyan, Araik Arutyunyan… kimi qəhrəmanların adı erməni tarixində əbədi qalacaq.

Rəşad:

– Bako Saakyan bizim komandirin yaxın dostu idi…

– Hə, oğlum, Bako Saakyan əslən Stepanakertdəndir. 1990-cı illərdə Saakyan bizimkilər üçün xarici ölkələrdən gizli yolla silah gətirilməsini təşkil edirdi. Onun ASALA, Rusiya, PKK, İran və Fransadan olan dostlarımızla güclü əlaqələri var. Sən bilməzsən, biz Xocalını ələ keçirəndə Fransa məhz onun vasitəsilə bizə silah, geyim, ərzaq və maliyyə yardımı göndərmişdi. Hizbullah, PKK, ASALA kimi təşkilatların rəhbərləri ilə də onun sıx əlaqəsi var. Narkotik, silah və insan alveri sayəsində milyonlar qazanıb. Halal xoşu olsun. O, bunları Artsaxın müqəddəs azadlığı yolunda edib.

– Bakonun əsirlərə yaxşı dərs verdiyini çox eşitmişəm…

Ruben cibindən vərəqləri süzülüb cırılmış köhnə bir kitabça çıxartdı:

– Bax, burda qeydlər etmişəm… Bako Artsaxda bütün döyüşçülərin etimadını qazanandır. Onun əsas işi əsirləri ağır mülki işlərdə işlətmək idi. Mənim bu evimin bütün işlərini əsirlər görüb. Onlar binaları, evləri, qəbir daşları və idarələri sökürdülər. İrana metallom

satmaq Bakonun tapşırığı və nəzarəti ilə olurdu. Bako həm də Xocalıya hücum əməliyyatına rəhbərlik edənlərdəndir. Onun cəsarətindən hamı danışırdı o vaxtlar… Uzun müddət terrorçu və insan alverçisi olmuş Laura Geverkovna Lalayan (ləqəbi Arnold) ilə birgə əsir uşaqların orqanlarının satışını İran üzərindən Fransa bazarına çıxarmaq işində Bako fəallıq göstərirdi. Əsgəranda bir komandir var idi, onun oğlunun qara ciyərini əsir götürülmüş uşaqlardan götürmüşdülər. İki nəfərin də böyrəyini 50 min dollara alıb Moskvaya göndərdiklərinin şahidiyəm…

Danışdıqca ağzı köpüklənən qoca Ruben Rəşada tərəf çevrildi:

– Sən Monte Melkonyanın qardaşı Markar Melkonyanın "Mənim qardaşımın yolu" kitabınını oxumusan?

– Eşitmişəm, amma oxumamışam…

– Oxu… O kitab bizim qəhrəman Artsax döyüşçülərinin şücaətindən bəhs edir, əsir düşən azərbaycanlıları necə güllələdiyimiz gözəl təsvir edilir… Bax belə, oğlum. Sən də elə ol! Hamımız elə olmalıyıq… Bu azərbaycanlılar imkan vermir dövlətimizdə rahat yaşayaq. Amma səsləri kəsilib daha… Bu yaxınlarda Tovuzda bir generallarını, iki polkovniklərini öldürdük. Kəşfiyyatımız dəqiq koordinat vermişdi. Bir az hay-küy salıb sakitləşdilər…

– Hə, eşitdik…

Rəşad Rubenin çox çərənlədiyini görüb mövzunu dəyişmək istədi. Çünki onun danışdıqları insanlığa yad əməllər idi, onun ağlını başından çıxardırdı:

– Ruben dayı, bizim Artsaxın tarixi qədimdir, elə deyilmi?

– Əlbəttə…

– Bir rus alim yazıb ki, guya 1828-ci ildə İranla Rusiya arasında olan müharibədən sonra “Gülüstan” sülh müqaviləsi bağlanıb, biz erməniləri də buraya İrandan və Türkiyədən köçürüblər …

Ruben qəhqəhə çəkdi:

– Nə olsun… Hətta 1978-ci ildə bizim babalarımızın Qarabağa köçməsinin 150 illiyi şərəfinə Mardakertdə qoyulmuş xatirə abidəsi də var idi. Hansı erməni ağılsız bunu etmişdi, bilmirəm. Gərək o heykəltaraş ora 150 yox, 1500 yazaydı… Amma o vaxt bizimkilər həmin abidəni dərhal dağıtdılar. Bu torpaqlar biz ermənilərin olmalıdır. Atalar məsəlidir, yalanı bir dəfə de, iki dəfə de, üçüncü dəfə inanacaqlar. Hətta nə vaxtsa özün də inanacaqsan… Lap tutalım biz bura sonradan köçmüşük, indi neyləməliyik? Burdan da geri qayıtmalıyıq? Bu, mümkün deyil. Azərbaycan bu torpaqların onun olduğunu sübut etmək istəyirsə, buyursun, gəlsin…

Ağzı köpüklənə-köpüklənə danışan Ruben törətdiyi əməllərdən də həvəslə danışmağa başladı:

– Mən Zori Balayanın Xocalıda törədilən qətliam barədə olan xatirələrini həvəslə oxuyuram, – deyib, ayağa durdu, erməni dilində yazılmış bir neçə vərəqi rəflərin birinin siyirtməsindən çıxardıb Rəşada göstərdi: – Bax, yaxşı bax, oğlum, sən ermənisən, sən bunları dərindən bilməlisən… Oxu, burda gör nə yazır… Bu kitabçanı mənə avtoqrafla bizim keçmiş prezidentimiz

Robert Koçaryan hədiyyə edib. Özü də yazıb: "Əzizim Rubenə! Bu kitab qəhrəmanlıq tariximizin bir parçasıdır. Oxu və başqalarına ötür ki, hamı oxusun, fəxr etsin!". Zori Balayan xalq qəhrəmanıdır, Artsaxın fəxri vətəndaşıdır. O, "Ruhumuzun dirçəlişi" kitabında 1992-ci ilin 26 fevralında Xocalıya hücum edərək bu vəhşi azərbaycanlılara qarşı törətdiyimiz qətliam barədə yazıb. Onlar türkdürlər, bizi 1915-ci ildə soyqırım ediblər Türkiyədəki qardaşları ilə. Biz də qisasımızı almalıyıq onlardan axı…

– Orda nə yazılır, Ruben dayı, eynəyinizi verim oxuyun…

Ruben eynəyi götürüb həvəslə oxumağa başladı: Hə, Zori Balayan yazır: "Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra özüm 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq".

– Siz də fəxr edirsinizmi bunlarla?

– Əlbəttə, necə fəxr etməyim?! Onlar bizim qədim Artsax torpağımızda dinc yaşamağımıza mane olurlar…

Sən bunu dinlə. Bizim Livanda yaşayan yazıçı-jurnalist David Xerdiyan isə "Xaç uğrunda" kitabında mənim də qürur hissi keçirdiyim anları belə təsvir edir: "…Səhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstü ilə getmək istəmədim. Bunu görən polkovnik-leytenant Ohanyan mənə işarə etdi ki, qorxmayın. Mən ayağımı 9-11 yaşlı qız meyidinin sinəsinə basıb addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi. Və mən beləcə 1200 meyitin üstündən keçdim".

Rəşad insanlıqdan uzaq olan bu əməllərdən həvəslə, qürurla danışan Rubenin necə bir qaniçən olduğunu təsəvvür edirdi:

– Ruben dayı, o divardan asılan şəkildəki bizim indi Ermənistanda müdafiə naziri olan Ohanyandır, eləmi?

– Bəli, onun Ağdamda və başqa ərazilərdə düşmənlərimizlə aramıza çəkdiyi sədd var. "Ohanyan səddi" deyilir. Onun adını daşıyır… Nəinki Azərbaycan, heç Türkiyə də gəlsə, o səddi keçib buralara gələ bilməz. Rus hərbçilərinə pul verib aldığımız yüz minlərlə minanın üstündən necə keçə bilərlər? – deyə qoca Ruben qəhqəhə çəkib güldü.

Rəşadın isə başından tüstü çıxırdı, içindən yanırdı. Amma hələ tez idi, onu bir az da söhbətə tutmaq istəyirdi:

– Bəs o kağızlarda nə yazlıb, Rubencan? Deyəsən, şərabınız qurtarıb… – deyərək güldü… – Bunu da dostlarımızın sağlığına içək…

Ruben:

– Ah səni, mənim qardaşım oğlu, al bu qrafini get zirzəmiyə, doldur bir də gətir. Burda tək qalmışam, Allah səni yetirdi…

– Hə, Ruben dayı, həqiqətən də məni sənə Allah yetirib…

Rəşad zirzəmiyə düşərək qrafini şərabla doldurub gətirdi. Ruben iri stəkanlara doldurulmuş şərabı götürərək: -Qaldır, bunu olan və olacaq qələbələrimizin şərəfinə içək…

Rəşad ürəyində "Şəhidlərimiz, vətən, anam, məni bağışla, bu mənə indi mütləq lazımdır…", – deyib əlindəki şərab dolu stəkanı qaldırdı, amma içmədən yerə qoydu: – Rubencan, Sara məni o ki var içirdib, gecə də qaranlıqdır, sabah artıqlaması ilə içərik, – deyərək əlavə etdi:

– Ruben dayı, siz nə qədər maraqlı insansınız.

– Siz də oğlum… Bax bu vərəqlərdəkini isə bizim fəxrimiz olan Xerdiyan yazır. Diqqətlə qulaq as: "Biz martın 2-də "Qaflan" erməni qrupu (meyitləri yandırmaqla məşğul olurdu) ilə 2000-ə yaxın alçaq monqolun (türklərin) cəsədini toplayıb ayrı-ayrı hissələrlə Xocalının 1 km-liyində yandırdıq. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış təxminən 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda gördüm ki, o yavaş-yavaş nəfəs alır. Soyuq, aclıq və ağır yaralanmasına baxmayaraq, o hələ də sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini mən heç vaxt yaddan çıxarmayacam. Sonra Tiqranyan familiyalı bir əsgər onun

qulaqlarından tutub üzərinə mazut tökülərək yandırılan cəsədlərin içərisinə atdı. Qızın qışqırtısı aləmi götürsə də, alovun içində bir daha eşidilməz oldu. Tonqaldan ağlamaq və imdad səsləri gəlirdi. Biz düşməndən qisas alırdıq…”.

Rəşad göz yaşlarını güclə saxladı, anası, atası və dayısının, bibisinin hansı qəddarlıqla öldürüldüyünü göz önünə gətirdi, öz-özünə “Təsəvvür edirəm, qarşımdakı bu alçaq onların imdad səsinə hansı zalımlığı ilə cavab verib…”, – deyərək gözlərini sildi. Bunu görən qoca Ruben: – Sənə nə oldu, mənim igid oğlum?!

Rəşad:

– Heç, Ruben dayı, şərab təsir etdi, döyüşdə həlak olan igid döyüşçülərimiz yadıma düşdü…

– Bəli, biz ermənilər birdəfəlik düşmənimizi tanımalıyıq. Azərbaycanlılar isə bizi düşmən kimi tanımır hələ də. Bizimlə dost olmaq istəyirlər. Ona görə də düşmənini yaxşı-yaxşı tanımayan millət məhvə məhkumdur. Necə ki, biz ermənilər onları beləcə məhv etməkdəyik…

Qoca Ruben danışdıqca Rəşad onun divardan asdığı şəkillərə və digər əşyalara göz gəzdirirdi. Şəkillərin bir çoxunda Rubenin və onun əsgərlərinin əsir və ya girov düşmüş azərbaycanlıları necə edam etməsi, güllələməsi, mülki insanların qollarını ağaca mismarlayıb işgəncə verməsi əks olunurdu. Şəkillərin birində 12-13 yaşlı qız uşağının hörüklərindən asılması əks olunmuşdu. Ağlayaraq imdad diləyən qızcığazın sinəsinə nizəyə bənzər dəmir parçası saplanmışdı…

Rəşad bu şəklə baxıb hıçqırtı ilə ağladı. Amma artıq dözə bilmirdi. Hər şeyi unutmuşdu. Birdən gözü divardakı qızıl boyunbağına sataşdı. Boyunbağıdan qızıl klon asılmışdı. Dairəvi şəkildə olan klon ona çox tanış gəldi. Anasının boğazında da beləsi var idi. "Hə, deyəsən, elə odur, anamın boyunbağısıdır…", – deyib boyunbağını əlinə aldı. – Ruben dayı, bu nə gözəl əl işidir, qiymətli şeyə oxşayır…

– Hə, oğlum, bu girov götürdüyümüz bir ailədən yadigardır. İki kişi, iki qadın və iki uşaq idilər… Qadına dedim ki, bunu öz əlinlə aç ver, üstümə çəmkirdi ki, bu niyə sənin olmalıdır və mən ona əlimi uzadanda üzümə tüpürdü… Cavabını da necə lazım idi aldı…

– Necə aldı, Ruben dayı? Çox maraqlıdır, – deyib qızıl klonun arxasına baxdı: "Dəqiq, odur… Atam anama 30 yaşı münasibətilə ad günündə hədiyyə etmişdi. Arxasına da özünün və anamın adının baş hərflərini həkk etdirmişdi…", – deyib ürəyində pıçıldadı.

– Mən əsgərlərimə tapşırdım ki, o qadını və ərini bir yerə bağlayıb diri-diri yandırsınlar… Kişi yalvardı ki, ona və oğluma dəyməyin, məni öldürün. Dedim, sizin hamınızı, türklərin son nəfərinədək bütünlüklə öldürməsək, ürəyimiz soyumayacaq. Dedim, bir şərtlə sizi sağ buraxarıq: deyin ki, bu torpaqların hamısı Artsax dövlətinindir!

– Dedilərmi?

– Mızıldandı, nəsə danışırdılar öz aralarında... Dedim, aydın deyin görüm nə söyləyirsiniz? Sən təsəvvür edirsənmi, yaralı kişi danışa bilmirdi, taqətsiz idi, çünki

iki gün ac-susuz saxlamışdıq. Amma qadın birdən mənə tərəf çevrilərək dedi ki, siz şərəfsizlərin heç vaxt dövləti olmayıb, bunu necə deyək? Bu vaxt əsgərlərimi çağırdım, dedim, bu qadınları sonraya saxlayın, onların cəzası ayrı olacaq və əlimdəki benzin dolu "konistri" verdim əsgərimə, dedim, tökün bu iki kişinin üstünə, birlikdə diri-diri yandırın ki, qadınlara da dərs olsun, tanısınlar Ruben kimdir… Onların qışqırtısı bir dəqiqə çəkdi. İkisi də alovun içində yanıb kül oldu. Mən hələ sənə deyim, onların iki uşağı var idi. Biri əsir düşəndən bir neçə gün sonra acından öldü… O birisi isə 7-8 yaşında olardı, çox yaramaz uşaq idi. İki dəfə burada gözdən yayınıb qaçmışdı, tutub gətirdilər. Heyif, o uşaq əlimdən çıxdı…

– Necə oldu? Öldürmədiniz?

– Yox, mən onu Yerevanda böyrək xərçəngindən əziyyət çəkən bacım uşaqları üçün saxlayırdım. Həkimlər o uşağı Stepanakertdə əməliyyat edib böyrəklərinin



ikisini də bacım uşaqlarına köçürəcəkdilər. Həmin gün azərbaycanlılar təxribat törətdi, hücum etmişdilər buralara. Başım qarışdı. Bu iş bir günləngidi. Bacım oğlu xəstəlikdən öldü. Səhəri gün Qırmızı Xaçdan gəlib bir neçə girovlarla birlikdə onu da təhvil aldılar. Dedim, rədd olsun…

Rəşad saatına baxdı. Vaxt idi:

– Ruben dayı, demək o uşaq sağdır…

– İnanmıram. Onu təpiklə o qədər vurmuşduq, lap futbol topuna dönmüşdü. Biz Martuni tərəfdə iki kəndi düşməndən azad etmişdik. Kabab bişirib yeyib-içirdik, bu qələbəni qeyd edirdik. Bu uşaq birdən cumub kababın iri tikəsini qapanda əsgərim onu təpiklə vurub yerə yıxdı. Dedim, gətirin bura, közün üstündəki qıpqırmızı qızarmış maşanı götürüb onun əllərinin üstünə basdım, dedim, indi əllərin o kabab kimi bişib, doyunca yeyərsən…

Ruben bunu deyib qəhqəhə ilə güləndə Rəşad artıq dözə bilmədi:

– Ruben dayı, mənim əziz böyüyüm, ağsaqqalım, o uşaq birdən indi hardasa qarşına çıxsa, onu tanıya bilərsənmi?

– Yalnız əllərindəki o maşanın közərmiş yerinin yanıq izlərindən taıyaram… Bir də onun kürəyindəki şallaq izlərindən, əgər indiyədək qalmış olarsa…

– Doğrudur, Ruben dayı, sən igidsən, fəxrimizsən, – deyərək Rəşad əllərini qoşalaşdırıb masanın üstünə qoydu, əlində şərab badəsini tutub içmək istəyən Rube-

nin titrəyən əlinə bir yumruq ilişdirdi: – Əclaf, – dedi, – bax, bu əllərə, sənin günlərlə ac saxlayıb bir tikə kababı da çox gördüyün həmin uşaq indi qarşındadır…

Rəşad yerə sərilərək özünü itirmiş qoca Rubenin nimdaş və çirkli pencəyinin yaxalığından tutub qaldırdı və masaya əyləşdirdi: – Bu qızıl zəncir isə mənim anamın idi, sən onu tonqalda yandırdın, rəhm etmədin. Niyə? Bu insanlığa sığan idimi, əclaf köpək, – deyib Rubenin boğazına, vaxtilə atasını və dayısını asdığı kimi bir kəndirin ilgəyini keçirtdi, – Səsin çıxsa, bu xəncər boğazındadır. İndi dur gedək mənim valideynlərimi, körpə qardaşımı, dayımı və bibimi benzin töküb yandırdığın yerə…

Rəşad Rubeni sürüyə-sürüyə həmin məzarların olduğu yerə gətirdi:

– Buradır?

Səsi boğazında ilişib qalan Ruben xırıltı ilə: – Hə, buradır, – dedi.

Rəşad Rubeni həmin qəbirlərin üstündə diz çökdürüb: – De ki, mənim qanım sizə halaldır, əliyalın, köməksiz insanlar, mən sizi insanlığa yaraşmayan zülm ilə öldürdüm… De… De… Əclaf…

Ruben bu dəfə Azərbaycan dilində yalvarmağa başladı:

– Məni bağışla, öldürmə, qoca adamam, biz qonşuyuq, vaxtilə azərbaycanlılarla dost olmuşuq… Bizi o Koçaryan, Sarkisyan, Ohanyan kimi əclaflar yoldan çıxartdılar, məcbur etdilər, sizlərlə düşmən elədilər… Ara, məzhəb haqqı, sənin yaxşılığından çıxaram…

– Səsini kəs, yaramaz qoca… Sizlər Xocalıda törətdiklərinizi unutdunuzmu? Biz unutmamışıq… Sizlər ona görəmi sizə yurd yeri vermiş, qonşu etmiş azərbaycanlılara bu zülmləri yaşatdınız?! İndi əyil yerə, günahlarının qarşısında diz çök! Belə günahsız insanların məzarları on minlərlədir, bunlar siz ermənilərin günahlarıdır! Əyil, indi zalımlıqla öldürüb basdırdığınız insanların yatdığı torpağı yala, imdad dilə, bağışlanmağını istə…

Rubenin bağırmağa taqəti də qalmamışdı, o, baş verənləri möcüzə kimi qarşılayıb həyəcandan insult keçirmişdi. Səsi xırıldayırdı…

Rəşad onun boynundan tutub sifətini nəmli torpağa basdı, səsi çıxmayanadək boğub gəbərtdi.

Sonra saata baxdı. Artıq komandirlə vədələşdiyi vaxta bir saat qalmışdı. Cəld Rubenin ikimərtəbəli, dəbdəbəli evinə girdi, divarda asılmış iri xəncəri götürdü, sonra evin küncündəki elektrik qızdırıcısını şəbəkəyə qoşub odun sobasının yanında küncə qoyulmuş neft butulkasını əlinə alıb xalçalı döşəməyə səpdi, yorğan-döşəyi də ətrafına yığıb işıqları söndürərək evi tərk etdi.

Sakitcə darvazaya yaxınlaşanda iki nəfər hərbi geyimlinin həmin istiqamətdə gəldiyini hiss etdi. Hava sərt dumanlı olduğundan onların silueti görünürdü… Lap yaxına gəldilər. Amma silahsız idilər. Rəşad əlindəki iti xəncərlə hazır vəziyyətdə dayandı. Naməlum şəxslər darvazaya yaxınlaşıb erməni dilində: "İşıqları yanmır, yəqin ki, Ruben dayı yatıb", – deyərək həyətə girdilər. Onlar Rəşadı görəndə salam verib Rubeni soruşdular.

Rəşad bildirdi ki, o, bərk xəstədir, indicə həkimə aparıblar: – Mən gəldim ki, qapıları bağlayım, – deyərək birdən əlindəki xəncəri hər iki erməninin sinəsinə sapladı. İkisi də xırıltı ilə yerə sərildi. Ardınca hərəsinə bir neçə xəncərlə zərbə endirib meyitlərini sürüyərək Rubenin leşinin üstünə atdı, ardınca darvazanın arxasında gizlətdiyi snayper silahını götürüb gözdən itdi.

...Rəşad asta addımlarla komandirlə razılaşdıqları əraziyə çatdı. Meşənin kənarında özünə görünməz yer edib komandirin gəlməsini gözlədi. Meşənin sakitliyini hərdən bayquşların uğultulu səsi pozurdu. Artıq uzaqda alov görünürdü, bir yanğınsöndürən maşının sirena siqnallı işığının silueti isə ətrafa yayılmışdı. Rubenin evi idi yanan... Kəndin şərq hissəsindəki kilsə tərəfdən isə partlayış səsləri eşidilirdi. Ətrafda vahiməli səs-küy var idi...

Komandir sakitcə təpəni adlayıb palıd ağacını səmt götürərək çaya yaxınlaşdı. O, gündüzdən düşmən keşikçilərinin duyuq düşərsə, ovçarka itlərlə onları izləməyinin qarşısını almaq məqsədilə sellofan kisədə neçə gündür gizlətdiyi ət parçalarını da özü ilə götürmüşdü...

Hava dumanlı idi. Komandir səmti müəyyənləşdirə bilmişdi. Asta addımlarla əyilib çayın kənarındakı palıd ağacının ən yaxın məsafəsinədək gəldi. Əvvəldən razılaşdıqları kimi canavar səsi çıxarmalı və Rəşaddan cavab gəlməli idi. Kolun dibində çömbələrək canavar səsi

çıxartdı. Palıdın altından oxşar cavab gəldi. Rəşad idi. Komandir sakitcə Rəşada yaxınlaşdı: – İgidim, sağ-salamatsan? – deyib onu qucaqladı.

Rəşad: – Bəli, komandir, tapşırıqlarınızı yerinə yetirdim, – deyərək təngnəfəs halda sözünə davam etdi: – Ermənilərin iki hərbi təyinatlı məntəqələrinin də koordinatlarını qeyd etmişəm, ikisi də hazırdır – deyərək raport verdi.

– Yaxşı, Ruben necə oldu?

– Necə olmalı idi, bir tərəfdən Allah cəzasını verib, o biri tərəfdən mən qisasımı aldım. Anamın boğazından qopardığı qızıl boyunbağını divardan asmışdı, onu da götürdüm. Özünü isə atamın və anamın, dayımın, bir də bibimin yandırıldığı məzar yerində gəbərtdim, evini yandırıb çıxdım… Daha sonra atamın maşınından qənimət kimi götürdüyü xəncərlə onun evinə gələn iki ermənini də gəbərdib çıxdım.

Komandir sevinclə: – Sən artıq əsas sınaqdan çıxdın, – deyib ardınca zarafatla əlavə etdi: – Amma heç səndən gözləməzdim…

Rəşad çaşqınlıq içində:

– Nə olub, komandirim?!

Komandir:

– Bundan artıq nə olacaq? Bəs Sara hanı? Onu niyə özünlə gətirmədin? Axı söz vermişdin ki… – deyərək güldü.

Rəşad toxdadı, özünə gəldi: – Komandir, öldürdün məni, dedim, görəsən, nə günah işlətmişəm… Onu özümlə gətirmədim, səbəbi var…

– Aha, nədir? Desənə…

– Bəs Rubeni kim ağlayacaq?!

– O da ağıllı fikirdir… Bir də, mən ona söz verdim ki, buralara tezliklə, özü də birdəfəlik qayıdacağam… Bax bunu da sizin rəhbərliyiniz və Allahın izni ilə tezliklə edərik…

Komandir:

– Allahın izni ilə bu da tezliklə olar…

Sonra Rəşada: – Hə, yaxşı, dincəldik, əsas odur ki, həyəcanımız keçdi, səndən nigaran idim. Hazırlaşaq, bu dəfə çaya düşəcəyik, çayın içi ilə getməliyik… Üşüməyəcəksən?

– Yox komandir, artıq nə üşümək?! Ölsəm belə, qorxum yoxdur, anamın vəsiyyətini yerinə yetirdim, atamın, qardaşımın, dayımın və bibimin qisasını aldım…

Komandir sıldırımlı ərazidən çaya düşdü. Belə dumanlı havada çay vadisi ilə hərəkət çox təhlükəli idi. Çünki sürüşüb yıxılar, yaxud ayaq altından sürüşüb kənara qaçan daş parçalarının şıqqıltısı gecənin sakitliyində düşmən keşikçilərini duyuq sala bilərdi. Rəşad: – Komandir, suyun səsi bizi bir az xilas edir, düşmən adi səsləri eşidə bilməz yəqin ki... – deyərək ayağını mümkün qədər ehtiyatla atmaqda davam etdi. Bu sahədə kəşfiyyatçı kimi böyük təcrübəsi olan komandir onu sakitləşdirdi:

– Səni başa düşürəm, amma dumanlı hava səsi bir az da boğur, narahat olma, əlimdəki ipdən yapış ki, səni soyuq suda itirməyim, – deyərək gülümsədi.

Onlar xeyli irəlilədilər. Ermənilərin əsas dayaq məntəqələri yarğanın sağ sahil istiqamətində idi. Komandir səmti təxmin edib bir az gözləməyi qərarlaşdırdı: – İndi ermənilərin növbə dəyişmə vaxtıdır, biz xeyli gözləməliyik ki, növbə dəyişmə məqamında qarşıda çayın təxminən 300 metrliyindəki dəmir tordan çəkilmiş maneənin altından keçə bilək. Rəşad komandirin bütün tapşırıq və göstərişlərinə ciddiliyi ilə əməl edirdi. Onlar çayın vadisindəki böyürtkən kolluğunun altında özlərinə quru yer tapıb oturmuşdular. Hərdən ermənilərin səs-küyü eşidilirdi. Komandir: – Amma hənirtidən duyuram ki, itləri yoxdur, görünür, dumanlı havaya görədir. İtlər dumanlı havada səmti yaxşı tuta bilmir, iy bilmələri zəif olur. Xüsusən də küləkli havalarda… Havayı yerdən bu iylənmiş əti neçə gündür özümüzlə daşıyırıq, – deyərək Rəşadı özünə tərəf sıxdı: – Yaxın gəl, bir-birinə sıxılanda adam üşümür... “Tem bole”, sənin canında hələ də Saranın istiliyi qalıb, – deyərək Rəşadın kürəyinə vurdu, – Zarafat edirəm, birdən inciyərsən…

– Yox, komandir, üşümürəm, sadəcə, ayaqlarım qurşağa qədər suyun içindədir deyə, soyuqdur.

– Bəli, hər nədəndir, dəxli yoxdur, soyuq səni sınağa çəkməkdədir... Biz də tezliklə düşməni imtahana çəkib dərsini verərik.

– Görəsən, o gün nə vaxt olacaq, komandir?

– Az qalıb... Düşünürəm ki, lap az...

Sonra duruxdu:

– Bu gün ayın neçəsidir? Xatırlamırsan?

– Həftənin şənbə gecəsidir, sentyabrın məncə, 20-si... Bəlkə telefonu açım təqvimə baxım...

– Qətiyyən. Ermənilər dalğanı tutar, işimizi düyünə salarıq. Bir az da döz, onlar təxminən bu vədələrdə növbə dəyişiminə başlayır...

Birdən onların gizləndiyi yerdə-çayın üst hissəsində nəsə ayaq səsi eşidildi. Lap yaxında idi. Komandir barmağı ilə "Sakit ol!" işarəsi ilə Rəşadın biləyindən yapışdı. Sonra səsboğucusu olan avtomatı atəş vəziyyətinə gətirdi. Qulağına: "İnsan ayaq səsinə oxşayır... Diqqətli ol, qəflətən həyəcandan udqunarsan, çeçəyib asqırma tutar səni ha..." – deyərək səsin hardan gəldiyini diqqətlə dinşəməyə başladı. Həmin səs az sonra uzaqlaşdı. Komandir erməni əsgərlərinin çay boyu əraziyə nəzarət etdiyini zənn etdi. – Artıq getmək vaxtıdır... Bəndə çatanda diqqətli ol, yarğan ola bilər, onlar tordan qumbara asırlar, son dərəcə diqqətli olmalıyıq... Bir də başını suya batırıb setkanın altından keçəndə nəfəsini 20-30 saniyəlik içəri al, buraxma.
– Oldu, komandir... Hərbi xidmət illərində öyrəndiyim bəzi şeylər var. Cibimdə su keçirməyən brezent baş geyimi var, əsas odur ki, başımı və qulağımı buzlu suya salanda islatmayım. Başıma keçirəcəyəm, islanmağa qoymur…

Onlar çayın iti axan hissəsindən keçərək kol-kosdan tuta-tuta son keçid məntəqəsinə yaxınlaşdılar. Artıq yükləri atmaq lazım idi. Komandir kürəyindəki çantanı çıxar-

dıb çayın kənar hissəsinə yerləşdirdi. Bir-bir çantadakı qumbaraları çıxardıb başqa bir çantaya yerləşdirəndə Rəşad onun qulağına pıçıltı ilə: – Komandir, heyifdir, bu qumbaraları özümüzə yük edib daşımayaq, -deyərək ciddi halda cavab gözlədi. Komandir təəccüblə:

– Bəs neyləyək?

– Komandir, o qumbaraları bu yaramazların məntəqəsində istifadə etməsək, bizi qınayarlar… Baxın, hənirtini eşidirsiz, içib leş olublar, sərxoşdurlar. Özü də cəmi iki adamın səsi gəlir. Onların danışığını eşidirəm. Biri deyir ki, sən get yat, iki saatdan sonra Qurgeni oyadarsan, o, gəlsin, mən gedim…Deməli, burda biri tək qalacaq...

Komandir pıçıltı ilə:

– Hə, nə demək istəyirsən?

– Komandir, sən get, mən bunun işini bitirim... – İşləri korlama... Mən bir igid kəşfiyyatçını bir ölümtük erməninin leşinə qurban verə bilmərəm, düş qabağıma görüm, – zarafatla onu irəli itələdi.

Rəşad dirəniş göstərdi: – Komandir, Allaha and olsun, narahat olma, Mübariz İbrahimovdan artıq deyiləm ki! Siz səddi keçin, qabaqda məni gözləyin, mən özümü erməni kimi qələmə verib onun işini bitirəcəm. O boyda cəllad Rubeni aldadan mən indi bir erməni dığası ilə "dil tapa" bilməyəcəm?! Deyəcəm ki, dumanda azıb gəlmişəm... Mənim qiyafəmə baxın, ermənidən nəyim fərqlidir?! Komandir o ki var güldü: – Güzgüdə özünü görsən, həqiqətən də özündən qorxacaqsan… İkisi də güldü. Amma komandir təkidlə getməyi əmr etdi. Rəşad yenə

də komandiri yumşaltmaq üçün zarafatından qalmadı:
– Komandir, əmriniz hərbi hissədə qüvvədədir. Burda çayın soyuq, buz kimi yerində heç əmrin yeridir?! Məni bağışlayın, mən o ermənini düzün ortasında öldürmədən getsəm, şəhidlərimizin ruhu məni bağışlamaz... Komandir vəziyyətin tündləşdiyini və Rəşadın direnişini görüb: – Həmişə əsgərlərimə dediyim bir şərtimi bir də təkrarlayıram: sənə güllə dəysə, məndən incimə... Bu sənin sonuncu xidmətin və kəşfiyyat işin olacaq.
– Baş üstə komandir, – Rəşad müntəzir oldu...

Rəşad çantadan iki qumbara götürüb sonra komandiri əks tərəfə yola saldı. Özü isə uyğun yer tapıb böyürtkən kollarından tutaraq yuxarı dırmaşdı. Erməni postuna yaxınlaşıb öskürdü, bu vaxt ayaq üstə güclə dayanan



erməni əsgər: – Dayan, güllələyəcəm! – deyib əlindəki avtomatı Rəşada tərəf tuşladı. Rəşad özünü itirmədən ermənicə: – SArtsax, keçmiş komandirini tanımadın, silahın lüləsini aşağı elə...

Sonra ona yaxınlaşdı. Məntəqədə kimlərinsə olub-olmadığını soruşdu:

– İçəridə kimsə var?

Dili topuq vuran sərxoş əsgər: – Yox, təkəm...

– Bəs o biriləri hardadır?

– Odur, aşağıdakı bunkerdə yatıblar...

– Sən niyə yatmırsan bəs?

– Bir azdan Qurgen gələcək, mən gedəcəm yatmağa... Çağırıram, hələ də gəlmək istəmir…

Rəşad onunla birlikdə məntəqə postunda köhnə taxta-tuxtadan qoyulmuş masayabənzər stolun ətrafında əyləşdi, – Araqdan mənə də süz, qalıb butulkanın içində? – deyərək əsgəri dartıb yanında əyləşdirdi. – Ratsiya işləyir? – deyə soruşdu.

– Hə... Lazımdır danışın...

– Yox, mən səni yatırdım, sonra danışaram. Sizin parol nədir?

– “Pomidor”...

Rəşad güldü... Öz-özünə: “Hə, indi səni pomidora döndərərəm...” – deyib üstündəki xəncəri sərxoş əsgərin boğazına sapladı. Sərxoş əsgər bir himə bəndimiş kimi yerə sərildi. Rəşad onun ratsiya aparatını və silahını götürüb cəld bunkerə tərəf getdi. Erməni əsgərlərdən biri bunkerin yanında oturulu halda qusurdu. Rəşad ona yaxınlaşdı: – Deyəsən, çox vurmusan... Mənsiz içəndə

elə olar də... Gəl bura kömək edim, – deyərək ona tərəf əyilən əsgər bir anda Rəşadın əlindəki xəncərə tuş gəldi. Rəşad vaxt itirmədən bunkerə daxil oldu. Torpaqdan qazılıb düzəldilmiş bunkerdə daha iki sərxoş əsgərin xorultusu eşidilirdi: – Hə, ikinizin də xorultunuz indi kəsilər, – deyib, ikisinin də boğazını bir andaca üzdü. Ətrafa fışqıran qan Rəşadın üst-başını buladı. O, dərhal bunkeri tərk edib bayıra çıxdı. Məntəqədən Azərbaycan əsgərlərinin səngəri istiqamətinə tuşlanmış pulemyotu gördü. Əl atıb onu çiyninə aldı, sonra cəld çaya tərəf endi. Artıq çayın minalanmış keçidini rahatca adlaya bilərdi. Çayın həmin təhlükəli hissəsini keçəndə kimsə qolundan yapışdı. O, cəld əlini tapançasına atıb arxaya çevriləndə komandiri gördü: – Ay səni, komandir, ürəyim düşdü... Cəld olun, ermənilər duyuq düşməmiş aralanaq... Çayın o biri tərəfinə keçə bilsək, meşəlikdə gözdən itmək asan olacaq, hər şey arxada qalacaq...

Onlar çayın mümkün qədər dayaz yerlərindən keçməyə çalışırdılar. Rəşad əlindəki əski parçasını içərisinə su dolmaması üçün pulemyotun lüləsinə tıxadı. Komandir: – De görüm, əmrimi necə yerinə yetirdin? – deyərək Rəşaddan raport gözlədi. Rəşad tövşüyə-tövşüyə: – Komandir, çox pis, qumbaraları xərcləyə bilmədim, amma dörd erməni əsgərini birdəfəlik dərin yuxuya verdim. Vəssalam! Bu da onların ratsiyası... Birdən ratsiyadan səs gəldi. “Pomidor, Pomidor! Vəziyyət necədir?”. Rəşad erməni dilində, sərxoş əsgər danışığı ilə: – Pomidor raport verir: hər şey əladır, dincəlin, – deyib cavab gözlədi.
– Bir hadisə olmayıb postda?

Rəşad:

– Bir az oldu, yoldaş komandir! Xırda-para işdir…

– Eşitməmişik… Bəs niyə səsi çıxmayıb?

– Narahat olmayın, səsi sabah çıxacaq...

(Səhəri gün Ermənistan Müdafiə Nazirliyi feyk məlumat yayacaqdı ki, Azərbaycan atəşkəsi pozub, diversiya qrupu erməni postuna basqın edib, atışma olub, 4 erməni hərbçi öldürülüb, qarşı tərəf cavab atəşi ilə geri oturdulub və s).

**20 sentyabr 2020-ci il.**

…Artıq hava qaralmış, göy üzünü qəribə bir rəng ağuşuna almışdı. “Qartal” kəşfiyyat taborunun bütün heyətini sıra cərgəsinə düzüb növbətçinin raportunu dinləyəndən dərhal sonra əsgər və çavuşlara yatmaq əmri verdi. Ardınca Rəşadı yanına çağırdı:

– Rəşad, məlumat verim ki, səninlə xidməti müqavilə müddəti bitir. Qərarın necədir? Çünki mən sabah yuxarı rəhbərliyə məruzə etməliyəm, – deyərək asta addımlarla əsgər yeməkxanasına tərəf addımladı. Rəşad fikirləşmədən: – Komandir, əğər mənim fəaliyyətim sizi qane edirsə, deyə bilərsiniz ki, o, qalıb düşməndən qisas alma əməliyyatlarında iştirak etmək istəyir. Amma mən Rusiya vətəndaşı olduğumdan sənədlərimi qanuna uyğun şəkildə nizama salmalıyam.

– Siz qisasınızı aldınız…

Rəşad qisasını aldığı üçün olduqca qürurlu idi. O, komandirin qarşısında dayanaraq: – Yox, komandir, mən anamın və atamın, qohumlarımın qisasını aldım, amma bizim ermənilər tərəfindən işğəncələrlə öldürülən

nə qədər ata və analarımız, qohumlarımız, ahıllarımız, körpələrimiz var… Onların qisası durur… Amma ilk növbədə sənədlərimi dəyişməliyəm…

– Yəni, necə?

– Birdən hansısa bir hərbi əməliyyatlara başladıq, istəmirəm ki, mən Rusiya vətəndaşı kimi bu əməliyyatlarda iştirak edim… Məsələn, Rusiya vətəndaşlığından çıxıb Azərbaycan vətəndaşlığını qəbul etmək istəyirəm…

“Qartal” xeyli fikrə getdi, sonra Rəşadın çiynindən yapışdı:

– Bilirsən, Rəşad, mən səni düzgün anlayıram… Sən faciələr yaşamısan. Bu milli düşmənlərimizin bizə yaşatdıqlarının nəticəsidir. Hələ də ailə qurmamısan. Bu gənc yaşında ağrılarla yaşayırsan. Amma sənin gələcəyin hələ qabaqdadır. Yenə də düşün, qərarını sabah qəti surətdə deyərsən.

– Komandir, qərarım qətidir. Sadəcə, bizim, nəhayət, qisas əməliyyatımız, görəsən, nə vaxt olacaq? Axı səbrimiz tükənib. Tovuzda biri general olmaqla görün neçə yüksək rütbəli zabitimiz düşmən təxribatı və içimizdəki satqınların sayəsində qətlə yetirildi. Biz niyə dözməliyik?

Komandir onun nəyə işarə etdiyini göydə tutdu: – Satqınlar həmişə olub. Ad çəkmək istəmirəm, amma kaş, bizim az qala otuz ilə yaxındır etibar edib bütün əməliyyat sirrimizi verdiyimiz bəzi nankorlardan canımızı qurtarmaq üçün nələrə getdiyimizi biləydin… 2016-cı ilin 4 günlük aprel döyüşlərində ən yüksək peşəkarlıqla

hazırlanmış bir əməliyyat həmin satqınlığın sayəsində itkilərimizlə başa çatdı, amma biz də düşmənə və havadarlarına sözümüzü dedik. Moskvanın ikiüzlü siyasət yürüdənləri gücümüzü bildilər, səbrimizin son həddə olduğunu gördülər. Ermənistanın minnətçiliyinə Rusiyanın baş naziri, müdafiə naziri… haralaradək zəng vurub gəlib yalvardılar, problemin tezliklə həllinə söz verdilər. Amma biz kəşfiyyatçılarıq, bilirdik ki, bunlar növbəti yalanlardır, hiylələrdir.

– Rusiya 30 il idi bu problemi görmürdü? Görmürdülər ki, Ermənistanın həyasızlığı hansı həddədir? Bəli, qalibləri mühakimə etmirlər! Onlar de-fakto qalib idilər, özü də həmin Rusiyanın əli ilə. Erməni kimdir ki, Azərbaycana qalib gələydi… Amma…

Komandir söhbətin istiqamətini dəyişmək üçün araya başqa mövzu qatmağa məcbur oldu:

– Bircə sən darıxma. Sən valideynlərinin qisasını aldın, tezliklə Azərbaycanın da qisasını alarsan…

Rəşadın gözü güldü:

– Komandir, o günə qurban demişəm və müharibə başlayanda mən sizə böyük bir qonaqlıq verəcəyəm…

Komandir gülümsədi:

– Afərin! Camaat müharibə başlayanda kədərlənər, sən isə qonaqlıq verib sevinməyi üstün tutursan, – deyərək Rəşadın bu mövzuya necə həssas yanaşdığının fərqində olduğunu hiss etdi: – Amma bir az da səbr et, lap az qalıb…

– Komandir, deməli, nəsə bilirsiniz. Təki elə olsun. Mən də nəsə hiss edirəm…

– Nəyi hiss edirsən və yaxud nədən hiss edirsən? – deyib Rəşadın qolundan tutdu: – Bəlkə sən nəsə bilirsən?

Rəşad komandirlə üz-üzə dayandı:

– Mən kəşfiyyatçıyam və kəşfiyyatçılar sirri özlərindən başqa kimsəyə vermirlər, cənab polkovnik-leytenant…

Komandiri gülmək tutdu: – Sən bunları mənə deyirsən, eləmi? – deyərək onun üz-gözündəki sevinci daxilən özü də yaşamalı oldu: – Təki elə sənin də dediyin olsun…

– Mən deyən nədir, komandir?

– Sənin demək istədiklərin elə deməli olduqlarındır… Deməli olduqlarını isə mən artıq duyuram. Döyüşə birgə gedəcəyik, vacib olan budur…

Onlar xudahafizləşib ayrılmaq istəyəndə Rəşad komandirə təkrarən yaxınlaşdı:

– Komandir, birdən mənimlə müqaviləni pozsalar, mən könüllü gedəcəyəm döyüşə…

– Hansı döyüşə? – deyərək komandir sual dolu nəzərlərlə ona baxdı…

– Bayaq demək istədiyiniz, amma hələ ki, deyə bilmədiyiniz o döyüşə…

## 23 SENTYABR 2020-Cİ İL

…“Qartal”ın rəhbərlik etdiyi taborun kəşfiyyat bölüyü daha bir mühüm tapşırığı yerinə yetirmişdi. Əməliyyata şəxsən özü rəhbərlik etdiyinə görə həm fiziki, həm də psixoloji cəhətdən çox yorulmuşdu. Çünki düşmənin arxasına keçərkən bu dəfə həyata keçirilmiş kəşfiyyat əməliyyatları olduqca məsuliyyətli və çətin idi. Həm də atışma zamanı düşmənin ciddi müqavimətinə rast gəlmişdilər.

Komandir olduqca yorğun olduğundan heç çəkmələrini belə çıxartmadan yatağına uzandı, adyalı başına çəkib dərin yuxuya getdi…

Əməliyyatda iştirak etmiş xüsusi təyinatlılar da yuyunub istirahət edirdilər… Komandir bu aralarda rayona uşaqları ilə görüşməyə getmişdi, zəng edildi, yenidən geri qayıtdı.

Komandir telefonunu söndürdüyündən ona zəng çatmırdı. Bu dəfə isə qərargahdan təcili zəng var idi. Növbətçiyə məlumat verilmişdi.

Növbətçi qapını açıb asta səslə: – Komandir, komandir… Qərargahdan sizi axtarırlar… Çox vacibdir, – deyərək az qala barmağının ucunda addımlayıb

ona yaxınlaşdı. Komandir yorğunluqdan daş kimi düşüb yatmışdı. Növbətçinin onu oyatmağa əli gəlmədi. Amma başqa çarəsi də yox idi. Əlini uzadıb adyalı qaldırdı, həlim səslə: – Komandir, sizi təcili olaraq telefona çağırırlar…

Komandir gözlərini ovuşdurub dərindən nəfəs aldı:

– Eşidirəm, nə olub, əsgər?

– Komandir, qərargahdandır, dedilər cənab general sizinlə təcili danışmaq istəyir, nəsə mühüm tapşırıq var…

Komandir cəld yerindən qalxdı: – General Mais Bərxudarova zəng etdim, dedi ki, Toğrula bildirmişəm, gəlir yanına.

Sonra xüsusi xidmət rəisi Toğrul Şamxalova zəng vurdu:

– Salam, əziz qardaşım, necəsən?.. Qərargahdan təcili məni axtarırlar, bilmirsən, nə məsələdir?



Xüsusi xidmət rəisi: – Hə, doğrudur… Mənə də zəng vurmuşdular, general Mais Bərxudarova zəng vurdum, danışdım, məsələ aydındır… Özüm gəlirəm, telefon söhbəti deyil… Sənin telefonun bağlı olduğundan mənə dedilər, gözlə, çatıb söhbət edəcəm, – deyib telefonu qapatdı…

Çox keçmədi ki, xüsusi xidmət rəisi hərbi hissəyə çatdı, dərhal da "Qartal"ın kabinetinə gəldi… Təklikdə xeyli söhbət etdilər. Məlum oldu ki, düşmən hərbi qüvvələrində yerdəyişmə edərək təxribat törətməyə hazırlaşır:

– Sən taborundakı Xüsusi Təyinatlı bölüklə birlikdə bu əməliyyata rəhbərlik elə, amma özün iştirak etmə… Biz nəinki düşmənin bu təxribatının qarşısını almalıyıq, həm də onların hamısını ya əsir götürməliyik, ya da məhv etməliyik…

– Düşmən hansı istiqamətdən irəliləmək istəyir?

– Bilirsən ki, biz əks-hücuma hazırlaşırıq, bu tezliklə olacaq. 2-ci korpusun kəşfiyyat rəisi  Telman Hüseynovla görüşüb müzakirə etmişik…

Birdən qapının arxasında nəsə səs eşidildi. Komandir ona susmaq işarəsi edərək astaca qapıya yaxınlaşdı, qapını sərt formada açıb dəhlizə baxdı. Heç kim yox idi, amma bu naməlum səs onu narahat etdi, məxfi söhbətin eşidilməməsinə məsul olduğundan həssas yanaşmağa məcbur idi.

– Hə, nə oldu, kimsə var? – deyə xüsusi xidmət rəisi soruşdu.

– Yox, amma qulağıma səs gəldi…

Rəis:

– Afərin sənə, axı yerin də qulağı var… Ordan da sənə mesaj göndərilib ki, hazırda düşmən planladığı təxribatını necə həyata keçirməyi müzakirə edir, – deyərək mobil telefonunun açıq olub-olmadığını bir də yoxladı: – Sənin də səs duyma aparatın olduqca dəqiq işləyir… Bir də, bax gör telefonu söndürmüsənmi?

Komandir güldü:

– Söndürmüşəm… Elə olmasa, biz uduzarıq, gərək indiki vaxtda həm dördgöz olaq, həm də qulağımız səsdə olmalıdır…

Xüsusi xidmət rəisi söhbətini davam etdirdi:

– Rəhbərlik qarşıya iki əsas istiqamətdə tapşırıq qoyub. Bilirsən ki, biz əsasən Horadiz, Cəbrayıl, digər dəstə isə Alxanlı, Füzuli istiqamətində əks-hücuma keçəcəyik… Korpus komandanlığı əsas istiqamətin rəhbəri olacaq, qərargah rəisi isə digər istiqamətin rəhbəridir... Əsas istiqamət də üç yerə bölünəcək. Birinci istiqamət kənd Horadizin yaxınlığındakı "Yastı təpə"-nin ələ keçirilməsidir… Sonra ikinci istiqamət – yaşayış məntəqəsinin yaxınlığında digər bir təpənin ələ keçirilməsi olacaq. Düşmənin orda da bir dayaq məntəqəsi var… Üçüncü istiqamət isə Lələtəpədir, bu dağın qarşı tərəfində bir təpə var, ötən dəfə ora qrup göndərmişdiniz, həmin yerin ələ keçirilməsi çox vacibdir…

"Qartal" ayağa qalxdı, bir qədər var-gəl edib: – Bildim… Onda belə çıxır ki, biz Cəbrayıl yolunu kəsərək təpələri ələ keçiririk, bundan sonra ən vacib bir iş qalır, – deyərək yenidən ani fikrə getdi, qərarlaşdırdığı təklifi-

ni bildirdi: – Rəis, biz düşmənin arxasında elə bir maneə və tələ qurmalıyıq ki, Horadiz tərəfdən hücum olanda həm geri qaçanları bu tələyə salıb məhv edə bilək, həm də onlara əks tərəfdən gələn köməyin qarşısını alaq. Bu, olduqca çətin məsələdir, amma məsuliyyətli və vacibdir! Dronlar bu məsələdə dəqiq işləməlidir…

Rəis əlavə etdi:

– Bütün bu işlərin uğurla nəticələnməsi üçün dəqiq kəşfiyyat məlumatlarımız toplanıb…

– Düşmən özünü necə aparır?

– Ermənilər son günlər nəsə hiss edibmiş kimi fəaliyyətində çox intensivdirlər, həm də narahatdırlar. Bizə tərəf çəkilib, ən güclü hərbi vasitələrini ön xəttə toplamaqdadırlar. Bizim əldə etdiyimiz radio-kəşfiyyat məlumatlarının təhlili göstərir ki, düşmən hansısa bir əməliyyatın yerinə yetirilməsinə ciddi hazırlıq görür…

"Qartal" rəisin qarşısında dayandı:

– Mən səni diqqətlə dinlədim və söylədiklərini təhlil etdim… Unutmayaq ki, ötən ay da onların davranışı barədə əldə etdiyimiz radio-kəşfiyyat məlumatlarının əsasında əməliyyat hazırladıq, hətta bir qrupumuz düşmənin arxasına keçmişdi… Amma biz sayıqlığı itirmədik, mənim intuitsiyam diqtə edirdi ki, düşmən aldadıcı məlumatları radio-lokasiya ilə ötürərək bizi çaşdırıb tələyə salmaq istəyir. Ona görə də özüm kəşfiyyatçılarımla birlikdə getməli oldum… Yadındadırmı, siz də, korpus komandiri də mənim bu əməliyyatda iştirakımı istəmirdiniz. Amma mən hiss etmişdim ki, düşmən bizi aldadacaq, ona görə də ratsiyada guya dağın sol hissəsi

ilə kəşfiyyata gələcəklərini demişdilər, amma sonradan biz müəyyənləşdirdik ki, bu yalan məlumatdır, düşmənin diversiya qrupu dağın sol hissəsindəki yarğandan bizim dayaq məntəqəmizə hücum etmək istəyir…

– Əlbəttə, yadımdadır, məhz sənin peşəkarlığın sayəsində düşmənin nəinki bu informasiya təxribatının qarşısı alındı, həm də özü öz tələsinə düşdü… Komandanlıq hələ də sənin o əmliyyatı necə planlaşdırdığını nümunə çəkir, komandirlərə deyir ki, bax o cürə ayıq-sayıq olun, bilin ki, düşmən sizi hər an aldada bilər…

– Həmin əməliyyatda şəxsən özüm saymışdım, 7 təxribatçı məhv edilmişdi…

– Mənim üçün çox maraqlı idi ki, sənin dəstən Azərbaycan bayrağını ermənilərin kazarmasına necə sanca bilmişdi?

"Qartal" qəhqəhə çəkib güldü:

– Rəis, təsəvvür edirsən, mən özüm kazarma tipli dayaq məntəqəsinin komandirini "medsestra"ları ilə birlikdə yataqda tutdum, özünü güllələdim, amma qadına tibb işçisi olduğu üçün dəymədim… Hətta həmin komandir cəld həmin tibb bacısının xalatını geyinib başına şal bağlamışdı ki, guya qadındır, onu güllələməyim… Amma dedim ki, Klara, hə, adı Klara idi, dedim, sizin bu yaramaz it sürüsü bizim mülki əhaliyə qəfil hücum edərək qadınları, qocaları, körpə uşaqları belə, Xocalıda, Malıbəylidə… güllələmiş, başlarını kəsib itə atmışdılar… Nə isə…

Rəis saatına baxdı, gecə saat 5 idi, əlini "Qartal"ın çiyninə qoydu:

– Bura bax, bizim kəşfiyyatçılar mənə Cəbrayılda olarkən ermənilərin əkib-becərdikləri bağdan meyvə gətiriblər, maşındadır, gəl, səni ona qonaq edim, sən də həmin əməliyyatı mənə ətraflı danış. Olar? Bir azdan səhər açılır, yatmaqdan nə qazanacaqsan?

İkisi də güldü. “Qartal” kabinetindəki elektrik samovarını işə saldı. Rəis isə maşındakı meyvə səbətini gətirib süfrəyə qoydu: – Yuyulub, tərtəmizdir, – deyə, “Qartal”ın sonuncu əməliyyatı necə həyata keçirdiyini dinləməyə hazırlaşdı…

“Qartal” çantasındakı qeyd kitabçasını çıxarıb ona göstərdi:

– Bax, bu xəritə həmin əməliyyatın eskizidir. Biz düşmənin ratsiyada guya xısın-xısın danışdığı növbəti kəşfiyyat əməliyyatını dinlədik. Uşaqlar dedi ki, komandir, təcili olaraq rəhbərliyə məruzə olunmalıdır və düşmənin bu təxribatının qarşısı alınmalıdır. Dedim, gözləyin, məruzə edəcəyəm… Ürəyimə dammışdı ki, bu aldadıcı məlumatlardır. Çox keçmədi ki, radio-əməliyyatçımız dedi ki, komandir, onlar ikinci dəfədir bu məlumatı təkrarlayırlar… Dedim, tələsmə, onlar üçüncü dəfə də təkrarlayacaq… Sadəcə, istiqamətləri yalan deyirlər. Onların söylədiyi istiqamətdə özləri də bilirdi ki, bizim güclü istehkamlarımız var və snayperlərimiz gecə-gündüz oranı nəzarətdə saxlayır. Onlar bu biri istiqamətdən gələcəklər…

Rəis “Qartal”ın dəqiqliklə cızılan əməliyyata rəhbərlik etdiyini necə həvəslə dinləyirdisə, çayını içməyi belə unutmuşdu.

“Qartal” söhbətinə davam etdi:

– Sən çayını soyutma, əlin meyvədə, qulağın məndə olsun, – deyərək onun çayını təzələdi, söhbətini davam etdirdi: – Səhərin alatoranlığında 8 nəfər Xüsusi Təyinatlını götürüb irəli getdim…

Rəis onun sözünü kəsdi:

– Neçə dəfədir səndən soruşmaq istəyirəm, niyə bütün belə əməliyyatlara 8 nəfərlə gedirsən? Məsələn, 7 və ya 9, 10 deyil, məhz 8 nəfər?..

“Qartal” gülümsədi:

– Rəis, döyüşçülərim də əvvəllər mənə eyni sualı verirdilər… Bilirsən, 8 Azərbaycanın dövlət gerbindəki ulduzumuzun güşəsidir. Mənim hərbçilərimə, xüsusən də belə çətin əməliyyatlara gedənlərə həmişə dediyim odur ki, kimə güllə dəysə, məndən inciməsin! Və hər dəfə də başa salırdım ki, baxın, biz 8 nəfərik, ulduzumuzun da 8 guşəsi var… Deyirəm, əsgərlər, indi təsəvvür edin ki, ulduzun guşələrindən biri yoxa çıxdı, nə alınar? Təbii ki, nə alınsa da, ulduzumuz alınmaz… İndi özünüz cavab verin: birimizə güllə dəysə, sıramız həmin o natamam formanı alacaq, ya yox?! Deyirlər ki, bəli, olmaz! Və hər dəfə bunu anladanda deyirəm ki, birinizə güllə dəysə, bilin ki, o bərq vuran ulduzumuza toxunulub! Ona görə də əsgərlərim maksimum dərəcədə çalışır və ehtiyatlı olurlar ki, onlara güllə dəyməsin, sıra pozulmasın…

Rəis gülümsədi:

– Komandir, yaxşı taktikadır… Amma araya söz qatma, mən o əməliyyatı necə həyata keçirdiyini daha

ətraflı bilmək istəyirəm… Məsələn, o komandiri "med-sestra"nın yatağında necə tutdun?

"Qartal" güldü: – Rəis, hamısını bircə-bircə danışacam… Mən, əslində, sənin sualını cavablandırdım… İndi ətraflı danışaram. Xüsusən də sərxoş erməni komandirin Klaranın arxasında necə gizlənib onun xalatını geyindiyini də danışacam… Gülməkdən öləcəksən …

İkisi də güldü. "Qartal" danışmağa başladı:

– Adəti üzrə biz kəşfiyyat əməliyyatlarına gedəndə əsgərlərimizin tələyə salıb tutduğu şələquyruq tülkünü də götürürük… Bilirsiz ki, bu tərəflərdə payız özünü göstərən günlərdən dumanlı-çiskinli hava hakim olur. Biz də havanın qaralmasını gözlədik, səhər alaqaranlıqda əməliyyata başladıq. Duman Lələtəpənin dörd tərəfini əhatəyə almışdı. Əslində, bu bizim üçün çox əlverişli idi. Çünki artıq kəşfiyyat məlumatlarımız bizim düşməni harda qarşılaya biləcəyimizi dəqiq müəyyənləşdirmişdi… Yəqin ki, yadındadır, 2016-cı il aprelin 1-də düşmən ön xətdə döyüş növbətçiliyi aparan bölmələrimizə qəfil hücum etmişdi, amma ciddi müqavimətlə qarşılaşmışdı. Düşmənin müqaviməti isə mənasız idi, döyüşçülərimizin gücü qarşısında aciz qalmışdılar… Bölmələrimiz əks-hücuma keçdi, düşmən Lələtəpə yüksəkliyinə və ətraf ərazilərə nəzarəti itirdi… Bizə isə bu çox vacib idi…

– Lələtəpənin tarixi haqqında maraqlı bilgiyə rast gəlmişəm…

"Qartal" əlavə etdi:

– Bu ərazilərdə xidmət keçən hərbçilər bilir ki, ümumiyyətlə, Lələtəpə olduqca strateji bir yerdir. Bu dağ yüksəkliyi Cəbrayılın Cocuq Mərcanlı kəndi var, ordan 3 kilometr şimal-qərbdə yerləşir, təxminən 300 metr hündürlüyü var, amma strateji əhəmiyyətinin əvəzi yoxdur. İndi bu təpənin zirvəsindən olduqca böyük ərazilərimizə nəzarət imkanımız var…

Sonra o, gözucu rəisə baxdı:

– Hə, harda qaldım, söhbətin vacib məqamını unutdum…

Rəis "Qartal"ın onu diqqətlə dinlədiyinə əmin olması üçün qəsdən bu sualı verdiyini bilirdi deyə yaddaşını incələdi: – Hə, duman dağın dörd bir tərəfini tutmuşdu, – deyərək onu son dərəcə diqqətlə dinlədiyini sübut etmiş oldu.

"Qartal" gülümsəyərək: – Hə, bildim ki, məni diqqətlə dinləyirsən, – deyib söhbətini davam etdirdi:

– Beyləqandan olan bir əsgərim vardı, çox ütük uşaq idi, civə kimi bir yerdə dayanmazdı, kəşfiyyata gedəndə bu koldan o kolun arxasına elə tullanırdı ki, görmək olmurdu… Ona tapşırdım ki, nəfəsliyinə toxunmadan tülkünün çənəsini "skoç"lasın, ayaqlarını da əski ilə bağlasın ki, qançır olmasın, ipi açanda qaçacaq, axsamasın… İrtməyinə də yarım kiloluq quyruğu elə bağlamışdılar ki, ağzı çatmasın, qapıb yeməsin… İki dəfədir kəşfiyyata gedəndə görürəm ki, düşmən yerimizi müəyyənləşdirə bilməyəndə irəliyə ovçarkalarını buraxır. Amma ovçarkalar irtməyinə quyruq bağlanmış tülkünün iyini çox yaxşı alır və biz də tülkünü açıb buraxırıq. Düşmə-

nin həm iti, həm də özü tülkü qaçan istiqamətə gedir, biz də düşməni aldadıb hədəfdən yayına bilirik…

– Komandir, birdən tülkü də axmaqladı, əks tərəfə, yəni siz tərəfə qaçdı, onda necə?

“Qartal” güldü: – Tülkü erməni deyil ki, o cürə ağılsız iş tuta, əliyalın halda onu açıb buraxanın üstünə qayıdarmı? Əksinə, bizdən canını qurtarmaq üçün qabağa qaçıb gedəcək, – deyərək söhbətini davam etdirdi:

– Deməli, kol-kos olan ərazidə bir yarğan vardı. Oranı da keçdik, düşmənin aldadıcı manevrini bildiyimizdən iki nəfəri qaraltı etmək üçün əks tərəfə yola saldım, hansı ki, düşmən ratsiyada guya ordan gələcəyini deyirdi… Özümüz isə onların gələcəyi əsas istiqamətdə pusqu qurub gözlədik. Hər bir xüsusi təyinatlı özünə etibarlı müdafiə mövqeyi tutub atıcı silahlarla silahlanmışdı. Hələki səssizlik var idi. Ratsiya ilə əks tərəfdəki uşaqlara dedim ki, orada süni manevr cəhdi edib qaraltı yaradın ki, guya biz erməniləri orda gözləyirik, düşmən də bu feyk məlumatlara aldanıb pusqu qurduğumuz yerə sərbəst və arxayın yaxınlaşsın… Əmrimə uyğun olaraq hamı öz mövqeyində inamlı idi. Çox keçmədi ki, qarşı tərəfdən xışıltı eşidildi. Ora yaxın yerdə mövqe tutmuş xüsusi təyinatlımız mənə əl barmaqları ilə işarə etdi ki, yüz metrlikdədirlər. Mən də ona ratsiya ilə tapşırdım ki, gözləsin, biz eyni vaxtda atəş açmalıyıq və düşmənin sağ qalmasına imkan verməməliyik… Bir neçə dəqiqədən sonra həmin xüsusi təyinatlım yenə də barmağı ilə işarə verdi ki, diversantlar artıq 20 metrlikdədir. Tapşırığıma uyğun olaraq hamı atəşə hazır mövqe tutmuşdu.

Mənim əmrimi gözləyirdilər. Birdən kisədəki tülkünün tərpəniş və vurnuxmasını hiss etdim. Bu o demək idi ki, tülkü ermənilərin yanında ovçarka iti olduğunu hiss edib… Əsgərimə tapşırdım ki, tülkünü açıb buraxsın. O, kisədəki tülkünü çıxartdı və dərhal da burnundakı "skoçu" və ayağındakı ipi açaraq onu irəli buraxdı. Tülkü ildırım sürəti ilə erməni diversantlar olan istiqamtdə irəli şığıdı. Bu vaxt ermənilərin pusqu qurduğu yerdən bir ovçarkanın dartınaraq onun ardınca qaçdığını gördük. Erməni diversantlar öz yerlərini aşkar etmişdilər. Bizə də bu lazım idi. Ermənilərin "ölüm bölqəsinə" girməsini gözləyirdik. Həmin istiqaməti intensiv atəşə tutduq. Onların gizləndiyi yer elə idi ki, geri qaçmaq istəyəndə qazıntıdan sonra yaranmış dərin arxı tullanmalı idilər. Sürünüb arxı keçmək istəyən diversant xüsusi təyinatlımızın sərrast atəşi ilə yerindəcə məhv edilirdi… Onlar



ciddi müqavimət göstərirdilər, xüsusi təyinatlımızdan biri yüngülcə yara almışdı... Az sonra düşmənin hənirtisi tamamilə kəsildi. Xüsusi təyinatlımız 7 diversantın öldürüldüyü barədə məlumat verdi. Mən yarğana tərəf sürünüb diversantların öldürüldüyü yerə çatdım. Ətrafı diqqətlə müşahidə etdim. Meyitlərin sayı 6 idi. Dərhal əmr verdim ki, 7-cinin izinə düşülsün, mümkün qədər diri tutaq. Əsgərlərimdən ikisi düşmənin ortada qalmış silah-sursatını toplayıb özümüzə yük etməmək üçün ağaclığın arasına toplayıb gizlətməklə məşğul oldular, 4 nəfərimiz isə meşənin içərisinə doğru irəlilədik. Ermənilərin ratsiya aparatı düşüb yerdə qalmışdı, mən onu götürüb erməni dilini bilən əsgərimə verdim ki, çağrı gəlsə, mənə xəbər versin. Aradan çıxmış diversantın izi ilə xeyli getdik, amma o gözdən itmişdi və hardasa ətrafımızda gizlənmişdi. Xüsusi təyinatlılarım bütün ərazini gəzdilər, amma diversantdan heç bir iz tapılmadı. Tapşırdım ki, son dərəcə ehtiyatlı olsunlar, diversant təslim olmamaq üçün atəş aça bilər.

– Onların yerdə qalmış silahları hansı növdən idi? Saymışdınızmı?

"Qartal" sualın mənasını anladı:

– Bəli, rəis, düz fikirləşdin... Mən tapşırdım ki, silahları sayın. Bəli, 6 silah var idi, hamısı da snayperli, səsboğuculu avtomatlar (VSS) idi. Deməli, yoxa çıxan diversant avtomat və ya snayper tipli silahla aradan çıxıb. Ona görə də son dərəcə ehtiyatlı olmalı idik. Birdən ratsiya aparatına siqnal gəldi. Xüsusi təyinatlılarımızın biri erməni dilini səlist bilirdi. Hər dəfə

belə əməliyyatlarda özümlə götürürdüm. O, ratsiyaya cavab verdi. Məlum oldu ki, öldürülən diversant qrupunun məxfi adı "Torpaq"dır. Xüsusi təyinatlımız qarşı tərəfə hər şeyin qaydasında olduğunu və guya bir neçə saata tapşırığın icra olunacağını dedi. Bu zaman güclü yağış başladı. Ratsiyaya yenidən çağrı gəldi, tapşırdılar ki, yağış kəsməyənədək əməliyyata başlamasınlar. Bizim uşaqlar da Allaha yalvarırdılar ki, bütün günü güclü yağış yağsın… Belə yağışlı hava əməliyyat planımızı yerinə yetirməyimiz üçün çox əlverişli idi. Çünki belə güclü yağış yağanda düşmən müşahidə məntəqələrindən ətrafı nəzarətdə saxlamağa lüzum görmür. Hesab edirlər ki, belə leysan yağanda qarşı tərəf palçığın içi ilə sürünüb harasa irəliləməz… Amma bizi narahat edən aradan çıxmış diversantın yaxalanmaması idi. Çünki o, öz adamlarına məlumat verib kömək istəyə bilərdi. Birdən cığırın kənarında telefon səsi eşidildi. Əsgərlərə aşağı əyilmək əmri verdim. Telefon ən azı bir dəqiqə zəng çaldı. Dedim, diversantın telefonudur, qaçanda salıb, üstündə olsaydı, onun səsini ala bilərdi. Mən dərhal zəng gələn yerə gedib telefonu axtardım… Doğru fikirləşmişdim, telefon palçığa düşüb qalmışdı. Hiss olunurdu ki, diversant qaçarkən sürüşüb yıxılıb, telefonu da onda salıb. Çünki telefondan az aralıda kola ilişib qalmış cib dəstmalı da var idi. Mən əsgərlərimə əmr etdim ki, dərhal "Yastı təpə" istiqamətinə gedən yolu tutsunlar, diversant ordan da qaça bilər.

– Əsgərlərindən kimsə yaralanmadı, eləmi? Yəni, ulduzun səkkiz güşəsi yerində idi…

– Bir nəfər yüngül yaralandı, bu isə təbii sayıla bilərdi, dərhal ona ilk tibbi yardım göstərildi… Bizim əsas məqsədimiz sağ qalmış diversantı yaxalamaq idi. Kol-koslu ərazidə dayanıb ətrafı diqqətlə izlədik, ətrafda səs eşidilmirdi. Deməli, o bizim onu izlədiyimizi bilir və hardasa gizlənmişdi. Amma uzağa da gedə bilməzdi. Birdən dağdağan ağacına qonmuş bir qarğa qarıldayıb havaya qalxdı. Adətən, qarğalar ətrafda şikar görəndə diqqətli olurlar. Dağdağan ağacının meyvələri isə şirintəhər olduğundan qarğalar həvəslə yeyirlər. Mən əsgərlərimə işarə etdim ki, ağacın ətrafını diqqətlə yoxlasınlar. Bu vaxt başqa bir qarğanın dağdağan ağacına tərəf uçduğunu gördüm. Qarğa ağaca çatanda iki dəfə dövrə vurub qanadlarını şaqqıltdatdı və ürküb oradan uzaqlaşdı. Bildim ki, ağacın yanında diversantı görüb. Əsgərimin biri sürünərək yavaşca dağdağanın həndəvərinə yaxınlaşdı. Mənə işarə etdi ki, yerə yıxılmış bir ağac kötüyünün arxasında qaraltı görür. İşarə etdim ki, silahının durbini ilə həmin qaraltını hədəfə alsın. O başı ilə təsdiqlədi ki, diversant burdadır. Digər əsgərimi yanıma çağırdım, ona dedim ki, ehtiyatla ora yaxınlaşıb erməni dilində ona təslim olmağı desin…

– Son dərəcə ehtiyatlı olmaq lazım imiş…

– Əsgərlərim artıq belə vəziyyətlərə öyrəşmişdilər. Bu zaman mən tərəfə güllə atıldı. İnanırsan, saniyə söhbəti var idi, güllə əlimdəki ermənilərə məxsus ratsiya aparatını deşib ağacı parçaladı. Güllənin səsindən başa düşdüm ki, onda snayper silahıdır. Diversantın olduğu yerə yaxınlaşmış əsgərimə əmr etdim ki, atəş açsın. O

ataş açan kimi, sol tərəfdə mövqe tutmuş digər xüsusi təyinatlım snayper silahı ilə onu yaraladı. Amma diversant təslim olmaq fikrində deyildi. Ardıcıl olaraq bir neçə dəfə bizə tərəf atəş açdı. Düşündüm ki, ona vaxt itirməyə dəyməz, qumbaranı çıxardıb onun mövqe tutduğu əraziyə atdıq… Diversant məhv edilmişdi…

– Əslində, düzgün qərar idi. Çünki onu yaralı-yaralı hara qədər sürüyüb aparmaq olardı?! Sizə əlavə yük olacaqdı…

– Bəli, mən də bunu nəzərə alıb elə bir qərar qəbul etməli oldum… Bizi isə qarşıda daha vacib əməliyyat gözləyirdi. Biz ermənilərin həmin diversiya qrupunu məhv etməklə, həm də onların gələcəkdə həyata keçirilməsi planlaşdırılan hərbi əməliyyatlarımıza ciddi mane olacaq daha bir dayaq məntəqəsini məhv edib ərazinin koordinatlarını müəyyənləşdirməli idik… Mövqe tutduğumuz ərazidə isə elə də hündür və sıx meşəlik yox idi. Çünki ermənilər işğal dövründə bu ərazilərin iri ağaclarını kəsib ya yandırmış, ya da İrandan gəlmiş maşınlara yükləyib satmışdılar. Ona görə də ağaclar burada əksər yerdə kol-kos səviyyəsində idi. Biz bu kol-kos ərazidən keçərək ehtiyatla kənd Horadiz yaxınlığındakı "Yastı təpə" deyilən yerdəki düşmənin kazarmasını tutmalı, oradakı canlı qüvvəni zərərsizləşdirməli idik. Öyrənmişdik ki, düşmənin canlı qüvvəsi burda sayca çoxluq təşkil edir, iriçaplı silahları da xeylidir "Yastı təpə"dən isə vizual müşahidə imkanımız olduğu üçün dəqiq bilirdik ki, düşmənin əsas səngəri, atəş mövqeyi haradadır. Maneələrinədək hər şeyi dəqiqləşdirmişdik.

Çünki sənin də tanıdığın o kəşfiyyatçı uşaqlar iki gün dayanmadan vəziyyəti öyrənmişdilər. Amma diversantların öldürülməsi vəziyyəti bir az mürəkkəbləşdirmişdi. Çünki biz tələsməli idik. Burada isə düşmən buldozerlə yeraltı dərin xəndəklər qazıb özünə kazarma tipli bunker düzəltmişdi. Kəşfiyyat məlumatına görə, orada düşmənin ən azı 15-20 hərbçisi qalırdı. Oranın yeri elə idi ki, düşmən növbə dəyişəndə belə, buldozerlə qazılmış dərin kanalların içi ilə, hətta avtomobillə, tankla hərəkət edirdi…

– Hə, lap Ağdərə-Ağdam istiqamətində olan "Ohanyan" səddi kimi…

– Tamamilə doğrudur… O yaramaz Ohanyanın özü də, səddi də darmadağın ediləcək, az qalıb…

– Buna qətiyyən şübhəm yoxdur…

– Elədir, rəis… Onu da deyim ki, bu ara yağış bir az səngidi… Biz kolluq ərazidən həmin bunkerə yaxınlaşdıq. Ermənilərin burada tövləsi də var idi, hiss olunurdu ki, mal-qoyun saxlatdırırlar. Tövlənin yanında isə bir neçə yerdə 6-7 ot tayası var idi… Əsgərlərimə tapşırdım ki, tək-tək bölünüb sakitcə ot tayalarına yaxınlaşıb içinə girsinlər, pusqu qurub əmrimi gözləsinlər. Daşdan tikilmiş tövlənin qarşı tərəfində isə tibb məntəqəsi yerləşirdi, böyründə üstü çadırlı iki yük maşını və bir tank vardı. Xüsusi təyinatlımın hər birində rabitə qurğusu vardı. Daim mənim əmrimi gözləyirdilər. Mən xüsusi təyinatlımın birini götürüb tövlənin arxa hissəsindən içərisinə daxil oldum. İçəridə 10-15 qaramal və yüzə yaxın qoyun vardı. Bu zaman kazarmaya bir "NİVA"

maşını gəldi, içərisindən rütbəcə mayor olan bir zabit düşdü, bir də ağ xalatlı cavan bir xanım, sonra bildim ki, tibb bacısıdır. Yanımda olan xüsusi təyinatlım erməni dilini bilirdi, o maşından düşən erməninin danışığını mənə tərcümə etdi. Məlum oldu ki, mayor bu müşahidə və kazarma məntəqəsinin komandiridir. Erməni əsgərlərdən biri onu qarşıladı… Mayor əsgərə tapşırdı ki, çobanı çağırsın, bir yaxşı erkək kəsib günortaya hazırlasın… Alaçıqda isə kabab bişirilsin, özü də tez… Yanımdakı xüsusi təyinatlı zarafatla mənə dedi ki, komandir, bəlkə günortaya kimi əməliyyatımızı dayandıraq… Dedim, niyə? Dedi ki, ermənilər əmliyin kababını bişirsinlər, birdəfəlik nahar edib sonra gedək… Zarafatla dedim, əsgər, özünü yığışdır, sən burdan sağ-salamat çıx, hərbi hissədə sənə kabab hazırlatdıraram… Dedim, indi bu boyda əməliyyatı kababa qurban verək?! İkimizdə güldük. Elə bu vaxt mülki geyimdə olan bir nəfər, sonradan məlum oldu ki, o, çoban deyiləndir, tövləyə tərəf gəldi… Biz tövlənin içində mövqe tutduq. Əsgərimə tapşırdım ki, qoyunlar ürkək olur, iri malların yanında pusqu quraraq və çalış inəyin döşünü sığalla, elə biləcək ki, sağmağa hazırlaşırsan, onda dayanacaq, hərəkət etməyəcək… Amma qoyunlar ora-bura qaçıb şübhə yaradacaq… Həmin adam kəsmək istədiyi erkəyi tutmaq üçün qoyunları hürküdüb çobanlara məxsus tərzdə dodağında qəribə səs çıxararaq yanına səslədi… İnanın, onun səsindən və qoyunları səsləmə tonundan hiss etdim ki, bizimkilərdəndir…

– Yəni, azərbaycanlıdır?

– Bəli… Dedim, yəqin nə vaxtsa əsir düşənlərdəndir. Gümanımda yanılmadım. Çoban qoyunları hürküdüb iri bir erkəyə yaxınlaşıb onu tutmaq istəyəndə iti buynuzu olan heyvan onun yaxalığını buynuzu ilə cırıb özünü divara çırpdı. Bu vaxt çoban sürüşüb yerə yıxıldı və Azərbaycan dilində qoyunu söyməyə başladı… Əsgərim məni dürtmələdi ki, komandir, bu çoban azərbaycanlıdır? Dedim, səbrli ol… Yenə də düşündüm ki, Qarabağda müvəqqəti məskunlaşdırılmış bu ermənilər də Azərbaycan dilini bilirlər, amma əgər bu ermənidirsə, Azərbaycan dilində niyə danışdı? Nəsə şübhəli səbəblər var… Üst-başının tozunu çırpan əsəbi çoban ikinci cəhddə erkəyi tutdu, bu vaxt "Bismillah…" deyəndə isə çobanın hərəkətlərini diqqət kəsilmiş əsgərimin həyəcanına son qoyaraq dedim ki, o, yüz faiz azərbaycanlıdır...

Mən yavaşca tövlənin taxta qapısına yaxınlaşdım. O, məni görmürdü. Çoban erkəyin arxa cüt ayağından yapışdı, qabaq ayaqları üstündə onu irəliyə itələyəndə qapını açmaq istədi, amma bacarmadı… İstədi çöldən bir nəfəri çağırsın, mən arxadan ona yavaşca Azərbaycan dilində "Qardaş, mən açacam…", – dedim. O, yerindəcə donub qalmışdı… Şokda idi… Həyəcandan titrəyirdi… Sakitləşdirdim ki, narahat olma, biz Azərbaycan kəşfiyyatçılarıyıq… O, ani olaraq erkəyi buraxıb məni qucaqladı, "Sizə qurban olum, bu dığaları məhv edin…", – deyib məni bir də qucaqladı… Məlum oldu ki, 1993-cü ildə ermənilər Cəbrayılı işğal edəndə yüzə yaxın qoyun-quzusunu döyüş bölgəsindən çıxararkən

dumana düşən Həsən adlı çoban, o vaxt yolu azıb və ermənilər onu girov götürüb. İki dəfə qaçmağa cəhd edib, amma vaxtilə onların kəndində bənna işləmiş Aşot adlı bir erməni onu tanıyıb və güllələnməkdən xilas edib. O vaxtdan bu ərazilərdə azad olunacağı günü gözləyir… Dedim, Həsən, bir azdan buranı dağıdacağıq, atışma vaxtı sən tövləyə girərsən, malların yanında gizlən, güllə sənə dəyməsin… Gedəndə səni də özümüzlə aparacağam, narahat olma… O, gözlərinə hələ də inanmırdı, bilmirdi nə etsin. Həsən mənə ermənilərin dislokasiyası və minalanmış istiqamətlər barədə ətraflı məlumat verdi... Məlum oldu ki, bu gün həmin mayorun ad günüdür, qeyd etməyə hazırlaşırlar. Həsən mənə həm də bura hansı istiqamətdən kömək gələ biləcək yolları izah etdi. Ona dedim ki, bizə bir dəst erməni hərbçilərinə məxsus paltar gətir, qalanından narahat olma… Bir də ondan xahiş etdim ki, bəhanə ilə tibb məntəqəsinə gedib mayorda avtomat silah olub-olmadığını dəqiqləşdirsin. Həsən mənə dedi ki, mayorun üstündə heç tapança da yoxdur, kazarmada ayrıca kabineti var, silahı ordadır. Ad günü olduğundan silahını seyfinə qoyub… Bu yaxşı məlumat idi. Köməkləşib həmin erkəyi tutduq, mən qapını açdım. Həsən erkəyi kəsmək üçün bunkerə tərəf apardı… Az sonra o, bir kisə gətirdi, xüsusi təyinatlım kisədə olan erməni hərbçilərinə məxsus paltarı dəyişdi. O, özü ilə götürdüyü Azərbaycan bayrağını yağışdan qorumaq üçün plaşının altında gizlədərək kazarmaya yaxınlaşdı. Əks tərəfdən keçərək giriş qapısının üstündə asılmış qondarma "Artsax" bayrağını çıxardıb onun yerinə

Azərbaycan bayrağını sancdı… Ratsiyada əsgərlərimə məlumat verdim ki, hazır olsunlar, ermənilərin hamısı kazarmaya yığışıb. Bir erməni isə müşahidə məntəqəsi kimi diqqəti cəlb edən bir təpəciyə çıxıb qarşıya sarı, yəni bizim mövqelərə tərəf baxıb dərhal da geri qayıtdı. Xüsusi təyinatlılarım isə ot tayacıqlarının içində mövqe tutub kazarmanı nişangahda saxlayırdı, mən isə xüsusi təyinatlı əsgərimlə tibb məntəqəsini nəzarətə götürmüşdüm… Bu zaman kazarmanın qapısı açıldı, bir erməni əlində iri ləyən tutmuşdu, hiss olunurdu ki, içərisində kəsilmiş erkəyin dərisi və içalatıdır… Onu yaxınlıqdakı xəndəyə atmaq istədi. Yağış yenidən güclənmişdi. Erməni əsgər sürüşüb palçığa düşdü, öz-özünə nəsə deyinib yenidən ləyəni götürdü və erkəyin yerə tökülmüş içalatını və dərisini götürüb xəndəyə tulladı. Sonra alüminiumdan olan ləyənin arxasını barmaqları ilə dınqıldadaraq erməni dilində mahnı oxuya-oxuya kazarmaya tərəf gələndə birdən gözü Azərbaycan bayrağına sataşdı. O, çaşıb qalmışdı, gözlərinə inanmırdı… Elə bil onu ildırım vurmuşdu. Mən xüsusi təyinatlılarıma əmr verdim ki, atəşə hazır vəziyyətdə əmrimi gözləsinlər… Bu zaman həmin erməni kazarmaya tərəf qaçaraq qışqırmağa başladı… Mən səsboğucu snayper silahımla onu başından vurdum. Bu vaxt kazarmada olan ermənilər özlərini itirmiş halda nə baş verdiyini öyrənmək üçün bayıra çıxdılar. Artıq onlar dörd bir tərəfdən hədəfdə idilər. Xüsusi təyinatlılarımız kazarmanı tam mühasirəyə almışdılar… Atəş açıldı, bir neçə erməni kazarmanın palçıqlı girişində yerə sərildi. Mən tibb məntəqəsinə tərəf get-

dim, qapı arxadan bağlanmışdı, amma içəridə nəsə qarmaqarışıq səslər gəlirdi. Plastik qapı bir təpiyimə laylanıb yerə düşdü. İçəri girəndə yarıçılpaq halda divanda oturmuş tibb bacısını baş verənlərdən donmuş vəziyyətdə gördüm. O, özündə deyildi. Deyəsən, sərxoş idi… Pasiyentlər üçün ağ pərdədən olan qəbul kabinetində isə kiminsə kölgəsi görünürdü. Bildim ki, həmin mayordur. Fikirləşdim ki, onun ehtiyat silahı, yaxud əlində bıçağı ola bilər, tapançamı atışa hazır vəziyyətə gətirərək ağ pərdəni araladım. Nə görsəm yaxşıdır…

Rəis təəccüblə:

– Nə gördün? Özünü asmışdı?

– Yox, ona imkan verərdimmi özünü assın… Mayor həmin sərxoş tibb bacısının yubkasını geymişdi, başına da şal bağlamışdı ki, guya qadın olduğunu zənn edib güllələməyək… O, “Klara, kənara çəkil” deyəndə



boğazından yapışaraq şalı başından dartıb yerə saldım. Çaşıb qalmışdı, onu sürüyüb çölə çıxartdım. Klara adlı tibb bacısına isə başa saldım ki, sakitləşsin, qorxmasın, onunla işimiz yoxdur, amma bilsin ki, bizdə erməni olsalar da, qadınlara və ahıllara, uşaqlara, mülki əhaliyə əl qaldırılmır… Bizim haqq-hesabımız bu diversant yaramaz işğalçılarladır… Artıq çöldə atışma gedirdi, lakin ermənilərin güllə atmaq imkanı məhdud idi. Çünki kazarmanın qapısı nişangaha götürülmüşdü, yalnız iki havalıq pəncərəsi var idi, ora da içəridən hündür olduğundan güllə atmaqda çətinlik yaradırdı. Bu vaxt Həsən mənə yaxınlaşdı, "Komandir, mənə də silah verin, noolar…", – deyib əlindəki gərməşov ağacını mayorun boynunun kökünə ilişdirdi… Mayor ağzıüstə palçıqlı arxın içinə düşdü… Onu güllələməkdən başqa çarə yox idi. Mən içəridə sağ qalanlara təslim olmağı əmr etdim, gördüm ki, danışıqlar vaxtımızı alacaq, dedim, içəriyə boğucu qaz şaşkalarını atın. Ermənilər tülkü yuvasına tüstü dolanda qaçıb çıxdığı kimi, bir-bir kazarmadan çölə çıxdıqca əsgərlərim onları güllələdi… Tələsmək lazım idi. Biz ermənilərin yük maşınlarını və tankını, silah-sursatlarını bir yerə toplayıb məhv etdik… Əsgərlərimdən biri: – Komandir, bəs bu tibb bacısını neyləyək? – deyə soruşdu. Dedim, onunla işiniz olmasın, qoy, o, erməni diversantlarının rəhbərlərinə başa salsın ki, biz onları yatdıqları yataqda belə necə yaxalayıb məhv edə bilirik…

Rəis başını yırğaladı:

– Həqiqətən də bu əməliyyatı çox dəqiqliklə planlaşdırmışdınız, uğurlu alınmışdı… Yaxşı, bəs Həsən necə oldu?

– Həsən bizimlə gəlməyə hazırlaşdı, dedi, komandir, bəs bu qədər mal-qoyunu neyləyək? Dedim, bizə hələki sən lazımsan, qoyun-quzu tezliklə bizim olacaq… Amma o, yolda minaya düşüb həlak oldu, çox təəssüflənirəm… Biz onun meyitini dağdağan ağacının altında dəfn etdik… Rəis, bu hələ harasıdır, qoy, müharibə başlasın, görəcəksən mənim xüsusi təyinatlılarım onların başına nə oyun açır…



## 26 SENTYABR 2020-Cİ İL

…Gecə saatlarında bütün hərbi hissələrin rəhbərliyinə əmr gəldi: “Azərbaycan ordusu düşmən üzərinə hucuma keçir!”. Əmr son dəqiqələrədək sirr saxlanıldı. Səhər tezdən “Qartal”ın kazarmanın divarlarını lərzəyə gətirən gur səsi bütün şəxsi heyəti ayağa qaldırdı: “İgid əsgərlərim və zabitlərim! Biz düşmənin 30 illik işğalına son qoymaq üçün döyüşə atılırıq! Bu bizim qalib döyüşümüz olmalıdır! Hər birinizdən xahişim budur: kimə güllə dəysə, məndən inciməsin! Amalınız bu olmalıdır: Vətən-anamızdır, bacımızdır, ailəmizdir! Biz anamızı, bacımızı, ailəmizi… qorumağa gedirik!”.

Farağat komandası almış bütün heyət bir səslə: “Düşmənə ölüm! Biz qalib gələcəyik! Yaşasın Azərbaycan!”, – dedi.

Əsgər və zabitlərin qürurlu duruşu və ötkəm səsi komandiri daxilən sevindirdi. O, sıra baxışını iti addımları ilə seyr edərək bir-bir döyüşçülərin gözlərinə baxdı. O gözlərdə düşmənə ölüm saçan qətiyyəti görürdü…

Artıq Müdafiə Nazirliyi rəhbərliyinin, ardınca isə korpus komandiri, general-leytenant Mais Bərxudarovun əmri bütün ərazi hərbi hissələrin döyüş tapşırığını yerinə yetirməli komandirlərinə çatdırılmışdı. Lakin hələ də hücum əmrinin hansı istiqamətdə olacağını şəxsi heyət dəqiq bilmirdi.

Rəşad döyüş paltarını və silah-sursatını götürərək Horadiz istiqamətində başlanacaq döyüş əmrini gözləyirdi. Komandir bölüyün birini Rəşada həvalə etmişdi, təlimatlarını vermişdi. Onun komandiri olduğu 218 saylı Əlahiddə kəşfiyyat taborunun qarşısında isə daha mühüm, həm də çətin bir tapşırıq dururdu: düşmənin əsas müşahidə məntəqəsi "Yastı təpə" adlı yüksəklikdə yerləşirdi və düşmən buradan bölmələrimizin hərəkətini dəqiqliklə izləyə bilirdi. Həmin yüksəklik demək olar ki, bu istiqamətdə hücuma keçərək Füzuli və Cəbrayıl, eləcə də Hadrut və Zəngilan, Qubadlı, oradan da Laçın və Şuşa istiqamətinə doğru irəliləyəcək döyüşçülərimizin qarşısında ilkin əsas maneə idi.

Komandir Rəşadın rəhbərlik etdiyi kəşfiyyat bölüyünə əmr verdi: – Rəşad, mən artıq bu döyüşdə komandir deyiləm, sizinlə birgə döyüşçüyəm, – deyib onu bağrına basdı: – Bütün bölüyü sənə, səni də Allaha əmanət edirəm. Düşmənə kimliyini göstərməli, kim olduğumuzu döyüş meydanında bizdən qələbə gözləyən Azərbaycana sübut etməliyik!

Rəşad başını qürurla yuxarı qaldırdı, komandirin yaşarmış gözlərinə baxdı: – O gözlər bilirəm ki, uzun illər idi yol çəkirdi, bu günü gözləyirdi! Gözlərindən öpürəm, komandir! Bizdən narahat olma!

Komandir Rəşadın qolundan tutdu: – Yox, biz bir yerdə döyüşə giririk… "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün!" – prinsipi ilə irəli gedirik, – deyərək döyüşçülərə uğurlar arzuladı.

Bu söhbəti eşidən kəşfiyyat taborunun N saylı bölüyünün əsgərləri bir-birinə baxdı. Yəni, hərbi hissənin komandiri adətən əmr verər, əsgərləri təlimatlandırar, əməliyyatı idarə edərdi. Amma bu dəfə komandir özü onlarla birgə döyüşə girirdi…

Komandir əsgərlərin təəccübünü duydu: – Əsgərlərim, sizi də mənim kimi ananız, bəzilərinizi ailəniz, övladlarınız gözləyir! Bu ölüm-dirim savaşı yox, öldürmək və diri qalmaq savaşıdır! Mən sizdən artıq deyiləm, biz bir yerdə döyüşəcəyik. Baxım görüm kim daha çox erməni gəbərdəcək…

Əsgərlər ürəkdən güldülər, ürəkləndilər. Aralarında ilk dəfə idi belə ağır döyüşə atılanları da var idi. Komandir onları xeyli cəsarətləndirmişdi.

…Tabor daha ağır bir tapşırığı yerinə yetirmək üçün irəli atılmışdı. Sıralarında ən təcrübəli döyüşçülər və kəşfiyyatçılar var idi. Komandir: – Biz o gördüyünüz təpəni alıb iki istiqamətdə hücuma keçəcəyik. Sol tərəfdəki döyüşçülər düşmənin məntəqəsini hədəfə alıb atəş

altında saxlayacaq, sağ istiqamətdən isə döyüşçülərlə birlikdə biz düşmənin arxasına keçəcəyik. Çünki onlara arxa tərəfdən kömək gələcək, biz o köməyin qarşısını almalıyıq. Öldürülməliləri öldürür, qalanlarını isə əsir götürürük. Bir daha deyirəm: kimə güllə dəysə, məndən inciməsin! – deyərək özü ilk olaraq irəli atıldı…

Səngərdən çıxan döyüşçülər komandirin tapşırığına uyğun olaraq əməliyyat şəraitini qiymətləndirərək hücuma keçdilər. Ratsiya ilə komandirin ötürdüyü məlumatlara uyğun olaraq dronların idarə edilməsi mərkəzi düşmənin əsas hədəflərini darmadağın edirdi.

Döyüş getdikcə şiddətlənirdi. "Qartal"ın dəstəsi düşmənin arxasına keçməli idi. Düşmən isə "Yastı təpə"dəki mövqeyini əldən vermək istəmirdi. Döyüşçülərimiz üçün əsl təhlükə mənbəyinə, düşmən üçün isə atəş, hücum, istehkam və müşahidə qalasına çevrilmiş bu təpə ələ keçirilməli idi. "Qartal" korpus komandanlığının tapşırığına uyğun olaraq vəziyyətin ciddiliyini qiymətləndirmək, "Yastı təpə" yüksəkliyini ələ keçirmək üçün tapşırıq almışdı. O, bu istiqamətdə tabeliyində olan kəşfiyyat qrupları ilə birgə əlaqə qurur, müxtəlif istiqamətlərdən şəxsən özü döyüşə atılmağa qərar vermişdi. O, dəfələrlə komandanlıqdan ön xəttdə – ən yaxın atəş məsafəsində olmamaq tapşırığı alsa da, döyüşçülərinin yanında olmağı üstün tutmuşdu. Hətta Korpus komandanının son dəfə bu cür tapşırıq və göstərişinə isə o, "Cənab general, mən bu günü görün neçə illər idi göz-

ləmişəm. Xahiş edirəm, mənim bu arzumun yerinə yetirilməsinə bu dəfə mane olmayın! Mən şəhid olmağa belə hazıram! Amma Şuşanın alınmasına şahid olmaq ən böyük arzumdur!”, – deyərək icazə istəmişdi: – Siz, sadəcə, mənə halallıq verin, şəhid olsam, mənim əvəzimdən Şuşaya salam çatdırın…

Komandanlıq onun bu dirənişinin qarşısında nəsə əlavə əmr və göstəriş verməyə ehtiyac duymamışdı.

Düşmənə qarşı qisas hissi “Qartal”a elə bir güc və mübarizə ruhu vermişdi ki, o, düşmən snayperinin atdığı güllələri belə, zarafatla, qeyri-ciddi qəbul edirdi. Onun məhz öndə olması isə döyüşçülərin qoluna qüvvət, ruhuna igidlik və qəhrəmanlıq gətirmişdi. Döyüşçülər güllələrdən belə qorxmurdular. Komandir bəzən zarafatla: “Cəsurdan güllə də qorxur, amma siz çalışın ehtiyatı əldən verməyin, güllə bəzən sözə baxmır…”, – deyərək döyüşçüləri təmkinli və ehtiyatlı olmağa səsləyirdi.

“Qartal” sol istiqamətdə döyüşə atılmış bölüyə ratsiya ilə əmr verdi: “Düşmənin atəş məntəqəsini göz açmağa qoymayın! Biz onlara lap yaxınlaşmışıq. Koordinatları deyirik, dron kamikadzelər onların atəş nöqtələrini susduracaq…”.

Düşmən isə bir neçə istiqamətdən “Yastı təpə”nin ətəklərini atəş altında saxlayırdı. Lakin düşmənin arxasına keçərək təpənin qərb istiqamətindən gələn köməyin

qarşısını almaq olduqca vacib idi. Ortada isə bir yarğan var idi. Yarğan düşmən snayperinin atəş nişangahı idi. "Qartal" həmin yarğanı keçmək üçün döyüşçülərinə əmr verdi: – Kisədəki tülkünü və iti gətirin…

Düşmənin pulemyot atəşi səngimirdi. Komandir döyüşçülərin mövqe tutduğu ərazidə qaya parçalarına dəyən güllələrin istiqamətini dəyişərək ciddi təhlükə mənbəyi olduğunu da onlara izah edirdi. Daş parçalarından qopan qəlpələr artıq döyüşçülərdən ikisinin sifətini yaralamışdı. Sonra özü azacıq geriyə çəkilərək əvvəlcə içərisinə saman doldurulmuş kisənin üstünə reaktiv yanacağı səpdi. Bu yanacaq, əsasən kosmik raketlərdə istifadə olunur və alışanda ətrafı inanılmaz sıx ağ tüstü bürüyür… Həmin kisəyə ipi bağlayıb itin boğazındakı dəri kəmərə keçirdilər. Ardınca tülkünü kisədən çıxartdılar. Komandir daha bir göstəriş verdi:

– Mən əmr verəndə itin gözlərini açırsınız və tülkünü ona göstərirsiniz… Ehtiyatlı olun ki, əlinizdən çıxmasın, it tülkünün iyini duyan kimi ona cumacaq… Mən əmr verəndə isə kisəni alışdırırsınız və tülkünü buraxırsınız qabağa… İt yüngül saman kisəsini dartaraq tülkünün ardıca götürüləcək. Siz üç nəfər isə tülkünün yanı ilə mümkün qədər tez qaçaraq tüstünün yayıldığı istiqamətdə yarğanı keçib tullanırsınız qarşı tərəfə və dərhal da yerə uzanaraq yumalanıb yerinizi dəyişirsiniz. Hazır olun! Getdik!…

İt tülkünü görən kimi dişlərini qıcayıb ona tərəf cümdu. Reaktiv yanacağın tüstüsü ətrafı bürüdü və əmrə uyğun olaraq it tülkünü qovmağa başladı. Bu za-

man düşmən snayperi iki dəfə atəş açdı, amma hədəf tüstü-dumanda görünməz olduğundan yan keçdi. Döyüşçülərdən üçü yarğanı keçib "Yastı təpə"nin başında qərar tutmuş düşmənin atəş nöqtəsinə yaxın məsafədə qərar tutdu. Sonra sürünərək həmin məntəqədə pusqu qurmuş düşmən snayper və pulemyotçularının olduğu yerə bir neçə qumbara atdılar. Ermənilərə köməyə gəlmiş ona yaxın düşmən əsgərinin isə artıq təslim olmaqdan başqa yolu qalmamışdı. "Qartal"ın qurduğu əməliyyat planı ilə olduqca mühüm bir tapşırıq uğurla yerinə yetirildi. Düşmənin bir neçə döyüşçüsü öldürülmüş, beşi əsir götürülmüşdü. Onların arasında yaralılar da var idi. Çəlimsiz, üz-gözünü bit-birə basmış əsirlər arxa cəbhəyə göndərildi.

"Qartal"ın dəstəsi "Yastı təpə" yüksəkliyini ələ keçirdikdən sonra növbəti tapşırıqların icrası üçün Horadiz istiqamətində hücumu davam etdirdi. 2020-ci il oktyabrın 1-də qarşıya qoyulmuş tapşırığın məsuliyyətini və ciddiliyini başa düşən "Qartal" və tabeliyindəki dəmir iradəli şəxsi heyət düşmənə ard-arda ağır zərbələr vurmaqda idi. Ordumuzun digər istiqamətlərdə də irəliləməsi yönündə o, mütləq nəticələr əldə etməyə davam edirdi. Müharibənin qızğın və həlledici məqamlarında isə o, komandanlıqla daim rabitə əlaqəsində olub kəşfiyyat məlumatlarını verərək düşmənin atəş nöqtələrinin dronların sərras atışları ilə məhv edilməsinə nail olur-

du. Komandir bəzən də "Cənab general, hər şey yaxşıdır, uğurla irəliləyirik...", – deyir, bəzən də "Komandir, əlavə qüvvə göndərin, qarşıdakı vacib strateji əlverişli təpələri qısa müddətdə azad edəcəyik…", – deyərək itki vermədən düşmənə ağır zərbələr endirirdi. Düşmən qüvvələri "Qartal"ın hücum taktikasından heç cürə baş aça bilmirdi və onu mühasirəyə salıb aradan götürmə cəhdi hər dəfə səmərəsiz olur, uğursuzluqla nəticələnirdi, əksinə, ermənilər böyük itki verərək döyüş meydanından qaçırdılar.

"Qartal"ın peşəkar döyüşündən vahimələnən erməni əsgərləri səngərlərini qoyub geri çəkilirdilər. Ermənilər qarşısındakının peşəkar kəşfiyyatçı olduğunu başa düşərək bunun üçün xüsusi hazırlıqlı snayperlərdən istifadə edərək dəfələrlə onu hədəfə almışdılar… Hətta özü bir neçə dəfə ratsiyada ermənilərin danışığını da dinləmişdi. Düşmən kəşfiyyatçıları onun döyüşdüyü is-



tiqamətlərə çevik dəstələri və snayperləri cəlb etdiyini eşidəndə gülərək: "Gəlin, sizin özünüzü hədəf seçmişik…", – demişdi. Amma bir neçə dəfə tutduğu mövqeyə güllə atıldığını görərək dərhal yerini dəyişmişdi.

"Qartal" özünə qarşı təhlükəni açıq şəkildə hiss edirdi. Düşmən snayperləri onu geyimindən də tanıyıb nişangah seçə bilərdi. Ona görə də o, təcrübədən çıxış edərək hər növbəti döyüş əməliyyatı ərəfəsində maskalanmış qiyafəsini və üst geyim formasını dəyişməli olurdu. Minamyotla atəşə məruz qalmaları da bu səbəbdən idi. Çünki düşmən snayperləri onun hansı istiqamətdə olduğunu dəqiqliklə öyrənə bilmədiyindən minamyot mərmilərindən istifadə edirdi.

"Komandir… Komandir…", – erməni diversantının biz tərəfə süründüyünü görürəm, – deyərək "Canavar" ləqəbli snayperimiz ratsiya ilə "Qartal"ı xəbərdar etdi. "Qartal" əli ilə "Aşağı yat!" işarəsini verdi. Təxminən 25-30 metr məsafədə pusqu qurmuş Rəşada tərəf isə başqa bir erməni diversantı sürünərək yaxınlaşırdı. "Qartal" ratsiya ilə Rəşadı duyuq saldı: "Sola bax, diqqətli ol!". Rəşad komandirin tapşırığını başı ilə təsdiqlədi.

"Qartal" ardınca ratsiya ilə "Canavar"a göstəriş verdi: "Mən qara qoyun dərisindən hazırlanmış papağı olan müqəvvanı yuxarı qaldırıb düşməni aldadacam, o başını yuxarı qaldıran kimi sən atəş aç!", – deyərək əmr verdi. İkinci erməni diversantı da onlara tərəf sürünürdü, onların hədəfi, əslində "Qartal" idi, onu öldürməyi hədəf-

lədikləri aydın şəkildə hiss olunurdu. Bu, artıq üçüncü cəhd idi.

Yağmurlu və soyuq hava iliyədək işləyirdi. Döyüşçülər düşmənin bütün davranışını izləyirdi. Komandirin yanındakı döyüşçülər snayper silahları ilə hazır vəziyyətdə idilər. Lakin diversantların biri lap yaxına buraxılmışdı. Komandir Rəşada işarə verdi və müqəvvanı astaca yuxarı qaldırdı. Bu vaxt ehtimal edildiyi kimi, erməni divepsant dizi üstə qalxıb atəş açmaq istədikdə Rəşadın sərrast atəşi onu yerə sərdi. İkinci diversant isə sürünərək geri qaçmaq istəyəndə “Qartal” onu ayağından vurdu. Yaralı erməni diversant zarımağa başladı. Döyüşçülərdən biri ermənini yaralı yaxalamağa tələsəndə komandir işarə etdi ki, hələ olmaz. Yanındakı döyüşçülərdən biri: – Komandir, qaçıb aradan çıxar, yaxud özünü partlada bilər, – deyəndə “Qartal”: – Can şirin şeydir, ermənidə o qeyrət hardadır özünü öldürə. Qoyun bir az zarısın, məcbur olub ağ bayraq qaldıraraq təslim olacaq, – deyib azacıq gözləməyi məsləhət bildi.

“Qartal”ın ehtimalı özünü doğrultmaqda idi. Döyüşçülər səbr və diqqətlə yaralı erməninin davranışını izləyirdilər. Komandir: – O, çox güman ki, kömək istəyəcək, siz ehtiyatlı olun, qarşı tərəfi izləyin və yerinizi dərhal dəyişin, əsir düşməməsi üçün digər snayperlər onu vura da bilər, sizi də vura bilərlər, – deyərək özü də 5-6 metr məsafədə yerdəyişmə edib hər bir döyüşçünün kolların arxasında gizlənməyini əmr etdi.

“Canavar” komandirə tərəf süründü: – Komandir, məni bir şey düşündürür. Tarixdən bilirik ki, bu ermə-

nilərə qucaq açmışıq, şərait yaratmış, torpağımızda yaşamalarına icazə vermişik. Bu cür qonşu olar? Bunları bizə kim calayıb görəsən?! Bu nə cəzadır çəkirik, – deyərək bir gözü yaralı erməni diversantın hərəkətlərində ikən, cavab gözlədi.

Soyuqdan dodaqları əsən "Canavar" komandirin sevimli döyüşçülərindən idi. Komandir ona yeni bir ovqat gətirmək üçün astaca danışdı: – Belə bir lətifə var, eşitməmisən? Deyir, bir gün arvad ərinə deyir: "Biz 30 ildir bir yerdəyik, amma bir dəfə də olsun deməmisən ki, o vaxt məni sənə kim ürcah etmişdi?". Kişi ciddi görkəm alır: "Ay arvad, mən nə bilim, o qədər düşmənim var idi ki!".

Döyüşçülər özlərini gülməkdən güclə saxladılar. "Qartal" əlavə etdi: – Bilirsiniz, ermənilərin Qarabağa köçü 1828-ci ildən başladı və səbəb də İranla Rusiya arasında davam edən müharibə idi. Nəhayət, tərəflər Türkmənçay sülh müqaviləsini imzaladılar və belə qərara gəlindi ki, İran öz ərazisindəki, Rusiya da öz maraqlarına uyğun olaraq yüz minlərlə erməniləri Qarabağa və Azərbaycanın digər ərazilərinə köçürsünlər. Lakin bu köçürülmə zamanı Türkiyədən də xeyli erməni ailəsi Azərbaycan ərazisinə köçürüldü. Rusiyanın və İranın məqsəd və marağı bu idi ki, ermənilər mütləq qaydada bir ərazidə, özü də Azərbaycanın mərkəzi ərazisində məskunlaşdırılsın. Belə bir yer isə Qarabağ idi…

Birdən snayper gülləsi yaralı erməni diversantın olduğu əraziyə dəydi, palçıqlı su ətrafa sıçradı. Komandir: -Dedim axı, ehtiyatlı olun, gözləyin, bir neçə dəqiqədən

sonra nə etməli olduğunuzu bildirəcəm, – deyərək söhbətini davam etdirdi:

– Rusiyanın da planı bu idi ki, heç bir vaxt dövləti olmayan ermənilər gələcəkdə mütləq Qarabağda özlərinə muxtariyyət, sonra dövlətçilik quruluşu tələb edəcək. Elə də oldu. Sovetlər dönəmində buna cəhd olundu, SSRİ dağılandan sonra isə ermənilər fürsəti əldən vermədilər və özlərinə “Artsax” adında dövlət qurmaq istədilər. Biləsiniz ki, Ermənistanın da ərazisi Azərbaycan torpaqları üzərində qurulub, İrəvan xanlığının ərazisidir. Tarixi sənədlər bunu bir daha təsdiqləyir…

– Komandir, belə çıxır ki, bu məxluqlardan can qurtarmağın bir yolu var: onları yer üzündən silmək, – deyə döyüşçülərdən biri söhbətə müdaxilə etdi.

“Qartal”: – Yer üzü sonranın işidir, amma biz hələlik sizlərlə birlikdə onları işğal etdikləri Azərbaycan torpaqlarından silib təmizləməliyik…

“Qartal” əlindəki durbinlə uzaqdan görünən bir qaraltını sezdi: – Uşaqlar, başınız söhbətə qarışıb, diversantlar yaralı erməniyə köməyə gəlirlər. Onlar belə bir riskə gedirlərsə, deməli, o yaralı adi döyüşçü deyil, biz onu ələ keçirməliyik, – deyərək ratsiya ilə şərti adı “Bulaq” olan snayperə tapşırıqlarını verdi.

“Bulaq”: – Komandir, siz məni atəşdən qoruyun, mən onu tutacam, hənirtisini eşidirəm, o, qan itirməkdədir, zarıyır, – deyərək irəliyə doğru süründü.

Bu vaxt qayalığın dibində gizlənmiş və pusqu quraraq döyüşçülərimizi hədəf seçmiş erməni snayperin atəş

açdığı eşidildi. Lakin snayperimizin sərrast atəşi onu yerindən tərpənməyə qoymadı və susdurdu. "Bulaq" yan tərəfdən sürünə-sürünə yaralı erməni diversanta yaxınlaşdı. Birdən gözü onun qırıb kənara atdığı paqonlarına sataşdı: – Aha, o yüz faiz yüksək rütbəli ermənidir, indi onu təslim edərəm, – deyərək arxadan onun üstünə atıldı və ermənininin əlindəki tapançanı vurub kənara atdı, qollarından tutdu. Rəşad da köməyə gəlmişdi. O, erməni dilində: – Tərpənmə, başını üzərəm, sakit ol… Bax belə, bu kəndirlə səni ayağından dartıb atəş altından sağ çıxaracam, narahat olma, mənim əziz erməni diversantım, – deyərək onun ayağına kəndir bağladı, sonra özü isə sürüşkən enişlə üzü aşağı diyirlənib sürünməyə başladı, ardınca isə kəndiri dartaraq erməni diversantı üzüaşağı sürüdü. Hava yağmurlu olduğundan ağız-burnu palçıq içində olan yaralı erməniyə dərhal ilk tibbi yardım göstərildi.

"Qartal" ermənininin ciblərini axtaranda heç bir sənəd tapmadı. Bu vaxt Rəşad: – Buyurun, komandir, o polkovnik rütbəlidir, paqonlarını qırıb kənara atmışdı, -deyərək raport verdi.

"Qartal" Rəşada növbəti tapşırığını verərək: – Sən onunla öz dilində danış görək kimdir, – deyə təhlükəsiz yerə çəkildi…

Rəşad yaralı erməni ilə erməni dilində danışmağa başladı:

– Adın nədir?

– Artur…

– Arturcan, narahat olma, mən bir bəy kimi söz verirəm, səni sağ buraxacağıq, amma sən də bizə kömək elə…

Sonra komandirin suallarını erməni dilində ona izah etdi. Məlum oldu ki, təpənin arxasında ermənilərin zirehli texnikası, silah dolu yük maşınları var. Komandir əmr etdi ki, Artur ratsiya ilə öz erməni döyüşçülərinə tapşırıq versin ki, yeraltı sığınacağa yığışsınlar, guya qarşı tərəfə böyük itki verilib, bir neçəsini də əsir götürüblər, amma düşmən tezliklə onların olduğu ərazini raket atəşinə tutacaq…

Erməni polkovnik deyilənləri icra etdi. Döyüşçülərimiz erməni zabitin nişan verdiyi minasız ərazidən keçərək əks istiqamətdən 200-ə yaxın erməni könüllü və hərbi xidmətə təzəcə çağırılmış əsgərlərin olduğu kazarma tipli sığınacağı mühasirəyə aldılar. Rəşad bir gün əvvəl əsir götürülmüş erməni zabitlərindən birinin hərbi paltarını geyinərək axsayan erməni polkovniklə birlikdə kazarmaya tərəf getməyə başladı. Plana uyğun olaraq əks tərəfdən "Qartal"ın döyüşçüləri silah dolu yük maşınını hədəfə almışdılar.

Üz-gözünü erməni döyüşçülərə oxşatmış Rəşad polkovniklə birlikdə kazarmaya yaxınlaşdı. Polkovnik erməni dilində onlara kazarmadan çıxmamağı əmr etdi: "Hamı kazarmaya yığılsın, bunkerlərə girin, dronlar oranı vuracaq… Cəld olun!..".

Erməni silahlıların hamısı qaçaraq bunkerə doluşdu. Bu zaman kazarmanın dörd tərəfi snayperlərimiz tərə-

findən hədəfə alınmışdı və kazarmanın əsas giriş-çıxış nöqtələri minalanmışdı. Rəşad ratsiya ilə komandirə bu barədə məlumat verdi. Hər kəs öz atəş mövqeyində idi.

Komandir əmr verən kimi qranatamyotlar işə düşdü və atışma başladı. Sığınacağa bənzər kazarmanın və silah dolu yük maşınının dağıntıları göyə sovruldu. Erməni polkovnik əlləri ilə yaralı dizini qucaqlayıb sızıldayırdı. "Qartal" onun qolundan tutaraq: – Sızıldama, 30 il başımıza turp əkmisiniz, biz sənin kimi zarımadıq, indi bir saatlıq sızıltıya dözə bilmirsiz, külünüzü göyə sovurma zamanı gəlib, it uşağı, – deyərək Rəşada tərəf: – Bu söylədiklərimi ona tərcümə elə, qoy, bir az da artıq zarısın, – deyib əks tərəfdən köməyə tələsən erməniləri atəşə tutmaq əmri verdi.

…"Qartal"ın rəhbərliyi ilə döyüşçülərimiz ermənilərin daha bir strateji məntəqəsini darmadağın edərək iki PDM və bir BTR-lərini ələ keçirib, meydanda 200-ə yaxın erməni silahlılarının meyitini qoyub irəliləməyə başladılar. Arxa cəbhədən gələn minaaxtaranlarımız isə ərazidəki təhlükəli yerləri yoxlayır, döyüşçülərin sürətlə və itkisiz irəliləməsinə dəstək verirdilər.

**(Sonradan rəsmi məlumatlarda ermənilərin bu strateji məntəqəsində 200-dən çox silahlısının öldürüldüyü, xeyli silah-sursatının ələ keçirildiyi barədə yazılacaqdı).**

…Qoşunlarımızın Füzuli istiqamətində sürətlə irəliləməsi üçün düşmənin daha bir strateji məntəqəsi ələ keçirilməli idi. “Qartal”ın bu istiqamətdə düşmənin arxasına keçmiş kəşfiyyat bölüyünün döyüşçülərinin verdiyi məlumatdan bəlli olurdu ki, düşmən əsas gücünü bu istiqamətə cəmləyib. Çünki Füzuli cəbhəsi yarılsa, düşmən Zəngilan və Qubadlı istiqamətində duruş gətirə bilməyəcəkdi. Ona görə də yuxarı komandanlığın əmrinə əsasən, Füzuli istiqamətində düşmənin ciddi nəzarətində olan minalanmış böyük ərazilərdən keçərək vacib yüksəkliyi almaq lazım idi. “Qartal” qarşıda duran bu mühüm strateji tapşırığı yerinə yetirmək üçün döyüşçülərinə növbəti hücum əmri verdi. Plana uyğun olaraq, maksimum dərəcədə itki vermədən yüksəkliyi ələ keçirmək və düşmənin Füzuli istiqamətində olan bütün atəş nöqtələri darmadağın edilməli idi.

“Qartal”: – Əsgərlərim! Aqibətini düşünən əsgərdən igid olmaz! Siz aqibətini düşünməyən igidlərsiniz, “odda yanmaz, suda batmaz” düşmənə gözləmədiyi ağır zərbəni vurmaqdasınız. Lakin bilirsiniz ki, məqsədimiz onları torpaqlarımızdan iti qovan kimi qovaraq Şuşaya bayrağımızı sancmaqdır, – deyəndə döyüşçülərdən biri kövrəlib göz yaşlarını saxlaya bilmədi: – Bəli, komandir, biz 30 il bu sevinci yaşamaq arzusunda olmuşuq. Mən əslən şuşalıyan, amma anadan olanda artıq 20 il idi ki, Şuşa düşmən işğalındaydı…Babamı Şuşada güllələmişdilər… Ona görə də bu tarixi savaşda düşmənə dərs vermək mənim döyüşçü borcumdur. Dünya görməlidir

ki, biz heç bir halda torpaqlarımızı yağıda qoyası deyilik…

Döyüşçülər bir ağızdan: – Oldu, komandir! Canımız vətənə qurban! – deyərək silaha sarılıb səngərdən çıxaraq irəli atıldılar.

Əsasən düzəngah ərazi olduğundan Füzuli istiqamətində hücuma keçmək çox çətin idi. Çünki düşmən 30 ildir yuva qurduğu strateji yüksəkliklərdən və pusqu qurduğu atəş nöqtələrindən optimal müşahidə imkanına malik idi. Ona görə də düşməni aldadaraq müşahidə imkanından maksimum yayındırmaq tələb olunurdu. Bu, olduqca məsuliyyətli və cəsarət, peşəkarlıq tələb edən tapşırıq idi.

"Qartal" Korpus komandanlığının etirazlarına və müvafiq göstərişlərinə baxmayaraq, birbaşa döyüş əməliyyatlarında özü iştirak etməkdə idi. O, əsgərlərindən öndə gedirdi. Yarğanlardan keçərək kol-kosların arxasında gizlənərək sürünmək, uzaq məsafədə yerləşən düşmən səngərlərinə çatmaq bəzən mümkünsüz görünürdü. Bir neçə gün əvvəl ermənilərin atıb qaçdığı səngərlər isə az da olsa kara gəlirdi.

"Qartal" bu dəfə rəhbəri olduğu kəşfiyyat taborunun üzvləri ilə birlikdə əks-hücuma keçmişdi. Digər bölmələrimiz düşmənin əsas atəş nöqtələrini nə qədər zərbə altında saxlasalar da, mühasirəyə düşmədən irəliləmək çox çətin idi. Hiss olunurdu ki, düşmən yerləşdiyi strateji məntəqələri əldən vermək niyyətində deyil. Amma "Qartal"ın taktiki addımları hələ ki itkisiz davam edirdi

və düşmənin itkiləri aydın şəkildə görünürdü. Onların ratsiya danışıqları da bunu sübut etməkdə idi.

&

"Qartal" döyüşçülərə havanın qaralmasını gözləməyi tapşırdı. Hava qismən dumanlı və buludlu olduğundan Dronların Müşahidə Məntəqəsinin imkanları ilə düşmənin mövqe tutub gizləndiyi məntəqələri süsdurma fəaliyyəti çətinləşmişdi. Lakin "Qartal" dərədən qalxan dumanı görəndə sevindi, indi hədəflər aydın idi. Müxtəlif istiqamətlərdən daxil olan kəşfiyyat məlumatlarına uyğun olaraq irəliləməyə imkan verən şərait yaranmışdı.

Döyüşçülər cəbhənin digər ərazilərində də uğurlu əməliyyatları həyata keçirərək düşmənə ağır zərbə vurmaqda idi. Bu isə döyüşçülərdə böyük ruh yüksəkliyi yaratmışdı.

"Qartal" qarşıda duran ən vacib tapşırığı yerinə yetirmək üçün bütün vasitələrdən istifadə etməli oldu. Qızğın döyüş başladı… Düşmənin iki müdafiə xətti yarılmışdı. Qalmışdı daha bir yüksəklikdə yerləşən məntəqənin ələ keçirilməsi. Lakin düşmənin bu müdafiə məntəqəsinə həmin yüksəkliyin arxa hissəsində qazılmış dərin xəndəklərlə kömək gəlirdi. Bunun qarşısı mütləq alınmalı idi. Vəziyyət xeyli çətinləşmişdi.

&

Əməliyyat gecə səhərə kimi davam etdi. Döyüşçülərimizdən yaralananlar da var idi. Səhər hava işıqlananda duman çəkilmişdi. Bu isə təhlükəli idi. Çünki düşmənlə

olan yaxın məsafədə gizlənməyə hansısa maneə və ya kolluq ərazi yox idi. Düşmən döyüşçülərinin və snayperlərinin atışları isə onların say çoxluğundan xəbər verirdi.

"Qartal" bu əməliyyatda iştirak edən döyüşçülərin hamısına geri çəkilmə əmri verdi. Özü tək qalmaq istəyirdi. Lakin heç kim onu tək qoymaq istəmirdi. O, dəfələrlə buna cəhd etsə də, döyüşçülər dirəniş göstərdilər. Komandir dözməyib uca səslə əmr verməli oldu. Səsi tutulmuşdu… Bu, həm də məsuliyyətdən irəli gələn psixoloji durumla bağlı idi. O, döyüşçülərinin düşmən gülləsinə hədəf olmasını istəmirdi. "Qartal" sonuncu dəfə döyüşçülərə onu tərk etmə əmri verdi. Lakin Rəşad və daha bir neçə döyüşçü onunla qalmalı oldu.

"Qartal" ratsiya ilə mühasirəyə düşdükləri barədə komandanlığa məlumat çatdırdı və dronlardan kömək istədi. Lakin cəbhənin Füzuli və Zəngilan istiqamətində də şiddətli döyüş əməliyyatları aparıldığından Dronların İdarəetmə Mərkəzinin ona kömək etməsi çətinləşmişdi. Çünki düşmən var gücü ilə İranla sərhəd boyu ərazilərdə qoşunlarımızın irəliləməsinə ciddi müqavimət göstərirdi. Dronlar isə düşmənin əks-hücumunun qarşısını almağa çalışırdı. Bəzi məlumatlara görə isə, hətta İrandan ermənilərə kömək də göndərilirdi.

"Qartal"ın qardaşı Müdafiə Nazirlyinin bu istiqamətlərdə Dronların İdarəetmə Mərkəzinin rəhbəri idi. Lakin o, mühasirədə olanın məhz öz dogma qardaşının olduğundan xəbərsiz idi. Bununla belə, cəbhənin başqa istiqamətində xüsusi tapşırıqlarla məşğul oldu-

ğundan vaxtilə hərbi məktəbdə bir yerdə oxuduqları və Sərhəd Qoşunlarında Dronların İdarəetmə Mərkəzinin komandiri olan general-mayor Babək Qurbanova müraciət etdi: – Cənab general, bizə döyüşçülərimiz mühasirədə olması barədə məlumat gəlib, onlara təcili kömək lazımdır, köməyinizi əsirgəməyin. Bildiyim qədər, siz o istiqamətdəsiniz.

General bütün məlumatları təhlil edib, dronların havaya qaldırılaraq mühasirədə olan döyüşçülərə kömək edilməsi üçün aidiyyəti üzrə tapşırıq verdi. Dronlar mühasirədə olan kəşfiyyatçılarımıza yaxınlaşan düşmən qüvvələrini və onların digər atəş nöqtələrini tamamilə məhv etdi. "Qartal" döyüşçüləri ilə birlikdə mühasirədən çıxdı.

*(Sonradan məlum olacaqdı ki, "Qartal"ı – Orxan Əkbərovu və silahdaşlarını xüsusi əməliyyat planı ilə mühasirədən çıxaran və düşmənin xeyli silahlılarının məhv edilməsinə nail olan Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəis müavini, general-leytenant Əfqan Nağıyev, Vətən Müharibəsi Qəhrəmanı Babək Qurbanov olmuşdur).*

**XATIRLATMA:** General-leytenant Əfqan Nağıyev Azərbaycan Ordusunun 44 günlük Zəfər Qələbəsindən sonra bunları xatırlayacaqdı: "…Bu məsələ, əlbəttə ki, mənim yadımdan çıxa bilməz. Müharibənin başladığı ilk günlər idi. Bizim tabeliyimizdə olan hərbi hissələrin birində dron komandiri olan, hərbi məktəbdə "Qar-

tal" ləqəbli Orxan Əkbərovla bir yerdə oxumuş, hazırda general-mayor olan Babək Qurbanov mənə məlumat verdi ki, Orxan Əkbərov bir neçə nəfərlə mühasirəyə düşüb. Cavab verdim ki, elə təzəlikcə, səndən əvvəl Korpus komandiri, general-mayor Mais Bərxudarov da mənə təcili məlumat verib. Mən dərhal bu barədə Sərhəd Qoşunlarının komandanı, general-polkovnik Elçin Quliyevə məruzə etdim. Rəis göstəriş verdi ki, təcili əməliyyat planı hazırlansın və kəşfiyyatçılarımız mühasirədən çıxarılsın... Həmin anda bizim dronlarımız düşmənin başqa hədəflərini vurmalı idi. Amma biz onların istiqamətini qısa zaman içində dəyişib Orxan Əkbərovun mühasirədə olduğu yerə yönəltdik. Həmin vaxt bizim dronlar ermənilərin bir tankını, silah-sursat dolu bir "KamAZ"ını və piyadaların bir döyüş maşınını məhv etdi. Ermənilər bunu gözləmirdilər və özlərini itirdilər – şoka düşmüşdülər. Mühasirəni yaradan da məhz bu texnikalar idi. Onlar məhv edilən kimi, Orxan Əkbərov və onun tabeliyindəki kəşfiyyatçılar mühasirədən çıxdılar. Onu da deyim ki, bu əməliyyat operativ, özü də uğurlu şəkildə yerinə yetiriləndən sonra dronlar yenidən əvvəlki mövqeyə qaytarıldı və əvvəlcədən planlaşdırdığımız düşmən hədəflərini də məhv etdik… Elə həmin gün Komanda İdarəetmə Mərkəzindən mənə dedilər ki, bir polkovnik səninlə danışmaq istəyir, dedim buyurun, calaşdırın. Bir də gördüm Orxan Əkbərov özü danışır. Özü də mühasirədən çıxan kimi, birbaşa mənimlə danışmaq istəmişdi. Hiss etdim ki, mərkəzə də tənginəfəs, tərli-tərli gəlib və mənə bunları dedi: "Cənab general,

mən sizə bütün həyatım boyu borcluyam. Siz bu gün məni və silahdaşlarımı ölümdən qurtardınız. Sizə hədsiz minnətdarlığımı bildirirəm". Mən də cavab verdim ki, biz bir amal uğrunda vuruşuruq. Torpaqlarımızın azadlığı bizim üçün hər şeydən əzizdir. Ona görə də təşəkkür etməyə ehtiyac yoxdur, bu, bizim borcumuzdur…".

…"Qartal" mühasirədən çıxdıqdan bir neçə saat sonra yenidən digər istiqamətlərdən hücuma keçmək üçün əmr aldı, dərhal da vaxt itirmədən növbəti döyüş əməliyyatı hazırladı. O, döyüşçülərinə söz vermişdi ki, onun mühasirəyə düşməyinə bais olmuş həmin yüksəklik mütləq ələ keçiriləcək.

…Dağların arxasındakı atışma səsləri aydın eşidilirdi. Hava buludlu olduğundan dünənki sazaq bir az səngimişdi. Dağların ətəyində məskən salmış duman isə yavaş-yavaş dərəyə doğru sürünüb gəlirdi. Bu, hərbi əməliyyat üçün daha bir əlverişli şərait demək idi.

"Qartal" əməliyyat planı hazırlayıb komandanlığa məruzə etdi. Razılıq əldə ediləndən sonra döyüşçülər vaxt itirmədən düşmənin əsas hədəflərini məhv etmək üçün axşama yaxın hücuma keçdi. Bu əməliyyatlarda "Qartal"la birlikdə iki bölüyün döyüşçüləri də iştirak edirdi.

"Qartal" döyüşçülərə yenə də havanın qaralmasını gözləməli əmrini verdi… Döyüşçülər ötən gün ələ keçi-

rilmiş düşmən səngərlərində atılıb qalmış fotoşəkillərə baxıb gülürdülər. Bəziləri üstündə sevgilisinin, bəziləri anasının və ailələrinin şəklini gəzdirirmiş. Birinin cibindən isə Ermənistanın baş naziri Paşinyanla özünü separatçıların lideri adlandıran Araik Arutyunyanın fotoşəkli düşüb qalmışdı. Döyüşçülərimizin artilleriya zərbəsi düşməni pərən-pərən salmışdı, otuz ildir yuva qurduqları səngərlərini bir hücum əməliyyatı ilə atıb qaçmışdılar. Səngərdə xeyli silah-sursat da qalaqlanmışdı. Qaçarkən məhv edilmiş düşmən döyüşçülərinin meyitləri ətrafa səpələnmişdi…

Döyüşçülər yarğanın dərinliyinədək düşərək düşmənin ağlına gəlməyən istiqamətdən irəliləməyi planlaşdırmışdı. Bir gün əvvəl əsir götürülmüş erməni polkovnikin çantasından çıxan və özünün ətraflı izah etdiyi xəritə "Qartal"ın karına gəldi. Artıq mövsümi çayda sululuq da artmışdı. Amma elə də güclü deyildi. Döyüşçülər vaxtı öldürmək üçün mövqe tutduqları yerdə xısın-xısın söhbət edirdilər.

– Komandir, Şuşa alınandan sonra toyuma sizi mütləq çağıracam, – deyərək döyüşçülərdən biri söhbətə başladı.

– Nişanlısan? – "Qartal" soruşdu.

– Xeyr…

– Bəs toyun pulu, tədarükü varmı?

– Xeyr…

Hamı güldü. "Qartal": – Əla, sənin toyunu elə Şuşada edərik… Bütün xərc mənim boynuma. Amma bir

şərtlə ki, Şuşaya qədər mənimlə olasan, görüm özünü necə aparacaqsan…

Rəşad söhbətə şirinlik qatdı:

– Komandir, amma əvvəlcə ermənilərə toy tutmaq lazımdır, sonra bu biri toyu edərik…

Hamı güldü.

– Komandir, bəs siz necə ailə qurmusunuz? Qızlar hərbçiləri o qədər də xoşlamır. Hərbi şəhərcik həyatı bəzən cansığıcı olur, eləmi? Danışsanız yaxşı olardı… Sirr deyilsə…

"Qartal" gülümsədi: – Nə sirr, əsgər! Sirr hərbdə, döyüş əməliyyatında olur…

Əsgər pərt olmuşdu. Sonra nə fikirləşdisə, o, əsgərin xahişini yerə salmadı:

– Deyim də… Anam Sevil Abdullazadə həkimdir. Gələcək həyat yoldaşım Nuranə xanım isə anamla birlikdə işləyirdi. Bir dəfə istirahət günümdə anamı işə gətirərkən, Nuranənin bir iş yoldaşının toyu imiş. O, həmin iş yoldaşının iş yerinə gedir və görür ki, toyu olacaq həmin iş yoldaşının əsgər qardaşı da oradadır. Və Nuranə görür ki, əsgərin üst-başı kirlidir, toz-torpaq içindədir. Yəni, yar-yaraşıqlı oğlan pinti görkəmdədir…

Döyüşçülərdən biri təəccüblə üst-başına baxaraq: – Komandir, belə yerdə necə tərtəmiz qalmaq olar axı?!

Hamı güldü…

"Qartal" söhbətini davam etdirdi:

– Tamamilə doğrudur. Döyüş əməliyyatlarında və səngərdə keşik çəkən əsgərin yanında olmayan, onun vəziyyətini bilməyən əksini düşünür ki, niyə əsgərin

əyin-başı təmiz deyil?! Beləcə, Nuranə gedib bunu işdə danışır ki, bəs ora bir hərbçi gəlmişdi, üstü kir-pas içindəydi… Siz bilirsiz də, hərbi əməliyyat olanda bəzən günlərlə çöllərdə qalırıq, palçıq içində də oluruq. Bu bizim peşəmizin xarakteridir.

– Komandir, tezliklə çimərik bizdə…

“Qartal” güldü:

– Hə, Şuşa alınandan sonra çiməcəyik hamımız…

Döyüşçülər gülüşdülər. Komandir söhbətinə davam etdi:

– Bu söhbət anama, sonra da mənə çatdı. Mən bir dəfə anamı işə gətirəndə, soyuq aylar idi deyə, ona qaz “peçi” gətirmişdim. Anam özünün tibb bacısını göndərdi ki, get o qızı bura çağır gəlsin… Anam mənə dedi ki, bu qız sənə kirli-paslı deyib? Mən də sakit tərzdə, bir az da maraqla soruşdum ki, xanım, siz hərbçilərə pinti demisiniz? O da anama üzünü tutub dedi ki, doktor, mən sizin oğlunuzu birinci dəfədir görürəm. Ona pinti deməmişəm axı… Gördüm ki, anam əsəbləşib, dedim, ana, bu xanım düz deyir də, əsgərlər pinti, kirli, hətta bitli də ola bilər. Amma bu gün nə məndə, nə də mənim əsgərlərimdə pintilik yoxdur. Heç bit də yoxdur… Vaxtı ilə mənim əsgərlərimdə də bit olub. Çünki Ağdamda, Füzulidə… quru torpaqda, palatkada qalırdıq... Gənc qızın öz sözünün üstündə durmağı mənə xoş gəldi. Və bəyəndim, ailə qurduq. Amma hərbçi seçən xanım da gərək əvvəldən göz altına alsın ki, onun gələcək həyat yoldaşı hərbçidir, günlərlə əməliyyatda, döyüşdə ola bilər. İlk dəfə Beyləqandakı 702 saylı hərbi hissədə işləyirdim.

Rayonun özündə ev tutmuşdum, kirayədə qalırdıq. Sonra həmin hərbi hissəyə yaxın kənddə ev kirayələdik və biz ora köçdük. Daha sonra xidmət yerimi 181-ə dəyişdilər. Ona görə də Füzuli qəsəbəsində qalmalı oldum. Lakin daha sonra Ağdama -190 saylı hərbi hissəyə göndərdilər. 2015-ci ilə kimi orada olduq. Daha sonra yenidən 181-ə dəyişdilər. Ardınca da 218 saylı hərbi hissənin komandiri, kəşfiyyat hərbi hissəsinə komandir təyin olundum. Yəni, hərbçinin həyatı belə olur… Amma indi mən artıq komandir deyiləm…

Döyüşçülərdən kimsə təəccüblə: – Necə yəni, sizi komandirlikdən kənarlaşdırıblar ki!? – deyə soruşdu.

"Qartal" güldü:

– Yox, kənarlaşdırmayıblar, amma mən özüm komandirlikdən imtina etmişəm. Yəni, sizin kimi mən də indi adi kəşfiyyatçı və döyüşçüyəm. Burda hər birimiz döyüşçüyük və bərabərik…

Bu vaxt qarşı tərəfdəki kəşfiyyatçılardan biri hava siqnalının ifadəsi kimi göyə fişəng buraxdı. Bu, hücuma keçmə əmrinin olmasına işarə idi.

"Qartal" oktyabrın 1-də axşam saat 22:00 radələrində evə zəng vurdu… Həyat yoldaşı ilə danışmaq istəyirdi. Xanımı hiss etdi ki, nədənsə, o, sakit səslə danışır. Axı "Qartal" bu gecə ən ağır hərbi əməliyyata gedirdi. Özünə söz vermişdi ki, bu dəfə düşmənin müqavimətini tamamilə qıraraq döyüşçülərimizin Şuşaya gedən

yol istiqamətində hücumlarının qarşısını kəsən ən vacib strateji məntəqələri ələ keçirməlidir.

Həyat yoldaşının narahat olduğunu hiss etdi: – Nə danışırsan, nə müharibə… Hər şey əladır, – deyərək yenə də sakit səslə bildirdi: – Narahat olma, işimiz planlı şəkildə öz qaydasında gedir…

– Bəlkə döyüşdəsən, demirsən?! Burda hamı müharibə getdiyindən danışır, – deyərək yenidən soruşdu: – Bəs səsin niyə zəif gəlir?

Birdən atışma səsi gəldi. “Qartal” dərhal telefonu söndürdü. Ardınca yaxınlığa mərmi düşdü, partlayışın səsi döyüşçüləri səngərə sığınmağa vadar etdi.

Döyüşçülər kənara çəkilərək sakitcə dayanmışdılar. Başa düşürdülər ki, “Qartal” evdəkiləri nigaran qoymaq istəmir. Döyüşçülərdən biri zarafatla: – Komandir, bəlkə düzünü deyəsən, narahat qalmayalar, biləlır ki…

“Qartal” əsgərin əlindən tutdu:

– Biz vətəni qoruyuruq, əsgər, vətəndən muğayət olmalıyıq…

Bu dəfə həyat yoldaşı zəng vurmuşdu:

– Nəsə, bu vəziyyətindən gözüm su içmir… Özünü qoru… Yəqin döyüşdəsən, axı telefondan qulağıma atışma səsi gəlirdi...

– Yox, elə şey yoxdur, zirzəmidəyəm… Nə müharibə?! Sonra istədi başqa bir bəhanə söyləsin: – Hə, bu gün hava bürkülü idi, səsim də soyuq su içdiyimə görə bir az tutulub…

Sonra atışma səsi eşidilməsin deyə telefonu qulağına daha da bərk sıxdı.

– Nəsə orda, elə bil atışma səsi gəlir axı, – deyə həyat yoldaşı təkrar soruşdu.

– Yox, əsgərlərim məşq edirlər, güllə atmağı öyrənirlər.

Ani olaraq duruxdu, uşaqları soruşdu: – Yatıblar? Uşaqlara yaxşı bax, onları incitmə… Ver danışım, görüm dərslərinə hazırlaşırlarmı?

– Sən yanındakı uşaqlarından muğayət ol, burdakılara heç nə olmaz, – həyat yoldaşı əlavə etdi…

Telefon söhbəti bitdi…

“Qartal” onları hədəf seçmiş erməni snayperlərin atış istiqamətini təxmin edərək döyüşçülərə hər atışdan sonra yerlərini dəyişməyi tapşırdı… Döyüş şiddətlənirdi. Düşmən üç istiqamətdən hücuma keçmişdi, güllə dolu kimi yağırdı. Lakin döyüşçülər də onlara aman vermirdi. Məhv edilmiş erməni əsgərlərinin meyitləri kol-kos arasında, təpənin sinəsinə doğru uzanan cığır boyu səpələnmişdi.

Atışma azacıq ara verən kimi “Qartal” yenidən evə zəng etdi. Uşaqlarla danışdı, deyib-güldü... Birdən yadına düşdü ki, oktyabrın 21-də qızının ad günüdür. – Hə, de görüm Sevil yanındadır? Telefonu ver ad gününü təbrik edim, birdən sonra imkan olmaz, – deyərək ürəyinə gələn qəribə fikirləri özündən kənarlaşdırmaq istədi: – Qızım, ad gününü təbrik edirəm, gör gələndə sənə nə gətirəcəm…

– Sağ ol, ata… Bəs ad günümdə gəlməyəcəksən?

– Əlbəttə, gələcəm… Amma dəqiq söz verə bilmirəm. Bir-iki iş var, onları həll edib mütləq gələcəm…

Bu vaxt snayper gülləsi "Qartal"ın sol ayağına dəydi. Döyüşçülərdən biri dərhal ona ilk tibbi yardım göstərdi. Amma dəhşətli ağrı hiss edirdi. Qızı səsindəki ufultunu duydu: – Ata, nə oldu, niyə ufuldadın?

– Heç, əlimə tikan batdı… Burada tikanlı kol-kos var, onları yolurdum…

Sevil dərindən köks ötürdü: – Ata, onda bir tort var eyy, "Şahzadə", gələndə onu mənə alarsan… Bir də, dünən məktəbimizdə döyüşçülər üçün hədiyyələr yığırdılar. Müəllim tapşırdı, hər birimiz əsgərlərə məktub yazdıq, çoxlu hədiyyələr göndərdik…

– Sən nə göndərdin?

– Ata, eşidirsən? Anam bilməsin, mən məktubu sənin adına yazdım…

– Mənə? Niyə? – Gülümsədi…

– Müəllim dedi ki, bu məktublar müharibədə olan əsgərlərə göndərilir. Mən də dedim ki, mənim atam əsgər deyil, komandirdir. Dedi, onda sən komandirə lap yekə məktub yaz. Mən də yazdım…

– Hə, qızım, yəqin gətirib verəcəklər…

Komandir bir daha evdə atışma səslərini eşitməsinlər deyə telefonu əynindəki qalın jiletin altında gizlədərək həyat yoldaşına: – Eşidirsən, gəlsəm Sevilə tortu özüm alacagam, gəlməsəm, uşağa mütləq o dediyi tortu alarsan. Bu işlərimizin hələ nə qədər çəkəcəyini dəqiq bilmirəm...

Bu zaman televizorda "Ərtoğrul" filminə baxan oğlu anasından telefonu aldı:

– Ata, ata…

Erməni snayperlərinin atdığı güllə bu zaman döyüşçülərdən birini ağır yaraladı. Komandir oğlu eşitməsin deyə telefonu qapatdı, yaralı döyüşçüyə ilk tibbi yardım göstərməyə tələsdi: – Uşaqlar, onu yana çəkin, tez… Snayper bu nöqtəni hədəfə alıb, – deyərək özü irəli atıldı və yaralı əsgəri kənara çəkib kitelinin qolunu açdı, qan axan yeri rezinlə sıxıb ona kömək etməyi tapşırdı. Özü isə səngərə bənzər çalaya atılıb güllə atılan tərəfi ani olaraq atəşə tutdu, sonra yerdəyişmə etdi. Düşmənlər yaxın məsafələrdə idi.

Deyəsən, düşmən snayperini öldürülmüşdü, çünki artıq həmin istiqamətdən atəş səsi eşidilmirdi.

Sonra yenidən evə zəng etdi: – Hə, oğlum, nə deyirdin?

– Ata, gələndə mənə qılınc alarsan? Ərtoğrulun qılıncından gətirəcəksənmi mənə?

“Qartal” gülümsədi:

– Ay səni… Oğlum, sənin adın Çingizdir, deməli, özün də elə Çingizxansan... Öz adını unutmusan? – deyərək gülümsədi: – İş otağımda o qılıncdan var. Onu mənə türklər hədiyyə edib. Onu sənə gətirəcəyəm. Amma onu bil ki, sən Çingizxansan. Sən “Çingizxan” filminə bax…

– Baş üstə, ata… Amma noolar, tez gəl…

– Söz verirəm, tez qayıdıb gələcəm…

“Qartal” oğlu ilə sağollaşdı. Sonra tez-tələsik anasını yığdı:

– Ana, necəsən?

Anası pərişan halda: – Dedilər müharibədəsən, ay bala, ehtiyatlı ol, qadan alım, sən bizə yox ey, ordumuza lazımsan… Bir o qədər əsgərin anası onları sənə əmanət edib, onları qoru…

“Qartal” dinmədi, ani olaraq fikrə getdi, sonra əlavə etdi: – Ana, düzünü deyim, uşaqlardan gizlətdim, biz döyüşdəyik, amma narahat olma… Erməniləri məhv edir igid əsgərlərimiz…

Amma anası çox nigaran idi. Həyəcanla: – Bala, qurban olum, özünü qoru, – deyərək kövrələrək susdu, sözünün arxasını deyə bilmədi…

– Ana, yaxşı də… Ağlama… Niyə ağlayırsan, noolub sənə?

Anası hıçqırtı ilə: – Sənə güllə dəysə, necə olacaq?

– Ana, burda əlliyə yaxın əsgər var, onların hamısının anası sənin kimi eləsə, daha nə oldu?! Siz bizə ürək-dirək verməlisiniz… Bəs deyirdin oğlum vətənə qurbandır! İndi isə ağlayırsan?

Anasının ağladığı səsindən hiss olunurdu: – Ağlamıram… Vallah, daha ağlamıram…

– Hə, bax elə… Ağlama, ana… Biz özümüz düşmənin anasını ağladırıq, bizim analar isə ağlamamalıdır…

## 2 OKTYABR 2020-Cİ İL

…Ətrafa ölü bir sakitlik çökmüşdü. Uzaqda dağların başını dövrəyə almış qara buludlar havanın yağmurlu olacağına bir işarə idi. Hamı əmrə uyğun olaraq növbəti hücuma hazır vəziyyətdə dayanmışdı. Lakin "Qartal" narahat hisslərin ağuşunda idi, əsgərlərini döyüş meydanından sağ-salamat çıxarmağı düşünürdü. Bu cür sakitlik bəzən ciddi qərarlar qəbul etməyə imkan vermir. Adətən, düşmən belə sakitlikdən pusqu qurmaq üçün istifadə edir.

"Qartal" 50-yə yaxın kəşfiyyatçı döyüşçünü üç hissəyə bölərək qarşıya qoyulan tapşırığı yerinə yetirməyə başladı. Döyüşçülər bir neçə istiqamətdən irili-xırdalı kol-kosun arxasında və yağış yağarkən yatmış qalın otluğun qalıqlarının arası ilə sürünərək düşmənin daha bir maneəsini darmadağın etməli idi. Çünki arxadan gələn quru qoşunların əsgərləri bu maneəyə görə hədəfə doğru irəliləyə bilmirdi.

Döyüşçülər bir neçə yüz metrlikdəki meşə ərazisinə çatanda müxtəlif istiqamətdən güllə yağış kimi yağmağa başladı. "Qartal" düşmənin atış nöqtələrini müəyyən edərək üç müxtəlif istiqamətdə mövqe tutduğunu başa düşdü. Bu, artıq mühasirə vəziyyəti idi.

“Qartal” əmr edərək döyüşçüləri maksimum dərəcədə dalda yer seçərək düşmən gülləsinə hədəf olmamağı tapşırdı. Atılan güllələr daha çox snayper silahlarından idi. Çünki tək-tək atılırdı və komandir səsindən tanıyırdı... O, ratsiya ilə komandanlığa vəziyyəti məruzə etdi. Onlar düşmənin arxasında idilər və irəlidə düşmən, geridə düşmən pusqusu olduğundan özü müstəqil qərar qəbul etmək üçün döyüşçülərə meşə kənarına çəkilməyi əmr etdi.

Vəziyyət son dərəcə ağır idi. Bu zaman poçt daşımalarına baxan əsgərlərdən biri sürünərək komandirə yaxınlaşdı: – Komandir, bayaqdan imkan olmadı, arxa cəbhədən bizə məktub və sovqatlar gətiriblər… Dedilər, püşkatma ilə paylayım… Bu sizin, bu da…

Poçtalyonun sözü ağzında yarımçıq qaldı, qəflətən snayper gülləsi növbəti məktubu almaq istəyən döyüşçüyə dəydi. Xoşbəxtlikdən o, elə də ağır yaralanmamışdı. Amma əsgər, deyəsən, birinci dəfə idi ki, qan görürdü, həyəcanlanmışdı. Komandir onun titrəyən əlindən tutdu:

– Hə, necədir? Qorxmadın?

Əsgər özünü sındırmamaq üçün: – Əladır, komandir! – deyib dərhal da əyilib güllə dəyən ayağına baxdı, bədəninə istilik gətirən qanı əli ilə yoxladı.

Komandir onu bu narahat və həyəcanlı vəziyyətdən çıxarmaq üçün söhbətə tutdu:

– Əsgər, heç həyatında qan görmüsən?

– Bəli, komandir, o qədər qırmızı qan görmüşəm ki…

Döyüşçülər gülüşdülər. Komandir: – Yaşıl qan da görmüsən ki?! – deyərək soruşdu…

Əsgər çaşdığını anladı, – Yox, qırmızı qan… Kənddə olanda anam toyuq-cücəni mənə kəsdirərdi…

Döyüşçülər özlərini gülməkdən güclə saxladılar. Komandir: – Mən sənin özünün qanını deyirəm, əsgər! – deyərək özü də gülməkdən uğunub gedən döyüşçülərə qoşuldu: – Allah səni güldürsün, – deyib onun yarasına lazımi tibbi yardımı göstərən digər əsgərə təlimatlarını verdi. Sonra ətrafdakıların da diqqətli və ehtiyatlı olmaları üçün bir az da hündürdən səsləndi: – Hə, axı sizə nə demişdim?! Deməmişdim ki, kimə güllə dəysə, məndən inciməsin?!

Hamı sakitcə dayanıb susmuşdu. Komandir ortada ora-bura gəzişən və cəld tullanaraq mövqe yerini dəyişib yerə uzanan əsgəri nümunə göstərdi:

– Bax onun kimi hərəkət edin, Rəşad sizlərə öyrətmişdi axı… Başınızı qaldıranda düşmən snayperi sizi nişan alır, siz dərhal yerdəyişmə etməlisiniz… Bax, indi hamı bura çəkilsin, düşmən oranı vura bilər…

Döyüşçülər sürünərək iri ağac və kolluq olan yamaca tərəf mövqe tutdular. Lakin bu zaman qarşı tərəfdən yenidən atəş səsləri eşidildi. Komandir giziri yanına çağırdı: -Gəlin, belə bir eksperiment aparaq: mən bu qara quzu dərisindən olan və içi samanla dolu papağı ağaca bağlayıb sürünən snayperçi kimi bu tərəfdən yamaca sarı hərəkət etdirəcəm… Düşmən snayperi onu

əsgərimiz bilib nişan alacaq. Sən Həsənov, sürünüb o biri xəndəyin sol tərəfindən atəşin hardan edildiyini durbinlə izləyərsən... Düşmən snayperi müqəvvaya atəş açacaq… Mən elə forma yaradacam ki, guya düşmən snayperi "əsgəri"mizi ağır yaralayıb və o yerində qan itirərək çabalayır… Düşmən snayperi növbəti dəfə daha rahat halda başını azacıq qaldırıb yenidən atəş mövqeyinə çıxanda onu vurursan… Anladın, əsgər?

Sərrast atıcılığı olan döyüşçü: – Oldu, komandir, o dığanı alnından vurmaq mənlik, – deyib mövqe tutdu…

Komandir uzunluğu 3-4 metr olan ağaca bərkidilib əsgərə oxşadılan müqəvvanın papağını yavaş-yavaş səngərdən çölə çıxardıb yamaca tərəf sürünmə görüntüsü yaratdı. Dediyi kimi də oldu, erməni snayper dərhal atəş açdı, güllə "əsgəri"n papağını dəlib keçdi… Komandir bir neçə saniyə gözləyib "əsgəri"n geriyə tərəf sürünmə vəziyyətini yenidən göstərməyə başladı. Düşmən snayperin atış istiqaməti bəlli oldu, bu vaxt snayperçi Həsənov düşməni nişangaha gətirdi. Komandir təkrar "əsgərin" yaralı olduğunu və sürünərək səngərə tərəf qayıtmaq istədiyi görüntüsünü yaratdı. Bunu belə zənn edən erməni snayper daha rahat atəş açmaq istəyəndə digər snayperçimizin silahından açılan atəş onu məhv etdi. Rabitəçimizin ermənilərin ratsiya ilə söylədiklərini dinləyəndə məlum oldu ki, vurulan erməni mayoru İrəvandan gəlmiş məşhur snayper imiş. O, yerindəcə ölmüşdü…



*(Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərov növbəti hərbi tapşırığı verərkən)*

…Atışma azacıq səngimişdi. Komandir döyüşçülərə dincəlməyi tapşırdı. Əsgərlərdən biri: – Komandir, nə qədər gözləməliyik? – deyə soruşdu. Komandirin cavabı qısa oldu:

– Ən azı bir saat… O da baxır düşmənin hərəkətinə…

Əsgər dil boğaza yığmırdı:

– Bəs bu qədər vaxtı neyləyək?

Yanındakı əsgərlərdən birinin cavabı hamını qəhqəhə çəkib gülməyə məcbur etdi:

– Komandir, əsgər Məmmədov düz deyir, bəlkə bir az odur eyy, o düzəngahda futbol oynayaq?!

Komandir də əsgərin zarafatını cavabsız qoymadı:

– Hə, olar… Amma futbol oynamağa topumuz olmasa da, erməniləri oynatmağa yaxşıca uzaqvuran toplarımız var, deyərik, birini bu meydana göndərərlər…

Əsgərlərin kefi bir az açılmışdı. Aralarında siqaret çəkənləri də var idi, amma komandirin yanında çəkməzdilər. Bəzən komandir bunu hiss edirdi, çünki tüstünü gizlədəsi deyildilər ki! Lakin komandir də onların xətrinə dəymədən özünü görməzliyə vurardı.

Ətrafa lal sükut çökmüşdü. Deyəsən, rütbəsi mayor olan erməni snayperin öldürülməsi düşmənləri bərk məyyus etmişdi, atəş açmırdılar. Komandir kənarda dayanıb dərin fikrə getmiş əsgəri yayına çağırdı:

– Niyə sakit dayanmısan?

Kədərli baxışlarını bir az aralıda dayanıb evə məktub yazan döyüşçülərdən birinə zilləmiş əsgər sürünərək komandirə yaxınlaşdı, – Eşidirəm, komandir! Sakit dayanmamışam, atamla danışırdım...

Hamı onda telefon olub-olmamasını yəqinləşdirmək üçün əlinə baxdı. Heç nə yox idi. Komandir təəccüblə:

– Sən atanla necə danışırdın?

Əsgər sualın mahiyyətini anlamışdı deyə komandirin sualına: – Xəyalımda, cənab polkovnik! – deyərək cavab verdi.

Əsgərin yanında dayanmış döyüşçülər güldülər. Komandir onu kədərli halından çıxarmaq üçün əlavə etdi:

– Yaxşı, atanla xəyalən danışdın, bu, çox yaxşıdır... İndi də anana məktub yaz, qoy narahat olmasın...

Əsgər əlini avtomatından çəkərək başını yumşaq otun üstünə qoydu, üzüqoylu dayanıb susdu. Əsgərlərdən biri: – Rüstəmov, sənə nə oldu?

O kövrəlib ağlayırdı... Komandir ötkəm səslə: – Əsgər, başını qaldır, nə oldu sənə? Dedim ki, anana məktub yazarsan və...

Əsgər sakitcə başını qaldırıb nəmli gözlərini komandirə zillədi: – Komandir, mənim anam yoxdur, kimə yazım?..

Əsgərlər təsirlənmişdilər... Artıq nəsə deməyə söz qalmamışdı. Əsgər yaz buludu kimi dolmuşdu. Komandir digər döyüşçülərə əli ilə susub onu danışdırmamağı əmr etdi...

Bu vaxt baş leytenant Rüstəmov komandirə tərəf sürünərək sakitliyi pozdu:

– Komandir, bəlkə bir hadisəni danışım, əsgərlərimiz üçün də maraqlı olacaq. Xüsusən də yaralanmış və ilk dəfə döyüşçü qanı görən bu əsgərimiz üçün…

Əsgərlər güldülər.

Baş leytenant daha sonra arxaya boylanıb gənc döyüşçülərə təlimat verdi:

– Amma qulağınız məndə, gözünüz isə odur eyy, o qayalığın solunda olsun. Çünki düşmənin əsas gizləndiyi və mövqe tutduğu məntəqə ordadır…

Sonra söhbətə başladı:

– Komandir, institutun filiologiya fakültəsini bitirəndən sonra məni təyinatla ucqar dağ kəndinə göndərdilər. Məktəb kasıb geyim-kecimli direktorun özü kimi nimdaş görkəmdə idi. Uzun illər əsaslı təmir olunmayan sinif otaqlarında avadanlıqlar, xüsusən də partalar köhnə, döşəmə dağılmış vəziyyətdə idi. Amma bu şəraitsizliyə baxmayaraq, şagirdlər olduqca savadlı, hazırlıqlı idi…

Əsgərlər baş leytenantın bu şirin, kənd həyatından bəhs edən söhbətinə diqqətlə qulaq asırdılar. Baş leytenant davam etdi:

– Artıq iki ay idi çoxu qız uşaqlarından olan sinifdə dərslərim əla keçirdi. Şagirdlər mənim dərs keçmək üslubumdan çox razı idilər. Mən həm də “Ana dili”ndən dərs deyirdim. Dərs keçdiyim bütün siniflərdə həftəlik dərslərin mövzusuna uyğun inşa yazdırırdım… Beləliklə, dərsdən 5 alan şagirdlərimin sayı getdikcə artmaqda idi…

Bu vaxt hardansa atışma səsi gəldi. Əsgərlər tez döyüş mövqelərini tutdular. Havada hərbi vertolyotlar göründü. Azərbaycan pilotları düşmən mövqeylərini və atəş məntəqələrini məhv edərək öz dislokasiya yerinə qayıdırdı. Sakitlik yaranan kimi baş leytenantın söhbətini səbrsizliklə gözləyən döyüşçülər onun ətrafına toplaşdılar. Komandir: – Görürsən də, hamısının ayağı burda, xəyalı kənddədir, – deyib güldü. – Siz danışın, qoy, xəyalən kəndə də baş çəksinlər…

– Komandir, artıq şagirdlər arasında əlaçı olmaq uğrunda yarış gedirdi. Beləcə, ilin yekununa planlaşdırdığım kimi, sinifdə şagirdlərə “Mənim atam kimdir?” adlı inşa yazı tapşırmışdım. İstəyirdim ki, şagirdlərin ataları barədə olan təsəvvürlərini öyrənim. Şagirdlər yazı dəftərini hazır etmişdi. Hamı inşanın mövzusunu gözləyirdi. Fasiləyə çıxmadan bir saata yazıb təhvil verməli idilər. Mən mövzunu elan edib, şagirdlərə sərbəstlik vermək üçün məktəbin həyətinə düşdüm… Qayıdanda gördüm ki, şagirdlərin hamısı inşa yazısını tamamlayıb. Sinif

nümayəndəsi dəftərləri yığıb mənə təhvil verdi. Baxdım ki, bütün dərslərindən əlaçı olan Zərifə adlı qız dəftəri boş qaytarıb, heç nə yazmayıb. Heç nə demədim… Niyə axı?! Ürəyimə yüz fikir gəldi. Həmişə ona "5" yazmışam, bəs indi bu nə deməkdir? Onun bu hərəkətini pis qəbul etdim. Xeyli düşündüm, qərara gəldim ki, yəqin bu uşaq indiyədək ona edilən hörmətdən arxayınlaşıb, bu addımı atıb… Evə məyyus halda getdim… Səhərədək gözümə yuxu gəlmədi. Mən onun dəftərinə iri bir "2" yazdım. Bütün düşüncələrim alt-üst olmuşdu. Əlaçı şagird sinif rəhbərinə qarşı niyə belə addım atmalı idi? Tezdən əsəbi halda məktəbə gəlib birbaşa sinfə girdim. Əyləşən kimi Zərifəni ayağa qaldırdım, ilk olaraq onun qiymətini elan etdim: – Zərifə, sən "2" alırsan… Sinifdən bir uğultu qopdu. Bütün şagirdlərin sifətinə ağır bir kədər çökmüşdü. Bu o demək idi ki, əlaçı şagird "2" alıbsa, görün qalanların qiyməti neçədir... Sükutu özüm pozdum:

– Zərifə, ayağa qalx!

O, ayağa qalxdı, başını aşağı əymişdi:

– Üzümə bax... Sənə indiyədək etdiyim güzəştlər azlıqmı etmişdi? Niyə inşa dəftərini boş qaytarmısan? Axı sənin qabiliyyətini bilirəm, deməli, saymazlıq etmisən! Qızım, bu hərəkətinin səbəbini izah edə bilərsənmi?

Zərifə adı kimi olan zərif barmaqları ilə gözlərini silib əlindəki bir məktubu mənə uzatdı. Sonra çantasını götürüb ağlaya-ağlaya sinfi tərk etdi. Mən hələ də nə

baş verdiyini anlamırdım. Zərifənin göz yaşları ilə islanmış kiçik məktub parçasını açdım. Dəhşətə gəldim.

Əsgərlərdən biri: – Yoldaş leytenant, nə yazmışdı?

Baş leytenant sakit səslə:

– Zərifə belə yazmışdı: “Müəllim, məni bağışlayın, atam haqqında inşanı yazmadım. Çünki atam Qarabağda şəhid olub, o şəhid olanda mən dünyada yox idim. Ona görə də indi atam haqqında inşa yaza bilmədim”.

Baş leytenant kədərli halda sözünü tamamladı:

– Mən dərhal Zərifənin arxasınca bayıra çıxdım, amma o, kəndin şəhid məzarlığına tərəf qaçaraq gözdən itmişdi...

Əsgərlərin nəmli gözləri diqqətdən yayınmırdı, komandir sükutu pozmaq üçün: – Yaxşı, hekayə bitdi… İndi açın görək şagirdlərimizdən kimə nə məktub gəlib, nə yazıblar? – deyərək öz cibindəki zərfi açdı. Məktubu görəndə səksəndi, gözlərinə inanmadı. Bu döyüşçülərin diqqətindən yayınmadı. Məktub öz qızından idi. “Bu ola bilməz…”, – deyərək öz-özünə pıçıldadı. Məktubu öpərək üzünə sıxdı… Sonra ətrafa baxdı, bir neçə cümləlik məktubu oxudu: “Salam, ata. Bu məktubu sənə yazıram. İnanıram ki, özünə çatacaq. Sən vətəni müdafiə edirsən. Vətən sənə, sən də Allaha əmanət olasan. Ata bayrağımızı mütləq Şuşada dalğalandır ha! Hörmətlə: Sevil Orxan qızı Əkbərova”.

Komandir məktubu qatlayıb sol döş cibinə qoydu. Ani olaraq ailəli olan döyüşçüləri göz önünə gətirdi: “Mən onları güllə qabağına verə bilmərəm. Yəqin onlara da şagirdlərdən belə bir məktub yazılıb. Onların

bəzilərinin körpə övladı var… O uşaqları necə atasız qoyum?”, – deyərək əmr etdi: – İgidlərim! Subay əsgərlər mən tərəfə gəlsin… Ailəli əsgərlər, döyüş meydanını aşağı sol istiqamətə tərk edirsiniz. Biz mühasirədəyik. Biz bir neçə nəfər düşmənin qarşısını kəsib başını qatacağıq, siz isə mühasirədən çıxıb gedirsiniz…

Döyüşçülər tərəddüd etdilər: – Komandir, bu mümkün deyil, döyüşürüksə, hamımız bir yerdə olacağıq…

– Bu, mənim sizə sonuncu əmrimdir, dərhal əməl edin! Dərhal… Kimi gözləyirsiniz?!

Komandirin zəhmli səsi ətrafa yayıldı… 6 nəfər döyüş meydanında qaldı. Qalanlar dərə aşağı yola düşdülər…

Atışma səsləri lap yaxından gəlirdi… Füzulinin Horadiz kəndi ilə Nüzgər yaşayış məntəqəsi arasındakı bir neçə ən vacib yüksəkliklərin hamısının işğaldan azad edilməsi qan bahasına olsa da, əldə edilmişdi və müharibənin Azərbaycan ordusunun xeyrinə dəyişməsində mühüm rol oynamışdı… Bu uğurlarda “Qartal”ın və döyüşçülərinin xüsusi xidməti var idi.

Birdən şiddətli döyüş başladı. “Qartal”ın yanında olan 6 döyüşçü düz, sağ və sol istiqamətdən hücuma keçmək istəyən erməni döyüşçülərinə qan uddururdu. Hiss olunurdu ki, düşmən onları əsir götürmək istəyir. Amma həm də qarşısındakıların peşəkar döyüşçülər olduğunu aydınca görürdü.

“Qartal” həmişə sevincini və kədərini bölüşdüyü yaxın dostu, xüsusi xidmət polkovniki Toğrul Şamxalova zəng etdi:

– Rəis, salam, necəsiz?

– Yaxşılıqdır…

Rəis “Qartal”ın səsindəki kallığı hiss edən kimi: – Nə olub səsinə?– deyə soruşdu.

– Heç, soyuq su içmişəm, keçib gedər…

– Təki elə olsun…Sizdə vəziyyət necədir? Atışma səsi eşidirəm…

– Heç, elə-belə, narahat olmayın, məşq edirik, – deyərək ani olaraq susdu, başından güllə yarası almış əsgərinin ona baxan donmuş gözlərinə sığal çəkdi. Artıq döyüşçülərin üçü şəhid olmuşdu. Aralarında Rəşad da var idi. Birdən: –Toğrul, səndən bir xahişim var…

Rəis tutuldu:

– Komandir, səndən narahat oldum. Düzünü de, nəsə problem var?

– Yox… Əslində, insan yaşayırsa, deməli, problem var… Bilirsən, bir şeyi deyim, vaxt yoxdur, birdən rabitə kəsilər, deyə bilmərəm…

– Buyur…

– Yəqin ki, siz Şuşada olanda mən olmayacağam…

Rəis əsəbləşdi: – Komandir, zarafatı burax. Biz Şuşaya bir yerdə gedəcəyik… Mənimlə bu nə zarafatdır edirsən?

– Yox, zarafat etmirəm… Eşit, bu mənim son xahişimdir, – Sonra dayandı, ani olaraq dərindən nəfəs alıb ara verilməyən güllə yağışına diqqət kəsildi: – Eşidir-

sən, rəis, Şuşaya bayraq sancmaq mənim ən müqəddəs arzumdur... Bilirsən ki, ömrümü buna həsr etmişdim. Hətta xidmət müddətim başa çatanda komandanlıq məni ehtiyata buraxmaq üçün fikrimi soruşanda rəhbərliyə demişdim ki, bir az da möhlət verin, Şuşanı görüm…

“Qartal” ayağından dəymiş güllənin ağrısını belə unutmuşdu: – Mənim əvəzimdən bir bayraq alarsan, küncünə adımı yazarsan, Şuşanın girəcəyində qala divarına sancarsan…

– Baş üstə, amma…

– Nə amma…

– Amma biz bir yerdə gedəcəyik Şuşaya, axı belə danışmışdıq…

– Hər ehtimala qarşı deyirəm. Həyatda möcüzələrə inanan adamam. Birdən şəhid olsam, bu arzumu yerinə yetir. Söz verirsən?

Rəis onun səsindəki mübariz, qəhrəmanlıq dolu qüruru və Şuşa nisgilini, komandir mübarizliyini aydın hiss edirdi:

– Komandir, baş üstə…

Birdən telefon zəngi kəsildi. Rəis bir neçə dəfə “Alo, alo” desə də, artıq dalğa yox idi. O, komandiri bir də yığdı, lakin operator “Bu nömrəyə zəng çatmır. Telefon ya söndürülüb, ya da…”.

Rəis düşündü ki, ola bilsin telefonun batareyası sönüb… Amma…

## 6 OKTYABR 2020-Cİ İL

“Qartal” oktyabrın 2-də 6 döyüşçüsü ilə birlikdə şəhid olmuşdu… Onların nəşi neytral ərazidə qalmışdı. Lakin düşmənin də onlarla döyüşçüsünün meyiti yamaclara səpələnmişdi.

Komandir və döyüşçüləri son nəfəsinədək döyüşüb şəhid olmaları ilə yüzə yaxın döyüşçünün mühasirədən sağ çıxmasına və sonra onların ən vacib strateji yüksəkliyi ələ keçirməyə çalışan düşmən qüvvələri mühasirəyə salaraq əsir götürməsinə, onlarla erməni yaraqlısının məhv edilməsinə şərait yaratmışdı.




Şuşa
BAKU MEDIA
CENTER

Onların nəşi 2020-ci il oktyabrın 6-da neytral ərazidən Orxan Əkbərovun qardaşı Ənvər Əkbərovun iştirakı ilə götürülərək uğrunda şəhid olduqları üçrəngli bayrağımıza bükülərək dəfn edilmişdir.

Döyüşçü yoldaşlarının həmin ərazidən çəkdikləri video və foto çəkilişlərdə isə hamını şoka salan bir mənzərə hələ də yaddaşlarda qəhrəmanlıq və igidlik rəmzi kimi qalır. Döyüşçülərimiz həmin əraziyə çatanda görürlər ki, şəhid olan döyüşçülər "Qartal"ın ətrafında yan-yana düzülüblər... Və onlar vətən torpağı uğrunda şəhidliyi bir-birinin əlindən tutaraq birlikdə qəbul ediblər, ən vacibi, özləri ilə götürdükləri Azərbaycan bayrağını bədənləri ilə qoruyublar ki, düşmən gülləsi bayrağa dəyməsin… O bayrağa ki, bu gün Qarabağın bütün ərazilərindəki strateji məntəqələrdə, o cümlədən Şuşada, Xankəndidə, Ağdamda, Laçında, Ağdərədə, Xocavənddə, Xocalıda, Füzulidə, Zəngilanda, Cəbrayılda, Qubadlıda… dalğalanır…




**Əfsanəvi kəşfiyyatçı**
**Orxan Nadir oğlu Əkbərov haqqında bilgi:**

**Doğum tarixi:** 12 dekabr 1982-ci il.
**Doğum yeri:** Saatlı, Azərbaycan Respublikası.
**Şəhid olduğu tarix:** 2 oktyabr 2020-ci il (37 yaşında).
**Şəhid olduğu yer:** Füzuli rayonu, Azərbaycan.
**Dəfn olunduğu yer:** Biləsuvar, Azərbaycan.
**Hərbi fəaliyyəti:** Azərbaycan Silahlı Qüvvələri.
**Qoşun növü:** Quru Qoşunlar Kəşfiyyatı.
**Xidmət illəri:** 2000-2020-ci illər.
**Hərbi rütbəsi:** Polkovnik-leytenant.

**Döyüşləri:**

– 2005-2008-ci illərdə postların irəli çəkilməsi zamanı kəşfiyyat fəaliyyəti.

– 2014-2015-ci illərdə xüsusi əməliyyatla düşmən postuna basqın.

– 2015-ci ili sentyabr kəşfiyyatında 9-a yaxın düşmən əsgərinin postda məhv edilməsi (Haramı – 181-ci h/h)

– 2016-cı ilin Aprel döyüşləri və 2020-ci ilin 44 günlük Vətən müharibəsi, Füzuli döyüşləri.

**Təltifləri:**

– "Vətən Müharibəsi Qəhrəmanı" ordeni;

– "Vətən uğrunda" medalı (2020-ci il);

– "Füzulinin azad olunmasına görə" medalı (2020-ci il);

– "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı;

– "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı;

– "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı;

– "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı;

– "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı.

**Ailəli olan şəhidimizin vətənə əmanət iki övladı yadigar qalıb: qızı Sevil və oğlu Çingiz.**



***

Ailədə dörd qardaş olan Orxan Əkbərov 1982-ci ilin 12 dekabrında ziyalı ailəsində anadan olub. Orta məktəbi Biləsuvar şəhəri, 1 saylı tam orta məktəbdə başa vurub. Uşaq yaşlarından hərbçi olmaq istəyən O.Əkbərov idman sahəsində peşəkar boksçu kimi dəfələrlə rayon çempionu olub. Hərbi xidmət illərində isə hərbçilər arasında peşəkar boks üzrə keçirilən yarışların qalibi olaraq mükafatlandırılıb.

Orxan Əkbərov 2000-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olaraq təhsilini leytenant rütbəsi ilə başa vurub.







2005-ci ildə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində təhsilini artıran bacarıqlı kəşfiyyatçı Füzulidəki “N” saylı həbi hissədə tağım komandiri, sonra bölük komandiri olub.

Şəhid olduğu günədək hərbi xidmətini ön cəbhədə yerinə yetirib. İgid kəşfiyyatçı Orxan Əkbərovun qorxmazlığı, hərbi bilik və bacarığı komandanlıq tərəfindən həmişə diqqətdə saxlanılıb, yüksək qiymətləndirilib. Bu xidmətləri fəxri fərman və diplomlarla qiymətləndirilib. Beyləqan və Ağdam rayonlarındakı “N” saylı hərbi hissələrdə kəşfiyyat rəisi olub.

Xidmət illərində də nizam-intizamı, qorxmazlığı, peşəkarlığı ilə seçilib və qarşıya qoyulan ən mürəkkəb tapşırıqları yüksək səviyyədə və dəqiqliklə yerinə ye-




tirib. Orxan Əkbərov 2019-cu ildən başlayaraq, Azərbaycanın işğal altında qalmış cəbhə bölgəsində, “N” saylı hərbi kəşfiyyat hissəsinə komandir təyin edilib. Orxan Əkbərov komandanlığın bu etimadını ləyaqətlə doğruldaraq, düşmənin cəbhədə törətdiyi təxribatların qarşının alınmasında yaxından iştirak edib. Vətən uğrunda döyüşlərə atılanda da əsgərlərindən öndə olub. “Torpaq – əgər uğrunda ölən varsa, vətəndir!” fəlsəfəsinə həm də bunu əlavə edib: torpaq – uğrunda düşməni öldürən və ölməyə hazır olan varsa, vətəndir!

Orxan Əkbərov öldürməyi, düşmənə qan uddurmağı da bacardı, öldürməyi, ölməyi və şəhid olmağı da!

**Allah şəhid Qəhrəmanımıza rəhmət eləsin!**

***



Sonralar rəsmi qaynaqlarda yazılacaqdı: "...XX əsrin 80-ci illərinin sonları – 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları ilə çıxış etmiş və Azərbaycana qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir. 2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırı-

şı, 2019-ci ildə Ermənistan Baş nazirinin Xankəndidə çıxışı zamanı “Qarabağ Ermənistandır” deməsi və mülki şəxslərdən ibarət “könüllü dəstələri” yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandığı, ölkənin, əhalinin və ərazinin, eləcə də Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilmiş, 28 sentyabr 2020-ci il tarixli Sərəncam ilə Azərbaycan Respublikasında qismən səfərbərlik elan olunmuş, hərbi əməliyyatlara hazırlıq və onların keçirilməsinə dair qərarlar qəbul edilmişdir. İlk gündən Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanılmış əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər əraziləri işğaldan azad edilmişdir.

Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar. Belə ki, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulmuşdur. 27 sentyabr 2020-ci il tarixdə saat 18:00 radələrində Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elb-

rus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailə (5 nəfər) tamamilə məhv olmuşdur. 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 26 nəfər həlak olmuş, 175 nəfər yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Ermənistan silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Bərdə rayonunda 29 nəfər həlak olmuş, 112 nəfər yaralanmış, rayonda yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Ümumilikdə, Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə, 13360 yaşayış və qeyri-yaşayış sahəsinə, 346 nəqliyyat vasitəsinə ziyan dəymişdir.

2020-ci ilin 27 sentyabr – 10 noyabr müddətində Ermənistan həm döyüş meydanında, həm də münaqişə zonasından kənarda yerləşən Tərtər, Ağcabədi və Goranboy rayonlarını qadağan edilmiş və son dərəcə təhlükəli olan fosfor bombalarından 5 dəfə istifadə etməklə müxtəlif vaxtlarda atəşə tutmuşdur.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox

kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir. Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçmişlər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edilmişdir. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da Ermənistan öz məğlubiyyətini etiraf etmişdir.

2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

Azərbaycan Prezidentinin 02.12.2020-ci il tarixli Sərəncamları ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü, noyabrın 8-i Zəfər Günü kimi təsis edilmişdir.

44 günlük döyüş əməliyyatları zamanı 2907 nəfər şəhid olmuş, 7 nəfər itkin düşmüş, xeyli yaralılar olmuşdur.

– 12-14 sentyabr 2022-ci il: 80 şəhid və 282 yaralı olmuşdur.

***

2021-ci il iyulun 7-də imzalanmış daha bir tarixi sənəd – “**Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı”** Vətən müharibəsinin əsas nəticələrindən birinə çevrildi. Bu Fərmanla Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmuş və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqlara malik Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları vahid iqtisadi rayonda – Şərqi Zəngəzur iqtisadi rayonunda birləşdirildi. Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsi Qarabağ iqtisadi rayonuna çevrildi. Beləliklə, SSRİ dövründə Azərbaycan xalqının üzləşdiyi daha bir tarixi ədalətsizliyi Prezident İlham Əliyev aradan qaldırdı.

## 19-20 SENTYABR 2023-CÜ İL

Sentyabrın 19-da Azərbaycan Ordusu lokal xarakterli hərbi əməliyyatlara başladı. Sentyabrın 20-də Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və xarici işlər nazirinin müavini Fariz Rzayev Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirdi. Brifinq zamanı aşağıdakı əsas məqamlar diqqətə çatdırıldı:

• Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törədib.

• Erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak olub və yaralanıb. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan

atəşə tutulub. Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb.

• Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak olub.

• Erməni silahlı qüvvələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edilib.

• Sadalanan amillər fonunda, Qarabağ iqtisadi rayonunda yerləşdirilmiş erməni silahlı qüvvələrinin təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləsmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

• Görülən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb.

• Antiterror tədbirləri müstəsna olaraq qanunsuz hərbi birləşmələri və hərbi infrastrukturu hədəf alıb. Mülki əhali və obyektlərə heç bir halda hücum edilməyib. Bununla bağlı hər hansı iddia əsassız və qəbuledilməzdir.

• Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yaşayış yerlərinin yaxınlığında hərbi infrastrukturun yerləsdirilməsini nəzərə alaraq, Azərbaycan ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırıb. Mobil SMS xidməti, səsgücləndirici texniki vasitələr və məlumat vərəqələri vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinləri müvafiq olaraq məlumatlandırılıb.

• Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüququn normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunub.

• Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb.

• Azərbaycan tərəfi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsinin regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olduğunu dəfələrlə bəyan edib.

• Bölgədə sülhə və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qara-

bağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır.

• Azərbaycanın suveren ərazilərində beynəlxalq hüquqa zidd olaraq istənilən hərbi mövcudluq regional sülh və təhlükəsizliyə ciddi təhdiddir və Azərbaycanın hərəkətləri müstəsna olaraq bu qanunsuz qüvvələrin sıradan çıxarılmasına və qondarma rejimin buraxılmasına yönəlib.

• Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı.

• Razılaşmaya əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı və tam şəkildə tərk-silah olunmalıdır.

• Razılaşmanın icrası Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçiriləcəkdir.

**21 sentyabr 2023-cü il.**

Sentyabrın 21-də Yevlax şəhərində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin nümayəndələri ilə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları çərçivəsində reinteqrasiya məsələlərini müzakirə etmək üçün görüş keçirildi.





Görüşdə Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev və xüsusi nümayəndəliyin əməkdaşı İlkin Sultanov təmsil edirdilər. Qarabağın erməni sakinlərini isə Sergey Martirosyan və David Melkumyan təmsil ediblər.

**27 sentyabr 2023-cü il.**

Azərbaycan Dövlət Sərhəd Xidmətinin sentyabrın 27-də verdiyi rəsmi məlumata görə, "Dağlıq Qarabağ Respublikasının dövlət naziri" vəzifəsində çalışmış Ruben Vardanyan "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində saxlanıldı və ona qarşı Azərbaycan CM-nin bir neçə maddəsi ilə cinayət işi başlanıldı. Bunun ardınca qondarma "Artsax" "prezidentinin" "müşaviri" David Babayan Ruben Vardanyanın həbsindən sonra təhlükədə olduğunu başa düşərək Azərbaycana könüllü təslim oldu.

**28 sentyabr 2023-cü il.**

Nəhayət, Qondarma "Dağlıq Qarabağ Respublikası"nın "rəhbəri" Samvel Şahramanyan "DQR"-in mövcudluğuna son qoyan "fərman" imzaladı. Bu sənədə əsasən, qondarma "respublika" özünü buraxır və 2024-cü il yanvarın 1-dək mövcudluğunu dayandı-



rır. Fərmanda Qarabağ əhalisinə Bakının təklif etdiyi reinteqrasiya şərtlərini nəzərdən keçirmək və daha sonra yaşamaq üçün ərazidə qalma imkanları barədə qərar qəbul etmək tapşırılır.

***

Bununla da Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 19-20 sentyabr 2023-cü il tarixində həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa olundu, ermənilərin Qarabağda ikinci erməni dövləti yaratmaq arzularına son verildi. Bu lokal antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu şəhid oldu, 511 hərbi qulluqçusu və 1 mülki şəxs yaralandı. Düş-



mən böyük itkilər verərək Qarabağda olan bütün dayaq məntəqələrini birdəfəlik tərk etdi.

***

2023-cü ilin oktyabrın 15-də Prezident, Ali Baş Komandan İlham Əliyev Xankəndi, Ağdərə və Xocalıda Azərbaycanın üçrəngli Dövlət Bayrağını qaldırdı, bununla da Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağda suveren hüquqları tam bərpa edildi.

Allah Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman oğul və qızlarımıza rəhmət eləsin! Onların qanı yerdə qalmadı!

Nəhayət, 8 noyabr 2023-cü ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin iştirakı və rəhbərliyi ilə Xankəndidə hərbi parad keçirildi.

**Kitab Vətən Müharibəsi Qəhrəmanı (ölümündən sonra) Orxan Əkbərovun həyat yoldaşı Nuranə Əkbərovanın maliyyə dəstəyi ilə çap olunmuşdur.**